

«Bizim istəyimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sahələrdə işlər ən yüksək səviyyədə təmin edilsin. ... Bizim çox güclü siyasi iradəmiz var, təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir və niyyətlərimiz artıq real işlərdə özünü göstərir.»

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# AZƏRBAYCAN PROKURORLUĞU

ELMİ-PRAKTİKİ JURNAL

**№ 1 (49)**

**YANVAR – MART 2015-ci il**

**Təsisçi:** Azərbaycan Respublikasının Baş Prokurorluğu



**REDAKSİYA HEYƏTİ:**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
*nazirbairamov@mail.ru*

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:** Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
Tel.: 492-25-17, Faks: 492-25-17
www.genprosecutor.gov.az

***

«Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

***

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövriliklə dərc edilir.

***

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli «Azərbaycan Prokurorluğu» elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan «Azərbaycan Prokurorluğu» jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

***

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

***

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

***

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

***

Çapa imzalanmışdır: 26.01.2015-ci il
60x84 1/8 formatda 100 səhifə həcmində çap olunmuşdur. Tiraj: 1350 nüsxə.



© «Azərbaycan Prokurorluğu», 2015


## MÜNDƏRİCAT


**İctimai-siyasi tədbirlər**
- Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir ............ 3
- Prezident İlham Əliyev şəhidlərin əziz xatirəsini yad etmişdir ............ 15
- Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ............ 18
- Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbriki ............ 21
- Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki ............ 21
- Prezident İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənlikdə iştirak etmişdir ............ 22

**Rəsmi tədbirlər**
- Baş Prokurorluqda 2014-cü ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir ............ 30
- Baş Prokurorluqda 2014-cü ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir ............ 33
- Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2014-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir .... 36
- Baş prokuror Avropa İttifaqının İnsan hüquqları üzrə xüsusi nümayəndəsi ilə görüşmüşdür ............ 39
- AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Baş Prokurorluqda olmuşlar ............ 39
- Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir ............ 40

**Təhlillər, təkliflər**
N.Bayramov – Cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) bəzi məsələlərinə aydınlıq gətirilməlidir *(davamı)* ............ 42

**İctimaiyyətə hesabat**
- Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsi yoxlanılmışdır ............ 46
- Hülud əl-Oran: Azərbaycan rəhbərliyi korrupsiyaya qarşı mübarizəyə böyük əhəmiyyət verir ............ 47
- Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir ............ 48
- Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir ............ 53
- Bakı şəhər prokurorluğunda «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir ............ 54
- Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 20 yanvar faciəsinin 25 illiyinə həsr olunmuş tədbir keçirilmişdir ........ 54
- Şərur rayon prokurorluğunda «Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları» mövzusunda seminar keçirilmişdir ............ 55
- Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması ilə əlaqədar Naxçıvan şəhər prokurorluğunda seminar keçirilmişdir 56

**Prokurorluğun beynəlxalq əlaqələri**
- Azərbaycanın Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlığı genişlənir ............ 57
- Türkiyə prezidenti Azərbaycan nümayəndə heyətini qəbul edib ............ 59
- Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq qurumlarla əməkdaşlıq uğurla davam etdirilir ............ 64
- Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı beynəlxalq tədbirlərdə iştirak etmişdir 65

**Normativ hüquqi aktlar**
- Qanunvericiliyə dəyişikliklər ............ 66
- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarları ............ 83

# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.

***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ



Bu gün biz 2014-cü ilin yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilmişdir. 2014-cü il də ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacaqdır.

Düz bir il bundan əvvəl biz keçən ildə görüləcək işlərlə bağlı geniş fikir mübadiləsi aparmışdıq, qarşıya mühüm vəzifələr qoyulmuşdu və il ərzində çox gərgin iş aparılmışdır. Keçən il dünyada və bölgədə müxtəlif proseslər gedirdi. Gərginlik, demək olar ki, böyük dərəcədə artmışdır. Ancaq Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmişdir. Ölkəmizin təhlükəsizliyi təmin edilmişdir, iqtisadi və sosial proqramlar icra olunmuşdur. Azərbaycan xalqı 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşamışdır.

Bu, bir daha onu göstərir ki, bizim tutduğumuz yol düzgün yoldur. Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməmişdir. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək.

Ölkə iqtisadiyyatı uğurla inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, həm ümumi daxili məhsul, eyni zamanda, qeyri-neft sektorumuz artsın. Bu iki əsas vəzifə tam şəkildə təmin edilmişdir. İqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Bu, bugünkü dünyada çox gözəl göstəricidir. Bəzi ölkələrdə artım da yoxdur, əksinə, tənəzzül müşahidə edilir. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir.

Baxmayaraq ki, ilin sonunda neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artmışdır. Ən sevindirici

hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində görülən işlərin bariz nümunəsidir, aparılan siyasətimizin təzahürüdür. Qeyri-neft sektoru gələcəkdə Azərbaycanın iqtisadi inkişafını daha da böyük həcmdə təmin edəcəkdir. Qeyri-neft sektorunun inkişafı bizə imkan verir ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin və iqtisadiyyatımızın dayanıqlı inkişafı təmin edilsin.

İnflyasiya çox aşağı səviyyədə olmuşdur – 1,4 faiz. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Əhalinin pul gəlirləri inflyasiyanı üç dəfədən çox üstələmişdir. Deyə bilərəm ki, son illər ərzində bu mənzərə müşahidə olunur – əhalinin pul gəlirləri inflyasiyanı bir neçə dəfə qabaqlayır. Bu da insanların rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir. Bu da çox sevindirici haldır. Son illər ərzində daxili sərmayələr qoyulan investisiyaların həcmində üstünlük təşkil edir. Eyni zamanda, qoyulan 11 milyard dollar xarici sərmayə göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır. İndiki şəraitdə, dünyada və bölgədə müşahidə olunan çox ağır vəziyyəti nəzərə alaraq 11 milyard dollar xarici investisiyaları cəlb etmək böyük uğurumuzdur.

Əlbəttə ki, bu uğurun təməlində son illərdə aparılan siyasət dayanır. Əgər bu siyasət, investorların Azərbaycanın sabitliyinə, gələcəyinə inamı olmasaydı, heç kim Azərbaycana vəsait qoymazdı. 27 milyard dollar həcmində investisiya qoyuluşu və bunun müqabilində 1,4 faizlik inflyasiya Azərbaycanın uğurlu inkişafının ən gözəl göstəricisidir. Çünki həm pensiyalar, maaşlar, həm də əhalinin pul gəlirləri artmışdır, böyük həcmdə investisiya qoyulmuşdur, inflyasiya isə ən aşağı səviyyədədir.

Manatın məzənnəsi sabitdir. Bir neçə ildir ki, manatın məzənnəsi nəinki sabitdir və eyni zamanda, əsas dünya valyutalarına qarşı daha da böyük dəyər qazanır. Keçən il də biz bunu görmüşük. Bu da çox müsbət göstəricidir. Çünki manatın sabit olması ilk növbədə, insanların rifah halının yaxşılaşmasına xidmət göstərir, əhalinin alıcılıq qabiliyyəti artır. Azərbaycanda manatın məzənnəsi sabitdir. Bu, bir daha bizim uğurlu iqtisadi siyasətimizi göstərir.

Valyuta ehtiyatlarımız artıb. Yadımdadır, bir il bundan əvvəl göstəriş vermişdim ki, baxmayaraq, 2014-cü ildə bizim böyük xərclərimiz – həm infrastruktur layihələrinin, neft strategiyamızın icrası, «Cənub» qaz dəhlizinin inşası ilə bağlı böyük xərclər olacaq, ancaq biz elə etməliyik ki, valyuta ehtiyatlarımız artsın. Biz bunu təmin edə bilmişik. Hazırda bizim 50 milyard dollardan çox valyuta ehtiyatlarımız vardır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. Həm valyuta ehtiyatlarımızı ildən-ilə artırırıq, eyni zamanda, ölkəmizin dayanıqlı tərəqqisi üçün bu imkanlardan istifadə edib iqtisadiyyatın inkişafına, infrastruktur layihələrinin icrasına böyük həcmdə vəsait qoyuruq.

Bir sözlə, 2014-cü ildə əsas iqtisadi göstəricilərimiz çox müsbətdir, deyə bilərəm ki, bəlkə dünya miqyasında ən gözəl göstəricilərdir. Azərbaycan son 11 il ərzində dünyada iqtisadi artım templərinə görə ən sürətlə inkişaf edən ölkədir. Bunu əhali, xalqımız görür, gözəlləşən ölkəmiz bunun bariz sübutudur. Eyni zamanda, bunu mötəbər beynəlxalq iqtisadi qurumlar qeyd edirlər. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Yəni, biz dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Bu, tarixi nailiyyətdir.

Əlbəttə, güclü iqtisadiyyat, düşünülmüş siyasət imkan verir ki, sosial sahəyə də diqqət göstərilsin. Bu sahə daim prioritetdir, bu il də prioritet olaraq qalacaq. Sosial obyektlərin inşası uğurla təmin edilmişdir, 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb tikilib istifadəyə verilmişdir. Əmək haqqı, pensiya artmışdır. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 600 dollara yaxınlaşır. Biz çalışacağıq ki, bu templər ildən-ilə daha sürətlə təmin edilsin. 400 min insana ünvanlı sosial yardım verilir, 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Dövlət tərəfindən hər ailəyə orta hesabla 155 manat, yəni, 200 dollara yaxın vəsait verilir.

Əlbəttə, bu, bizim vəzifəmizdir. Biz bunu edəcəyik. Ancaq əminəm ki, insanların rifah halı

yaxşılaşdıqca ünvanlı sosial yardıma ehtiyacı olanların da sayı azalacaq. Çünki hazırda Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Keçən il də yoxsulluq aşağı düşübdür, işsizlik 5 faizdən aşağıdır. Bizim gördüyümüz işlərin nəticələri bax, budur. Bu rəqəmlər özlüyündə bizim uğurlu inkişafımızı təsdiq edir.

Keçən il Azərbaycanda «Sənaye ili» elan edilmişdir və 230-dan çox sənaye müəssisəsi yaradılmışdır. 123 min yeni iş yeri açılmışdır ki, onlardan təxminən 100 mini daimi iş yeridir. Bu proses də sürətlə getməlidir. Çünki Azərbaycanda yeni iş yerlərinin yaradılmasına hələ də ehtiyac var. İşsizlik hələ var, eyni zamanda, sürətli iqtisadi inkişaf demoqrafik vəziyyətə müsbət təsir etmişdir. Keçən il Azərbaycanda əhalinin sayı 116 min nəfər artmışdır. Odur ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bu, belədir və bu il də bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir.

Keçən il bir neçə iri layihə icra edilmişdir. Hər bir layihə özlüyündə nəhəng bir layihədir. Mən onların arasında Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulmasını xüsusilə qeyd etmək istəyirəm. Eyni zamanda, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalı istifadəyə verilmişdir. Yəni, bu layihənin birinci mərhələsinin birinci hissəsi artıq icra edilmişdir. Şəmkirçay su anbarı istifadəyə verilmişdir. Bu da nəhəng layihədir, ölkəmizin uzunmüddətli və sürətli inkişafına təkan verəcək. Eyni zamanda, böyük sənaye müəssisələri, o cümlədən «Norm» sement zavodu istifadəyə verilmişdir ki, orada sementin istehsalı 2 milyon tona bərabərdir. Bu zavodun istifadəyə verilməsi ilə biz artıq idxaldan asılılığımızı tamamilə aradan götürmüşük və ixrac imkanlarımız da artır.

Əlbəttə ki, digər layihələr də diqqətəlayiqdir. Bu əsas infrastruktur və sənaye layihələri ancaq güclü dövlətdə icra edilə bilər. Çünki biz dünyada gedən prosesləri izləyirik. Görürük ki, dünyanın müxtəlif yerlərində böhran – iqtisadi böhran, maliyyə böhranı, siyasi böhran yaşanır. Belə olan halda nəinki investisiyalar qoyulmur, hətta maaşlar, pensiyalar kəsilir, iş yerləri ixtisar edilir. Ancaq buna baxmayaraq, biz Azərbaycanda bunun tam əksini görürük. Nəzərə alsaq ki, Azərbaycan dünya iqtisadiyyatına çoxdan inteqrasiya edib, biz dünya iqtisadiyyatının bir parçasıyıq, belə uğurlu mənzərəni təmin etmək üçün, əlbəttə, böyük səylər göstərilməli, uzunmüddətli, düşünülmüş siyasət aparılmalı idi. Biz buna planlı, əsaslı şəkildə nail ola bilmişik. Bu nəticələr deməyə əsas verir ki, Azərbaycan bundan sonrakı illərdə də uğurla inkişaf edəcək.

Dünyada neftin qiyməti kəskin şəkildə, 2 dəfədən çox aşağı düşmüşdür. Əlbəttə ki, bu, bizim gəlirlərimizə mənfi təsir edəcək. Ancaq buna baxmayaraq, iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində görülən və bundan sonra görüləcək işlər, institusional islahatlar və daha da səmərəli idarəetmə üsullarının tətbiq edilməsi nəticəsində əminəm ki, Azərbaycan bu vəziyyətdən də şərəflə çıxacaq, manatın məzənnəsi sabit olaraq qalacaq, iqtisadi inkişaf təmin ediləcəkdir.

Keçən il ikinci peykimiz orbitə buraxıldı. Bu da çox gözəl hadisədir. Bu da nəhəng layihələr arasında özünəməxsus yer tutan bir layihədir. Artıq bizim iki peykimiz var. Biri telekommunikasiya peyki, ikincisi Yer səthini müşahidə edən peyk. Bunun çox böyük əhəmiyyəti var və Azərbaycanda kosmik sənayenin inkişafı sürətlə gedir. Biz yeni texnologiyalara, innovasiya layihələrinə sərmayə qoyuruq və bu layihələr həm elmin inkişafına xidmət göstərir, idarəetmə məsələlərini təkmilləşdirir, eyni zamanda, cəmiyyətdə hələ də mövcud olan xoşagəlməz halların qarşısını alır.

«ASAN xidmət» mərkəzlərinin açılmasını xüsusilə qeyd etmək istəyirəm. Artıq 7 mərkəz fəaliyyət göstərir, iki il ərzində 3 milyon 500 min müraciət olmuşdur və orada göstərilən xidmətlərin sayı artır, keyfiyyəti yüksək səviyyədədir, cəmiyyət tərəfindən çox müsbət qarşılanır. Korrupsiya və rüşvətxorluğa qarşı son illər ərzində aparılan institusional islahatlar içərisində «ASAN xidmət» əlbəttə ki, ön plandadır. İndi bizim təcrübəmiz başqa ölkələrdə də öyrənilir. On yeni avtobus alınmışdır, səyyar xidmət daha da böyük coğrafi məkanda təmin ediləcəkdir. Beləliklə, bu xidmət həm yenilik, həm rahatlıq gətirib, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə çox ciddi dönüş yaradıbdır. Həm praktiki nöqteyi-nəzərdən, eyni zamanda, cəmiyyətdə bu bəlanın aradan qaldırılması üçün indi daha da

böyük imkanlar var, daha da çox insan bu məsələlərə nikbinliklə yanaşır.

Bizim istəyimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sahələrdə işlər ən yüksək səviyyədə təmin edilsin. Sosial siyasətdə, iqtisadi inkişafda, idarəetmədə xoşagəlməz halların aradan qaldırılması, əlbəttə ki, bütün bu gözəl mənzərəni tamamlayacaq və bu istiqamətdə işlər məqsədyönlü şəkildə aparılır. Bizim çox güclü siyasi iradəmiz var, təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir və niyyətlərimiz artıq real işlərdə özünü göstərir.

Keçən il beynəlxalq əlaqələrimiz artmışdır. Bizim əməkdaşlıq etdiyimiz ölkələrin, yəni, fəal əməkdaşlıq etdiyimiz ölkələrin sayı gündən-günə artmaqdadır. Azərbaycan həm ikitərəfli, həm çoxtərəfli formatda çox uğurlu xarici siyasət aparır. Əlbəttə ki, keçən il ilk növbədə, qonşu ölkələrlə bizim ikitərəfli formatda çox sıx təmaslarımız olmuşdur. Dövlət başçıları səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər təşkil edilmişdir. Avropa və Asiya ölkələri ilə ən yüksək səviyyədə ikitərəfli əlaqələrin inkişafı üçün işlər görülmüşdür. Azərbaycan dünyada çox böyük hörmətə malikdir, etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq nüfuzumuz getdikcə artır. Regional məsələlərin həllində, regional əməkdaşlıq məsələlərində Azərbaycanın rolu əvəzolunmazdır. Biz bir çox təşəbbüslərin müəllifiyik. Bu təşəbbüslər sadəcə olaraq niyyət deyil. Bu təşəbbüslər real layihələrə çevrilir. Bu layihələrin icrası, əlbəttə ki, bizim imkanlarımızı artırır və ölkəmizə siyasi, iqtisadi dividendlər gətirir.

Biz keçən il beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq etmişik. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Azərbaycan fəal iştirak edir, öz mövqeyini müdafiə edir və bu təşkilatların uğurlu fəaliyyətinə öz dəyərli töhfəsini verir. Keçən il biz Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmişik. Bu, çox uğurlu sədrlik dövrü idi. Bu dövr ərzində Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına, ədalətin bərqərar olmasına Azərbaycan çox böyük və dəyərli töhfələr vermişdir. Xüsusilə, ölkəmizin multikulturalizmlə bağlı təcrübəsi nadir xarakter daşıyır. Hesab edirəm ki, əgər bizim təcrübəmiz dünyada daha da geniş şəkildə təhlil edilsəydi, bir çox xoşagəlməz halların qarşısı alına bilərdi.

Yəni, Azərbaycan öz işi ilə, görülən işlərlə, aparılan siyasətlə və keçirilən tədbirlərlə ümumbəşəri dəyərlərə öz dəyərli töhfələrini verir. Biz beynəlxalq təşkilatlarla bundan sonra da fəal əməkdaşlıq edəcəyik. Biz üzv olduğumuz təşkilatlar qarşısında götürdüyümüz öhdəlikləri vaxtında və artıqlaması ilə yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında əlbəttə ki, bizim heç bir öhdəliyimiz ola bilməz. Təbii ki, ikitərəfli formatda heç bir ölkə qarşısında bizim heç bir öhdəliyimiz yoxdur və ola da bilməz. Bu, beynəlxalq münasibətlərin qanunlarıdır. Əgər kimsə hesab edir ki, Azərbaycana ultimatum dili ilə, yaxud da diktat dili ilə nə isə deyə bilər, səhv edir. Bizim tariximiz, son illər ərzində apardığımız müstəqil, cəsarətli siyasət bunu bir daha göstərir və bütün ölkələr ancaq ikitərəfli formatda bərabərhüquqlu münasibətlər qurmalıdırlar. Bu, beynəlxalq davranışın qaydalarıdır. Heç bir ölkənin istisna ixtiyarları, haqları yoxdur, ola bilməz. Bütün ölkələr bərabərdir və bütün ölkələri birləşdirən təşkilat BMT-dir. O təşkilat ki, 2011-ci ildə Azərbaycanı bu təşkilatın ən üst qurumuna seçmişdir. Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. Bu fakt Azərbaycanın beynəlxalq nüfuzunu əks etdirən ən gözəl göstəricidir. Bu gün beynəlxalq aləmdə böyük nüfuza sahib olan Azərbaycanı ləkələmək, qaralamaq, şər-böhtan atmaq cəhdləri əbəsdir. Bunların heç bir təsiri yoxdur, bu, bizim siyasətimizə heç vaxt təsir etməyəcək. Heç bir kənar qüvvə bizimlə ultimatum dili ilə danışa bilməz. Bunu hamı bilməlidir. Biz həm rəsmi bəyanatlarda, eyni zamanda, bağlı qapılar arxasında aparılan müzakirələrdə öz mövqeyimizi müdafiə edirik. Biz ikili standartlardan uzağıq və hesab edirik ki, beynəlxalq münasibətlərdə ikili standartlara yol verilməməlidir. İkili standartlar o standartları tətbiq etmək istəyənlərin əleyhinə də işləyir. Biz bunu indi tarixdən və dünyada gedən proseslərdən görürük. Daxili işlərə müdaxilə etmək, kimisə hansısa işlərə təhrik etmək – bu, heç kimə xeyir gətirmir. Bu, ölkələri qarışdırır, sabitliyi pozur, ölkələrdə qanlı toqquşmalara gətirib çıxarır və bu qanlı toqquşmaların arxasında

dayanan qüvvələrə də nəticə etibarilə mənfi təsir göstərir. Çünki bu gün dünyada bütün ölkələr demək olar ki, bir-biri ilə bağlıdır və istənilən yerdə baş verən hadisə nə vaxtsa başqa yerdə də öz əks-sədasını verə bilər. Bir daha demək istəyirəm ki, bizim mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanır. Biz bu mövqeyi uğurla müdafiə edirik və edəcəyik.

O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, əfsuslar olsun ki, keçən il də bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Keçən il də Ermənistan sadəcə olaraq danışıqlar prosesində imitasiya taktikasını seçmişdir. Hesab edirəm, bu, artıq nə bizim üçün, nə də vasitəçilər üçün sirr deyil ki, Ermənistan sülh istəmir. Ermənistan istəyir ki, bu münaqişə öz həllini tapmasın və işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə demişlər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözlərdən başqa bir şey deyil. Sadəcə olaraq sözlərdir və bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə, – bu, əlbəttə ki, qəbuledilməzdir, – onda bir tədbir görülməlidir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O, məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Yoxsa bu da riyakarlığın bir növüdür. Bir bəyanat verilir, onun arxasında iş görülmür. Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, bu, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, maraqlıdır bu münaqişə dondurulmuş, yarıdondurulmuş vəziyyətdə qalsın və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etsinlər. Son illərdə müxtəlif bölgələrdə – Avropada, Yaxın Şərqdə gördüyümüz mənzərə bax, bu mövqeyi, bu yanaşmanı daha da gücləndirir. Proseslərdən belə nəticə çıxır. Ona görə, buna da aydınlıq gətirilməlidir ki, biz nə vaxta qədər bu ikili standartlarla üzləşəcəyik?!

Bununla bərabər, Ermənistan keçən il yay aylarında və ilin sonunda bir neçə dəfə açıq təxribatlara əl atmışdır. Hər iki dəfə Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu. Yay aylarında 50-dən çox işğalçı məhv edildi. Noyabr ayında isə ermənilərin təxribatı cavabsız qalmamışdır. Bütün bu təxribatların nəticəsində baş verən hadisələrə görə Ermənistan rəhbərliyi – kriminal, diktatura rejimi məsuliyyət daşıyır. Ermənistanın bugünkü acınacaqlı vəziyyətinə görə də bu ölkənin indiki və əvvəlki rəhbərliyi bilavasitə cavabdehlik daşıyır. Çünki məhz onların işğalçı siyasətinə görə Ermənistan müstəqil ölkə kimi özünü göstərə bilməmişdir. Faktiki olaraq heç müstəqilliyi əldə etməmişdir. Sadəcə olaraq bu, formal bir məna daşıyır.

Azərbaycan isə bu məsələdə də prinsipial mövqedədir. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim mövqeyimizi gücləndirən ordumuzdur. Bizim ordumuz keçən il öz qüdrətini, nəyə qadir olduğunu göstərdi. Düşmənə də, düşmənin havadarlarına da göstərdi ki, istənilən vaxtda Azərbaycan ordusu öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə bu məsələ öz həllini danışıqlar yolu ilə tapsa, əlbəttə ki, daha yaxşı olar. Hesab edirəm ki, bu bir neçə amilin mövcudluğu bizim mövqeyimizi daha da möhkəmləndirir.

Danışıqlar prosesində heç bir irəliləyişin olmamasına baxmayaraq, mən hesab edirəm ki, keçən il Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox böyük işlər görmüşdür – həm siyasi sahədə, həm regional çərçivədə və həm də hərbi sahədə – döyüş meydanında. Biz ermənilərə elə dərs verdik ki, indiyə qədər özlərinə gələ bilmirlər, təşvişdədirlər, isterikadadırlar. İndi bizi müxtəlif beynəlxalq tədbirlərdə ittiham etməyə çalışırlar. Amma sual olunur: Erməni əsgərinin Ağdamda, Füzulidə nə işi var? Erməni ordusunun orada nə işi var? Nə üçün onlara bunu bizdən başqa heç kim açıq-aydın şəkildə demir? Bu məsələ ilə məşğul olan vasitəçilər buna nə üçün biganə yanaşırlar? Bax, bu suallar ritorik suallardır. Biz bilirik nə üçün. Amma yenə də biz bu sualları

hər bir tədbirdə, hər bir forumda verməliyik. Dövlət məmurları, ictimai xadimlər, deputatlar, adi vətəndaşlar, vətəndaş cəmiyyətinin üzvləri bu sualları verməlidirlər. Qoy, bu suallara, ikili standartlar siyasətinə, ermənipərəst siyasətinə görə cavab versinlər. Yoxsa bu qədər riyakarlığa artıq dözmək çətindir. Hesab edirəm ki, artıq burada diplomatik dillə danışmağa da heç ehtiyac yoxdur. Bir daha demək istəyirəm, həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik.

2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni, növbəti illərdə ancaq bu proses daha da sürətlə gedəcək.

Yenə də demək istəyirəm ki, 2014-cü ilin yekunları və 2015-ci il bir daha bizim gücümüzü göstərəcək. Nə neftin qiymətinin düşməsi, nə böhranlar, nə yaxınlıqda baş verən qanlı toqquşmalar bizim sürətli inkişafımıza təsir edə bilməz. Mən tam əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik.

***

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, Baş nazirin müavini, Qaçqınların və məcburi köçkünlərin işləri üzrə dövlət komitəsinin sədri Əli Həsənov və Mərkəzi Bankın sədri Elman Rüstəmov çıxış etdilər.

## PREZİDENT İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

2015-ci ildə ölkə qarşısında duran vəzifələr bəllidir. Biz çalışmalıyıq ki, iqtisadi inkişafımızı təmin edək. Əminəm ki, belə olacaq. Ancaq heç kəsə sirr deyil ki, 2015-ci il dünya iqtisadiyyatı üçün çox ağır il olacaqdır. 2014-cü ilin sonlarında müşahidə olunan proseslər təbii ki, 2015-ci ildə də davam edəcək. Dünyada mövcud olan qeyri-sabit iqtisadi vəziyyət hələ bir müddət davam edəcəkdir. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi əlbəttə ki, təbii resurslarla zəngin ölkələr üçün bir sınaq olacaqdır.

Ancaq əvvəlki illərdə apardığımız siyasət, şaxələndirmə, düşünülmüş iqtisadi islahatlar, ictimai-siyasi sabitlik, xalqla iqtidar arasındakı birlik və eyni zamanda, böhranlı vəziyyətlərə hazır olmağımız əminəm ki, 2015-ci ili də uğurla başa vurmaq üçün bizə imkan yaradacaqdır.

Azərbaycanda makroiqtisadi vəziyyət sabitdir. Son illər ərzində əsas prioritetlər arasında biz həmişə makroiqtisadi sabitliyi qeyd edirdik. Bu, ölkə iqtisadiyyatı üçün önəmlidir, xarici investisiyaların cəlb edilməsi üçün çox önəmli amildir. Eyni zamanda və ilk növbədə, insanların rifah halının yaxşılaşması üçün makroiqtisadi sabitlik ən önəmli məsələdir və biz bu sabitliyi uzun illərdir ki, təmin edirik. Böhranlı illərdə – 2008-2009-cu illərdə də təmin etmişik. Keçən il də təmin etmişik və bu il də təmin edəcəyik.

Manatın məzənnəsi, – artıq burada deyildi, – bir çox məsələlərin həlli üçün bizə imkanlar yaradır, ilk növbədə, ölkəmizin dinamik və uğurlu inkişafına xarici investorlarda inamı artırır, Azərbaycan əhalisinin rahat yaşamasını təmin edir. Manatın sabit qalması insanların birbaşa yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edir və əlbəttə ki, bu amillər hər bir ölkə üçün önəmlidir. Hər bir ölkə üçün onun milli valyutası müstəqilliyin atributlarından biridir. Bu gün manat dünya miqyasında ən sabit valyutalardan biridir. Hesab edirəm ki, xarici vətəndaşlar və



xarici şirkətlər öz vəsaitini manat hesablarında saxlasalar uduzmazlar. Həm pullar yerində qalacaq, eyni zamanda, o pullar onlara əlavə gəlirlər gətirəcəkdir. Çünki indi dünyada bir çox maliyyə institutlarında depozitlərə artıq faiz vermirlər. Sadəcə olaraq depozitləri bir əmanət kimi saxlayırlar.

Yəni, bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyanın bir parçası kimi çoxdan təsdiq edib və indi biz dünyaya açığıq, açıq iqtisadiyyat, açıq siyasət, açıq qapılar siyasəti aparırıq. Birbaşa qoyulan xarici sərmayələrin həcminə görə Azərbaycan bu bölgədə uzun illərdir ki, liderlik mövqelərini saxlayır. Yəni, biz dünya iqtisadiyyatının bir parçasıyıq. Buna baxmayaraq, düşünülmüş siyasət nəticəsində və iqtisadiyyatımızı qorumaq əzmində olmağımız əlbəttə ki, bu nadir vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Biz bunu qorumalıyıq. 2015-ci il də bu istiqamətdə önəmli il olacaqdır.

İkinci önəmli vəzifə, – bu da artıq bir neçə ildir ki, daim vurğulanır, – qeyri-neft sektorumuzun inkişafıdır. Əgər biz vaxtilə bu istiqamətdə önəmli addımlar atmasaydıq, neftin qiymətinin bugünkü konyunkturası bizə çox mənfi təsir göstərə bilərdi. Ancaq bu gün qeyri-neft sektorumuz iqtisadiyyatda hərəkətverici amildir və 7 faiz səviyyəsində artan qeyri-neft sektorumuz görülən işlərin nəticəsidir. Bu, eyni zamanda, həm investorlara, həm yerli şirkətlərə əlavə nikbinlik verir.

Əhali də bunu görür və yüksək qiymətləndirir. Nəyin hesabına buna nail ola bilmişik? İlk növbədə, regional inkişaf proqramının icrası, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi, düşünülmüş siyasət, sənayeləşmə siyasəti, xarici investisiyaların cəlb edilməsi, neftdən əldə olunan gəlirlərin düzgün istiqamətə yönəldilməsi sayəsində. Bütün bu amillər qeyri-neft sektorumuzun inkişafını təmin edir.

Biz qeyri-neft sektorunun inkişafı üçün infrastruktur layihələrini icra edirik. Əgər bu layihələr icra edilməsəydi, regionlarda biznes imkanlarından söhbət gedə bilməzdi. Eyni zamanda, düşünülmüş iqtisadi siyasətlə düzgün prioritetlər seçmişik və ildən-ilə bu prioritetlərin növbəliliyi dəyişir. Bu da təbiidir, çünki biz doqmatik yanaşmadan çox uzağıq, çevik iqtisadi siyasət aparırıq. Daxili bazarı təmin etmək üçün yerli istehsalın artırılması da qeyri-neft sektorunun inkişafına birbaşa təsir edən amildir və bütün bu görülən işlər və digər tədbirlər nəticəsində dayanıqlı inkişaf artıq təmin edilib. Ümumi daxili məhsulumuzda qeyri-neft sektoru üstünlük təşkil edir. Gələcəkdə neft amilinin ümumi daxili məhsulumuzda aşağı düşməsi nəticəsində ölkə iqtisadiyyatının neft amilindən

asılılığı daha da azalacaqdır. Bu, bizim vəzifəmizdir. Mən həmişə demişəm, bu gün də demək istəyirəm ki, neft-qaz amili bizim üçün bir vasitədir. Bu, inkişaf etmək, dayanıqlı və çoxşaxəli iqtisadiyyat qurmaq üçün bir vasitədir. Biz bu vasitədən səmərəli şəkildə istifadə edirik.

Bu il də sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi təmin ediləcəkdir. Bu təşəbbüsün çox gözəl nəticələri vardır. Biz bunu əyani şəkildə görürük. Bölgələrdə açılan yeni müəssisələr və iş yerləri bunu göstərir. Eyni zamanda, dövlət tərəfindən sahibkarlara böyük mənəvi dəstək göstərilir. Yerlərdə də bu işlər düzgün təşkil edilməlidir və sahibkarlara bu il o cümlədən öz vəsaitlərindən istifadə etməklə ölkəmizin real sektoruna vəsaiti qoymağı tövsiyə edirəm. Çünki dövlət sahibkarlara uzun illərdir ki, böyük dəstək verir. Güzəştli şərtlərlə verilən bu kreditlərin həcmi yüz milyonlarla ölçülür, bəlkə də milyardı ötüb. Sahibkarlar da həm o imkanlardan istifadə etməlidirlər, eyni zamanda, – artıq uzun illərdir ki, onlar da öz kapitallarını əldə ediblər, – ölkənin inkişafına, real sektorun inkişafına daha da çox sərmayə qoymalıdırlar. Eyni zamanda, biz xarici investorları da qeyri-neft sektoruna cəlb etməliyik. Əlbəttə ki, xarici investorlar daha çox neft-qaz sektoruna investisiya qoymağa maraqlıdırlar. Ancaq biz onları indi digər sektorlara da cəlb edirik və edəcəyik. Yaradılan xüsusi proqramlar çərçivəsində texnoparklar, aqroparklar salınacaq və bütün bunlar xarici investorları da cəlb edəcək.

Çünki dünyada indi bir tərəfdən iqtisadi böhran davam edir, vəsait qıtlığı müşahidə olunur, eyni zamanda, investisiya qoymaq üçün o qədər böyük seçim də yoxdur. Çünki böhran içində çabalayan ölkələrə kim investisiya qoyacaq? Ona görə sabit ölkələrə, ictimai-siyasi sabitliyi, iqtisadi inkişafı olan ölkələrə xarici investisiyalar cəlb etmək daha asandır. Burada əlbəttə ki, informasiya qıtlığı öz rolunu oynayır. Amma son illər ərzində keçirilən təqdimatlar, biznes forumlar, Azərbaycan ilə bağlı dünya ictimaiyyətinə, o cümlədən biznes strukturlarına dolğun informasiyaların ötürülməsi artıq xarici investorlar üçün Azərbaycanı çox cəlbedici ölkəyə çeviribdir.

Bu il qeyri-neft sektorunun inkişafı ilə bağlı bank sektorunun rolu xüsusi əhəmiyyətə malikdir. Son vaxtlar bizim banklarımız real iqtisadiyyata daha da böyük həcmdə kreditlər ayırır. Mən bunu dəstəkləyirəm və keçən müşavirələrin birində qeyd etmişdim ki, daha çox bu sahəyə kreditlər verilməlidir. Biz artıq bunu görürük. Bu, çox müsbət yanaşmadır, bank sektorunun məsuliyyətini göstərir.

Xüsusilə bir daha demək istəyirəm ki, 2015-ci il dünya üçün asan il olmayacaq. 2015-ci ildə bank resurslarının iqtisadiyyatın real sektoruna yönəldilməsi, əlbəttə ki, bizim üçün prioritet olacaq. Əminəm ki, banklar da bu istiqamətdə öz sözünü bundan sonra da deyəcək.

Əlbəttə, indi müxtəlif istehlak kreditlərinə də, digər layihələrə də vəsait ayrılmalıdır. İndi Azərbaycanda ticarət mərkəzləri, ofis və yaşayış binaları tikilir. Bu da təbiidir, çünki ölkə, iqtisadiyyat inkişaf edir, insanların bu layihələrə ehtiyacı var. Bu da lazımdır. Ancaq ölkə iqtisadiyyatı üçün hazırda real sektora qoyulan vəsait prioritet təşkil edir.

Bununla bərabər, təbii ki, bu il bizim gəlirlərimiz azalacaq. Ona görə dövlət strukturları da özlərini məsuliyyətli aparmalıdırlar. İsrafçılığa yol verilməməlidir. Əlbəttə ki, biz prioritet olmayan layihələrə razılığımızı verməyəcəyik. Eyni zamanda, hər bir dövlət strukturunda, qurumlarda, dövlət şirkətlərində idarəetmə prinsipləri təkmilləşdirilməlidir. İsrafçılığa yol verilməməlidir. Bizim dövlət nümayəndələrimiz vəsaitin qədrini bilməlidirlər. Əminəm ki, onlar da bu vəziyyəti düzgün dərk edirlər və nəticə çıxaracaqlar.

Son illərdə biz ölkəmizin sürətli inkişafını təmin etmək üçün iqtisadiyyata böyük vəsait yönəltmişik. Hesab edirəm ki, bu, düzgün siyasət idi. Bu siyasət bugünkü reallıqları təmin edir. İnfrastruktur layihələrinə, real sektora qoyulan vəsait bu gün işləyir və biz bu vəsait hesabına ümumi iqtisadi inkişafımızı təmin edirik. 2015-ci ildə ölkə iqtisadiyyatı, sosial sahə üçün lazım olan bütün digər layihələr, təbii ki, tam şəkildə icra ediləcək. Demək istəyirəm ki, bütün sosial proqramlar 2015-ci ildə də tam həcmdə təmin ediləcəkdir.

Ünvanlı sosial yardım, əhalinin pul gəlirlərinin artırılması, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması, evlərin tikilməsi – bütün bu proqramlar təmin ediləcək. Məktəb, xəstəxana

tikintisi davam etdiriləcək. Eyni zamanda, infrastruktur layihələri, ilk növbədə, içməli su ilə bağlı olan layihələr icra ediləcək. Bu ilin əvvəlində və keçən ilin sonunda bu istiqamətə Prezidentin ehtiyat fondundan böyük vəsait ayrılmışdır. Bu il ən azı 300 artezian quyusu qazılacaq və ən azı 50 kənddə modul tipli təmizləyici qurğular quraşdırılacaq. Yəni, bu məqsədlərə həm dövlət büdcəsindən, eyni zamanda, Prezidentin ehtiyat fondundan vəsait ayrılacaq. İçməli su layihələri bizim üçün hazırda infrastruktur layihələri arasında prioritetdir, kənd yolları da həmçinin. Keçən il kənd yollarının tikintisinə böyük vəsait ayrılmışdır. Bu gün bu rəqəmlər səsləndi və bu il də bu proses davam etdiriləcək. Bu yaxınlarda imzaladığım sərəncamlar əsasında artıq hər kəs görür ki, biz burada da öz siyasətimizi davam etdirəcəyik.

Qazlaşdırma, elektrik xətlərinin təmiri, çəkilişi prosesi gedir. Bu infrastruktur layihələri və meliorasiya ilə bağlı olan tədbirlər ölkəmiz üçün çox önəmlidir. Çünki biz keçən il və 2013-cü ildə iki nəhəng layihəni istismara vermişik – Şəmkirçay və Taxtakörpü su anbarlarının tikintisi başa çatıbdır. Azərbaycan tarixində bu layihələrin çox böyük yeri var. Biz bu layihələri ancaq müstəqillik dövründə icra edə bilmişik və bu layihələr Azərbaycanın nə qədər güclü ölkə olduğunu bir daha göstərir.

Bu layihələrin davamı olaraq kanallar çəkilməli, yeni əkin sahələri dövriyyəyə buraxılmalıdır. Ona görə meliorativ tədbirlər də prioritet olaraq qalacaqdır. Bunlar bilavasitə ərzaq təhlükəsizliyi ilə bağlı olan layihələrdir. Biz keçən il də görmüşük ki, ərzaq təhlükəsizliyi ilə bağlı olan planlarımız vaxtında müəyyən olunmuşdur və icra edilməyə başlamışdır. Çünki ərzaq təhlükəsizliyi hər bir ölkə üçün enerji təhlükəsizliyi qədər önəmlidir. Əlbəttə, Azərbaycanın bəzi ərzaq məhsullarını xarici bazarlardan idxal etməsinə baxmayaraq biz çalışmalıyıq ki, öz daxili istehsalımızı maksimum artıraq, fövqəladə hallardan özümüzü qoruyaq. Çünki keçən il də biz görmüşük ki, bir sıra ərzaq məhsullarının ixracı ilə bağlı bəzi ölkələrdə qadağalar qoyulmuşdur. Yəni, özümüzü təmin etmək üçün daxili bazarların daxili resurslar hesabına təmin edilməsi prosesi davam etdiriləcəkdir.

Dövlət burada da fermerlərə öz dəstəyini göstərir. Bildiyiniz kimi, burada uzun illərdir ki, vergi güzəştləri həyata keçirilir. Dövlət tərəfindən texnika, cins mal-qara alınır. Ərzaq təhlükəsizliyi ilə bağlı institusional islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması prosesi də çox önəmlidir. Bizim ixrac potensialımızın artırılması da gündəlikdə duran məsələlərdən biridir. Çünki əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün əsas ərzaq məhsullarımızla təmin edəcəyik. Beləliklə, ixrac üçün bizim yeni məhsullarımız olacaqdır. Nəzərə alsaq ki, artıq iyirmiyə yaxın iri fermer təsərrüfatının yaradılması prosesi gedir, əminəm, biz özümüzü yaxın gələcəkdə buğda ilə tam şəkildə təmin edə biləcəyik. Yeni iri fermer təsərrüfatlarında məhsuldarlıq orta məhsuldarlıqdan iki dəfə çoxdur, bir hektardan 55 sentner. Halbuki, ölkə üzrə bu göstərici 23 sentnerdir. Yəni, bu yeni, müasir yanaşma, əlbəttə ki, dövlət vəsaiti hesabına yaradılan yeni imkanlar gələcəkdə bizim ixrac imkanlarımızı da artıracaq. Çünki burada yenə də dövlət əsas funksiyanı öz üzərinə götürübdür. Yerlər müəyyənləşdirilibdir. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilibdir. Eyni zamanda, texnika, suvarma, bütün infrastruktur layihələri dövlət tərəfindən icra olunubdur ki, məhsuldarlıq artsın və biz özümüzü ərzaq məhsulları ilə maksimum dərəcədə təmin edək.

Əlbəttə ki, bizim Şəmkirçay və Taxtakörpü su anbarlarının fəaliyyəti nəticəsində on minlərlə hektar torpaqda yeni məhsulların yetişdirilməsi gözlənilir. İndi artıq bu yerlər müəyyən edilibdir və bu yeni sahələrdə məhsulların yetişdirilməsi prosesi başlayır.

Keçən il «Sənaye ili» elan edilmişdir. Sənayenin inkişafı ilə bağlı bir çox tədbirlər görülmüşdür. Mən keçən müşavirələrdə də demişəm ki, hər bir rayonda sənaye zonası yaradılmalıdır. Artıq pilot layihəsi icra edilir. Yəqin ki, bu il biz bu il layihənin başlanmasını görəcəyik. Eyni zamanda, bizim ənənəvi sənaye mərkəzlərimiz də öz imkanlarını genişləndirir. Sumqayıt, Gəncə, Mingəçevir, əlbəttə ki, Bakı şəhəri, xüsusilə Qaradağ rayonu bizim əsas sənaye mərkəzlərimizdir.

Biz bu il böyük metallurgiya kompleksinin tikintisini gözləyirik. Artıq bir müddətdir ki, bu kompleksin yaradılması ilə bağlı işlər aparılır. Xarici məsləhətçilər cəlb edilmişdir. Deməк olar ki, texniki-iqtisadi əsaslandırma artıq hazırdır. Bizim təbii resurslarımız, filiz yataqlarımız var. Əlbəttə, biz çalışmalıyıq ki, öz təbii imkanlarımızdan, resurslarımızdan maksimum dərəcədə istifadə edək və özümüz hazır məhsul istehsal edək. Yəni, budur bizim əsas məqsədimiz. Biz hər bir sahədə hazır məhsul istehsal etməliyik. Bu, böyük dövlət vəsaiti tələb edən layihədir. Baxmayaraq ki, indi bizim gəlirlərimiz azalacaq, hesab edirəm, bu layihə sənayemizin inkişafı üçün prioritetdir, minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Beləliklə, Azərbaycanda yeni ixrac məhsulu yaranacaq və bu, ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına əlavə təkan verəcəkdir. Ona görə bu layihənin icrası ilə bağlı heç bir yubanma ola bilməz. Bu məsələ Dövlət İnvestisiya Proqramında öz əksini tapıbdır.

Builki Dövlət İnvestisiya Proqramı təbii ki, əvvəlki illərdən fərqlənir. Çünki dövlət tərəfindən qoyulacaq vəsait daha da azalacaq. Bu da təbiidir. Ancaq prioritetlər düzgün seçilibdir və əvvəlki illərdə bir çox işlərin görülməsi imkan verir ki, biz artıq bu investisiya proqramımızı ixtisar edək. Çünki Taxtakörpü, Şəmkirçay böyük dövlət vəsaiti tələb edən nəhəng layihələrdir. Kənd yollarının, içməli su layihələrinin bir çoxu artıq icra edilib. Ancaq prioritetlər var və biz dövlət investisiyalarını dayanıqlı inkişafa yönəltməliyik. Çünki əgər biz bunu etməsək, bir neçə ildən sonra artıq boşluq yaranacaq. Biz isə buna imkan verə bilmərik. Çünki ilk növbədə, ölkənin dayanıqlı inkişafı təmin edilməlidir və eyni zamanda, iş yerlərinin yaradılması daimi prosesdir.

Mən giriş sözümdə bunu demişəm və bir daha demək istəyirəm. Bəzi ölkələr demoqrafik böhrandan əziyyət çəkir. Əlbəttə ki, ən ağır böhran demoqrafik böhrandır. Çünki bəzi ölkələrdə əhali həm təbii səbəblər üzündən kəskin şəkildə azalır, eyni zamanda, o ölkələrdə miqrasiya çox sürətlə gedir. Azərbaycan əhalisi artır. Bu, böyük üstünlüyümüzdür. Azərbaycan əhalisi nə qədər artsa, biz o qədər də güclənəcəyik. Ancaq demoqrafik artım özü ilə bəzi problemlər də gətirir, o cümlədən işsizlik. Ona görə biz nə qədər yeni iş yerləri yaratsaq da, yenə də iş yerlərinin yaradılmasına ehtiyac var.

Dövlət Proqramının əvvəlindən – 2004-cü ildən bu günə qədər bir milyon 300 min iş yeri yaradılıbdır. İşsizliyin azaldılması bunun hesabına mümkün olub. Ancaq bu, daimi proses olmalıdır. Bu prosesi təmin etmək üçün biz yeni sənaye istehsalları yaratmalıyıq. Nəzərə alsaq ki, indi elmi-texniki tərəqqi sürətlə gedir, texnoloji proseslər daha da təkmilləşir, avtomatlaşma prosesi gedir, yəni, işçi qüvvəsinə gələcəkdə o qədər də böyük ehtiyac olmayacaq. Ona görə innovasiyalara üstünlük verilməlidir. Texnoparkların yaradılması xarici texnologiyaların, eyni zamanda, xarici investisiyaların gətirilməsini də təmin etməlidir. Biz onsuz da dövlət tərəfindən investisiyaları qoyuruq. Ancaq real sektora dövlət o qədər də böyük investisiya qoya bilməz. Bu, düzgün deyil, biz ancaq strateji istehsal sahələrinin yaradılmasına dövlət tərəfindən investisiya qoya bilərik. Ona görə bu istiqamətdə, sənayeləşmə prosesinin düzgün şəkildə təmin edilməsində biz bundan sonra da çox ciddi siyasət aparacağıq.

Ekologiya ilə bağlı məsələlər prioritet olaraq qalır. Keçən il Azərbaycanda 4 milyona yaxın ağac əkilibdir. Bu, çox müsbət haldır. Bu proses həm Abşeron yarımadasında, həm bütün bölgələrdə gedir. Neftlə çirklənmiş ərazilər təmizlənir. Eyni zamanda, içməli su layihələri və digər layihələr ekoloji vəziyyətin yaxşılaşmasına xidmət göstərir. Böyükşor gölündə işlər sürətlə gedir. Bir neçə aydan sonra Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi başa çatacaq. Hesab edirəm ki, bu, buna oxşar bütün başqa layihələr üçün bir nümunə olacaqdır. Çünki biz bu istiqamətdə çox fəal iş aparırıq, neftlə çirklənmiş bütün yerləri, gölməçələri təmizləyirik. Bibiheybət, «Ağ şəhər», Böyükşor. Bu il Zığ gölünün təmizlənməsi nəzərdə tutulubdur. Bu da çox önəmli layihədir. Biz Bakının ətrafında yerləşən, neftlə və lay suları ilə çirklənmiş bütün gölləri tədricən təmizləyəcəyik. Orada istirahət və əyləncə zonaları, ictimai yerlər yaradılacaq. Ümumiyyətlə,

Bakıda son illərdə çoxsaylı ictimai yerlər, parklar, bağçalar yaradılır. Bu ictimai yerlərin sayına görə Bakı bəlkə də dünya miqyasında ön sıralardadır. Çünki Bakı bu gün parklar, bağçalar şəhəridir və Bakı təmiz göllər şəhəri olacaqdır. Mən buna əminəm. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsinin bu ilin yayına qədər başa çatması, hesab edirəm, hər kəsə göstərəcək ki, biz bunu da edə bilmişik və güclü iradə olan yerdə, istənilən layihə icra edilə bilər.

Keçən il nəqliyyatla bağlı işlər uğurla icra edilmişdir. Mən bunu artıq qeyd etdim, Ələtdə yeni dəniz ticarət limanının tikintisi bu il də davam etdiriləcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi artıq başa çatır. İndi artıq sınaqlar keçirilir. Azərbaycan tərəfindən bütün işlər demək olar ki, görülübdür. Ümid edirəm ki, bütün başqa sahələrdə tikinti-quraşdırma işləri bu il başa çatacaq və biz bu layihənin açılışını qeyd edəcəyik.

Bu da tarixi layihədir. Uzun illər bu layihə ətrafında danışıqlar, müzakirələr gedirdi. Ancaq Azərbaycan həm öz vəsaitini, həm də iradəsini ortaya qoyduqdan sonra bu layihə artıq reallaşmağa başlamışdır.

Nəqliyyatla bağlı digər layihələr də icra edilir. Ölkəmizə yeni təyyarələr gətirilir. MDB məkanında Azərbaycan birinci ölkədir ki, ən müasir «Boeing-787» Dreamliner təyyarəsi, iki sərnişin təyyarəsi gətirilmişdir. Bundan əvvəlki dövrdə müasir təyyarələr alınmışdır. Yeni marşrutlar müəyyən edilir. Hava nəqliyyatı hər bir ölkə üçün önəmlidir. Azərbaycan bu sahədə həm yük, həm sərnişin daşımaları ilə artıq bir regional mərkəzə çevrilibdir. Biz bu rolumuzu daha da gücləndirməliyik. Bizim coğrafi vəziyyətimiz güclü nəqliyyat infrastrukturu ilə də təmin edilməlidir. Dəniz ticarət limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası bir-biri ilə sıx bağlı olan məsələlərdir. Biz bu dəhlizləri gücləndiririk. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri – onlar Azərbaycan üzərindən keçir. Azərbaycanda yaradılan və yaradılacaq nəqliyyat infrastrukturu həm ölkəmizə, həm də qonşulara xidmət göstərəcəkdir.

Xəzər Gəmiçiliyi ilə bağlı işlər görülür, islahatlar aparılır, yeni gəmilər alınır və ən önəmli hal ondan ibarətdir ki, Azərbaycanda gəmiqayırma zavodunda artıq gəmilər istehsal olunur. Həm neft-qaz əməliyyatları üçün sifarişlər verilibdir, həm də hərbi məqsədlər üçün gəmilər tikiləcəkdir. Eyni zamanda, bizim bütün digər gəmilər – tankerlər, yük gəmiləri Bakıda istehsal olunacaq. Bu da sənayeləşmə siyasətimizin bir nəticəsidir. Vaxtilə gəmiqayırma zavodunun tikintisi barədə qəbul olunmuş qərar artıq özünü doğrultdu. Çünki biz görürdük ki, gəmilərin – tankerlərin, yük, servis gəmilərinin hamısı xaricdən alınır. Ancaq bizdə daxildə tələbat var. Biz gərək öz donanmamızı yeniləşdirək. Eyni zamanda, böyük neft-qaz əməliyyatları aparılır və aparılacaq. «Şahdəniz»lə bağlı yeni gəmilərə ehtiyac var. Ona görə, qısa müddət ərzində gəmiqayırma zavodunun tikintisi çox önəmli addım idi və bu zavod bütün Xəzəryanı ölkələrə xidmət göstərə bilər. Mən Xəzər Sammitində öz həmkarlarımla söhbət əsnasında söyləmişdim ki, artıq belə zavod var və siz də bundan faydalana bilərsiniz, sifarişləri verə bilərsiniz. Ümumiyyətlə, biz Xəzər hövzəsində bu istiqamətdə daha da sıx əməkdaşlıq edə bilərik. Əgər, misal üçün, Bakıda belə müasir zavod varsa, inanmıram ki, başqa yerdə belə zavodun tikintisinə ehtiyac olsun. Yəni, burada da kooperasiya işləri düzgün aparılmalıdır. Azərbaycan da öz sözünü deyir.

Keçən il «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. Bu, tarixi hadisədir. Bu layihə bizim uzunmüddətli inkişafımızı daha da sürətləndirəcək. Bu layihə «Əsrin müqaviləsi»nə bərabər olan bir layihədir. Artıq bu layihəni XXI əsrin layihəsi adlandırırlar. Çox simvolik hal ondan ibarətdir ki, məhz 2014-cü il sentyabrın 20-də – «Əsrin müqaviləsi»nin imzalanmasından düz 20 il sonra «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurlu icrası bu gün də təmin edilir. Görün «Əsrin müqaviləsi»ndən sonrakı dövrdə nə qədər işlər görülmüşdür! Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, indi «Cənub» qaz dəhlizi, «Şahdəniz» yatağının işlənməsi. Azərbaycan burada öz liderlik rolunu bir daha təsdiqlədi. «Cənub» qaz dəhlizinin müəllifi Azərbaycandır. Bu layihənin aparıcı qüvvəsi də Azərbaycandır. Bunu hamı bilməlidir. Azərbaycanın

güclü iradəsi olmasaydı, bu layihə heç vaxt reallaşmayacaqdı. Biz bu layihənin reallaşması ilə bağlı çox gərgin iş aparmışıq. Çox gərgin və fəal iş aparmışıq ki, artıq bu layihəni icra etməyə başlamışıq. Biz buna Azərbaycan üçün ən məqbul şərtlərlə və beynəlxalq əməkdaşlıq çərçivəsində nail ola bilmişik. Çünki bizim tərəfdaşlarımız olmadan bu layihə icra edilə bilməz. Ona görə bu layihə daha da böyük koordinasiya tələb edir. Çünki burada iştirak edən ölkələrin, şirkətlərin sayı çoxdur. Bakı-Tbilisi-Ceyhan layihəsinin icrasında üç ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə iştirak edirdi. Ancaq «Cənub» qaz dəhlizinin icrasında 10-a yaxın ölkə iştirak edəcək. Çünki biz bu layihəni çox böyük və geniş layihə kimi görürük, bunu əlbəttə ki, mərhələlərə bölürük. İlk növbədə, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin genişləndirilməsi, TANAP, TAP layihələri, ondan sonrakı dövrdə digər layihələr. Ona görə bu, tarixi hadisədir. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir.

Ölkəmizin siyasi, iqtisadi maraqları təmin ediləcəkdir. Azərbaycan Avropa istehlakçıları üçün əvəzedilməz ölkəyə çevrilir. Bu nə deməkdir? Bunu çox izah etməyə də ehtiyac yoxdur. Biz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq və getdikcə bu rol artacaq. Çünki Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycandır. Bütün başqa mənbələr – onlar artıq var. O mənbələrin ehtiyatlarını müxtəlif yollarla, yəni, yeni yollarla Avropaya nəql etmək mümkündür. Belə layihələr var, lakin yeni mənbə ancaq Xəzər hövzəsidir və Azərbaycandır. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Əminəm ki, bu layihəni də uğurla icra edəcəyik. Çünki bu günə qədər bir dənə də layihə olmamışdır ki, biz onu başlayaq və icra etməyək. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, həm də Bakı-Tbilisi-Qars, yəni, beynəlxalq layihələrdən söhbət gedir. Əminəm ki, «Cənub» qaz dəhlizi də tam şəkildə icra ediləcəkdir.

Bakıda birinci Avropa Oyunları keçiriləcəkdir. Oyunların keçirilməsinə beş ay qalıbdır. Təşkilat Komitəsi çox fəal işləyir, bütün vəzifələri icra edir. Bütün dövlət qurumları bu işdə fəal iştirak edirlər. İndi hazırlıq son mərhələdədir. Biz Avropa Oyunlarını Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Bu Oyunlar bir Avropa bayramına çevrilməlidir. Azərbaycan burada yenə də liderlik keyfiyyətlərini göstərir. Çünki Avropa Oyunlarının standartları əslində Bakıda qoyulacaq. Çünki heç vaxt bu günə qədər belə oyunlar keçirilməmişdir. Bu oyunlar müxtəlif səviyyədə keçirilə bilərdi. Ancaq biz istəyirik ki, bu möhtəşəm idman bayramı möhtəşəm dostluq bayramına çevrilsin. Buna böyük ehtiyac var.

Azərbaycanın rolu getdikcə artır. Ölkəmizdə mövcud olan ictimai-siyasi vəziyyət, multikulturalizm, dini-milli dözümlülük, dünyaya açıq olmağımız – bütün bu amillər bu gün Avropa, dünya üçün lazımdır. Çünki əfsuslar olsun ki, real həyatda biz bir çox hallarda tam başqa mənzərəni görürük – qanlı toqquşmalar, terrorizm, ədavət, ikili standartlar və s.

Azərbaycan isə öz inkişaf modelini ortaya qoyur. Bu, hər kəs üçün açıq olan modeldir. İqtisadi model – bu gün biz bu barədə danışmışıq. Yəni, bu, nadir bir iqtisadi inkişaf modelidir. Siyasi islahatlar modeli – məncə, Azərbaycan nümunə ola bilər. Çünki iqtisadi islahatları aparmaqla, eyni zamanda, siyasi islahatlara da böyük önəm veririk. Bütün demokratik təsisatlar yaradılıb. Bütün azadlıqlar – söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı, din azadlığı təmin edilib. Bu azadlıqlar nəinki təmin edilib, eyni zamanda, bu, bizim həyat tərzimizdir, bu, dövlət siyasətidir. Ona görə, Avropa Oyunlarının keçirilməsi sadəcə olaraq bir idman tədbiri deyil. Hesab edirəm ki, bu tədbirdə iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla əlbəttə ki, tanış olacaqlar və Azərbaycanın uğurlu inkişaf modelini görəcəklər.

Əgər bütün ölkələr öz daxili işləri ilə məşğul olsaydılar, başqa ölkələrin daxili işlərinə qarışmasaydılar və əsassız tələblər irəli sürməsəydilər, dünya daha da sabit olardı, təhlükəsizlik daha da çox təmin edilərdi.

Hər halda biz Azərbaycanda öz işimizi görürük, görəcəyik və əminəm ki, 2015-ci ili də uğurla başa vuracağıq. Sağ olun.

# İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD EDİB

***Prezident İlham Əliyev yanvarın 20-də – Ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.***



Qanlı Yanvar hadisələrindən 25 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən tutmaqda davam etdilər.









Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

***

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

***

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

***

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov iştirak edirdilər.

***

## İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK EDİB

İyirmi üç il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak edib.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Türkiyənin ölkəmizdə səfərdə olan xarici işlər naziri Mövlud Çavuşoğlu abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və




şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və



hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# PREZİDENT İLHAM ƏLİYEVİN 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİKİ

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və yüksək amallar naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir.

Mədəniyyət salnaməmizə, ədəbi-ictimai və elmi fikir tariximizə öz istedadı və zəkasıyla yeni səhifələr yazmış maarifpərvər Azərbaycan xanımlarının yolunu siz bu gün də şərəflə davam etdirirsiniz. Nəsillərin varisliyini qoruyaraq ötən əsr boyunca sosial-mədəni fəaliyyətin genişləndirilməsi istiqamətindəki müvəffəqiyyətlərinizi müasir mərhələdə vətəndaş cəmiyyətinin təşəkkülü və əsaslarının möhkəmləndirilməsi prosesində yaxından iştirakınızla daha da zənginləşdirmisiniz. Məmnunluq hissi ilə bildirirəm ki, müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində milli dövlət quruculuğu sahəsində qazanılan uğurlarda müstəsna rolunuz vardır.

Azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, vətənə məhəbbət ruhunda formalaşmış gənclik ölkəmizə ən böyük töhfənizdir. İnanıram ki, istedad və bacarığınızı ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatımızda bundan sonra da gerçəkləşdirərək, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışacaqsınız.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 mart 2015-ci il.

***

# NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır. Tanrının misilsiz hikmətlə yaratdığı təbiətə sonsuz sevgi və yüksək ehtiramın parlaq təzahürü olan bu bayramda ulu babalarımızın minilliklərin sınağından çıxmış həyat fəlsəfəsi dolğun təcəssümünü tapmışdır. Odlar diyarını sivilizasiyaların qovuşuğundakı qədim mərkəz olaraq tanıdıb şöhrətləndirmiş mədəni sərvətlər xəzinəmizdə Novruz mərasimləri müstəsna mövqeyə malikdir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı Bahar bayramının dünya irsinin şah əsərləri sırasında olması hər bir azərbaycanlıya qürur verir.

Yaz bayramı özündə qoruyub saxladığı misilsiz mənəvi qüvvət sayəsində tariximizin ən çətin və mürəkkəb dövrlərində belə gələcəyə nikbin baxmağımızı təmin etmişdir. Ötən əsrin sonlarına doğru müstəqil dövlətçilik idealımıza yenidən qovuşduqdan sonra o, rəsmi milli bayram statusunu qazanmışdır. Bu ilki Novruz bayramını Birinci Avropa Oyunları ərəfəsində qeyd edirik. Yeniləşən, müasirləşən Azərbaycan müxtəlif ölkələrdən çoxsaylı iştirakçıları Novruz günlərində xüsusən aydın ifadəsini tapan ənənələrimizə uyğun böyük qonaqpərvərliklə qəbul etməyə hazırlaşır. Ümidvaram ki, xalqımıza xas ürək açıqlığı bu Oyunları mühüm idman və mədəniyyət bayramına çevirəcək, onun insanların yaddaşlarında unudulmaz hadisə kimi həkk olunmasına xidmət göstərəcəkdir.

Novruz bayramını ölkəmizin hüdudlarından uzaqlarda bütün soydaşlarımız azərbaycançılıq məfkurəsi işığında bizimlə birgə qarşılayırlar. Bu ümumxalq bayramı qoy hər ocağa, hər ailəyə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 mart 2015-ci il.

# İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK EDİB



Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Novruz şənliyində iştirak ediblər.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının ifasında baharı, Azərbaycanı tərənnüm edən mahnıların sədası ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan vətəndaşına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bizim əziz, sevimli bayramımızdır, milli sərvətimizdir. Xalqımız əsrlər boyu Novruzu əziz bayram kimi qeyd edir.

Ancaq müstəqillik dövründə biz bu bayramı rəsmi bayram kimi qeyd etməyə başlamışıq və sabahdan 9 gün istirahət günüdür. Bizim müstəqilliyimiz də milli dəyərlər, ənənələr üzərində qurulubdur. Müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. İyirmi dörd ilə yaxındır ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş qarşıdurması, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi və siyasi böhran əlbəttə ki, müstəqilliyimizə çox böyük zərbə vurmuşdu.

Ancaq ulu öndər Heydər Əliyevin siyasi haki-

miyyətə qayıdışından sonra vəziyyət sabitləşdi. Azərbaycanda siyasi və iqtisadi islahatlar aparılmağa başlanmış və ölkəmiz inkişaf yoluna qədəm qoymuşdur. O vaxtdan – 1990-cı illərin ortalarından bu günə qədər 20 il ərzində Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, müstəqilliyimiz möhkəmlənir, güclənir və Azərbaycan bu gün dünya miqyasında çox dəyərli ölkə, tərəfdaş kimi tanınır.

Biz müstəqil siyasət aparırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Əsrlər boyu xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. İlk növbədə, biz milli dəyərlərimizi, bayramlarımızı, ədəbiyyatımızı, incəsənətimizi, doğma ana dilimizi, xalq kimi özümüzü qoruya bilmişik.

Bu gün isə biz azadıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu günün reallıqları göstərir ki, ancaq müstəqillik dövründə bizim xalqımız yüksək zirvələrə çata bilər. Bugünkü dövr əgər bizim bütün tariximizi nəzərə alsaq, ən sürətli inkişaf dövrüdür. Biz bundan sonra da müstəqil həyatımızı təmin edəcəyik. Xalqımızın rahat yaşamasını təmin edəcəyik. Ancaq o da təbiidir ki, Azərbaycan gücləndikcə bizə təzyiqlər də artır. Bizim müstəqil siyasətimiz heç də hamıya xoş gəlmir. Belə olan halda bizə qarşı təzyiqlər də artır və təzyiq mexanizmləri də işə salınır. Bunun nəticəsidir ki, bu gün bəzi xarici dairələr Azərbaycana qarşı açıq kampaniya aparırlar. Biz buna hazırıq. Bu kampaniya əslində heç vaxt dayanmamışdır.

Sadəcə olaraq önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da eybəcər formalar alır. Biz bunu üç il bundan əvvəl – 2012-ci ildə «Eurovision» müsabiqəsi ərəfəsində görmüşük. Bu gün də birinci Avropa Oyunları ərəfəsində bunu görürük. Bu, koordinasiya şəklində təşkil edilmiş, bir və ya bir neçə mərkəzdən idarə olunan antiazərbaycan kampaniyasıdır ki, bunun məqsədi ölkəmizi ləkələmək, qaralamaq, işlərimizə kölgə salmaq və Azərbaycanı geridə qalmış, qeyri-demokratik, azad olmayan ölkə kimi təqdim etməkdir. Bütün bunlar təbii ki, yalan üzərində qurulur. Ona görə nə Azərbaycan xalqı, nə dünya ictimaiyyəti buna inanmır. Azərbaycan xalqı hər şeyi öz gözü ilə görür. Son illərin inkişafı, şəhərlərimizin abadlaşdırılması, ölkəmizin iqtisadi, sosial inkişafı, beynəlxalq nüfuzumuzun artırılması göz qabağındadır. Eyni zamanda, bizim işlərimiz dünya ictimaiyyəti üçün də artıq sirr deyil. Çoxsaylı tədbirlər, sərgilər, konfranslar, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı artıq beynəlxalq ictimaiyyətə də Azərbaycan haqqında kifayət qədər dolğun məlumatın çatdırılması üçün şərait yaradır.

Ancaq buna baxmayaraq, biz görürük ki, dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan etmişlər. Bir daha demək istəyirəm ki, bütün bu səylərin heç bir nəticəsi yoxdur, ola da bilməz. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin.

Azərbaycanda bütün azadlıqlar təmin edilib. Azərbaycanda azad cəmiyyət formalaşıb. Hər kəs azaddır. Azad mətbuat təmin edilib. İnternetə heç bir məhdudiyyət qoyulmur, azad internet var. Sərbəst toplaşmaq azadlığı təmin edilib. Vicdan, din azadlığı bəzi ölkələrdən fərqli olaraq tam şəkildə təmin edilibdir. Ancaq bizi ittiham etmək istəyən dairələrin öz ölkələrindəki vəziyyətə baxın. Bax elə dünən Avropanın mərkəzində yüzlərlə nümayişçi döyülərək, söyülərək həbs edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır.

Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Yoxsa ki, bu, ikili standartlar siyasətidir?! Yəqin ki, hər ikisidir. Nə üçün beynəlxalq qurumlar bəyanatlar yaymırlar, vermirlər? Nə üçün qətnamələr qəbul edilmir? Bax bu suallara cavab almaq çox çətindir.

Mən həm xarici həmkarlarımla, həm beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu sualları açıq şəkildə onların üzünə deyərək verirəm. Bəlkə buna görə də Azərbaycana qarşı təzyiqlər daha da kəskinləşir. Əfsuslar olsun ki, bu gün dünya siyasətində beynəlxalq hüquq yox, riyakarlıq, ikili standartlar, ayrı-seçkilik, irqçilik, islamofobiya, ksenofobiya hökm sürür. Budur bugünkü reallıqlar. Ona görə, biz buna hazır olmalıyıq və biz hazırıq. Biz ölkəmizi gücləndiririk, ölkəmizi inkişaf etdiririk. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün azadlıqlar mövcuddur – siyasi azadlıqlar, vicdan azadlıqları, iqtisadi sərbəstlik. Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir.

Bu gün hər tərəf alovlanır, Yaxın Şərq, Avropa, MDB məkanı, ya qanlı toqquşmalar, yaxud da ki, etnik, dini zəmində qarşıdurmalar, qarşılıqlı ittihamlar. Baxın, Azərbaycanda bütün millətlərin,



dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, bizim siyasətimizdir, xalqın da sifarişidir. Azərbaycan bu gün dünya üçün əhəmiyyətli ölkəyə çevrilibdir. Bizi beynəlxalq aləmdə dəstəkləyən ölkələrin sayı durmadan artır. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Qoy bizi ittiham etməyə çalışan ölkələr 155 ölkənin dəstəyi ilə seçilsinlər, görək necə seçilirlər. Bax budur reallıq. Ona görə, əlbəttə ki, Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz.

Avropa Oyunları isə sadəcə olaraq bir bəhanədir. Sanki bəzi xarici qüvvələr var ki, bunu bizə çox görürlər. Baxmayaraq ki, biz öz üzərimizə böyük məsuliyyət götürmüşük. Yəni, bu Oyunları iki il yarım ərzində hazırlamaq çox çətin məsələdir.

Bu Oyunlar Olimpiya Oyunlarının səviyyəsində keçiriləcək. Olimpiya Oyunlarını keçirmək üçün yeddi il vaxt verilir. Biz isə cəmi iki il yarıma bunu edirik və ən aşağı büdcə ilə bunu edirik. Dünən Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası olmuşdur. Bizim bütün Avropa Oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır «Transparency International»? Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. On ildir inşa edilir. Bizim Avropa Oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki, tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar? Niyə bu barədə yazmırlar? Bu, ritorik suallardır. Ancaq biz bu sualları verməliyik və veririk. Çünki biz ədalətin tərəfdarıyıq. Hər yerdə ədalət olmalıdır – cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə. Ədalət pozulduqda hər şey pozulur, inam pozulur. Sanki dünyada yeni bir dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək.

Bizim əsas problemimiz – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi əfsuslar olsun ki, həll olunmur. Keçən il vasitəçilər tərəfindən səylər göstərilmişdir. Bilirsiniz ki, avqust, sentyabr, oktyabr aylarında Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları, yüksək vəzifəli şəxslər səylər göstərmişdilər, üç görüş keçirilmişdir. Sonuncu görüş Parisdə hər iki tərəfin fikrinə görə uğurlu keçmişdir. Ancaq o görüşdən bir həftə keçməmiş Ermənistan növbəti təxribata əl atdı.

Ağdamda, işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başladı ki, bizi yenə də təxribata çəksin. Biz təxribata getmək istəmirdik. Çünki öz beynəlxalq öhdəliklərimizə sadiqik. Bir daha bildirmək istəyirəm ki, oktyabrın sonunda Parisdə keçirilən görüşdə demişik ki, biz gərək təmas xəttindəki gərginliyi azaldaq, sülh danışıq-




larının mahiyyətinə daha da çox fikir verək. Ona görə çox təmkinlə özümüzü aparmışıq. Amma düşmən bizim bu davranışımızı başqa cür yozub və mövqelərimizə hücum çəkib. Belə olan halda təbii ki, Azərbaycan əsgəri rəşadət göstərərək düşmənin vertolyotunu məhv edib. Ondan sonra bizdən qisas almağa çalışmağa başlamışlar. Hətta Ermənistanın ən yüksək rütbəli, vəzifəli şəxsləri demişlər ki, biz qisas alacağıq. O faşist ideologiyasının nəticəsində onlarla erməni əsgəri təmas xəttində həlak olmuşdu.

Mən demişəm və bir daha demək istəyirəm ki, ölmək istəmirsinizsə Ağdama, Füzuliyə getməyin, oturun öz yerinizdə. Qisasa gəldikdə isə qisası biz almalıyıq və alırıq da. Biz Xocalı qurbanlarının qisasını alırıq və alacağıq. Şəhidlərimizin qanı yerdə qalmamalıdır və qalmır.

Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar.

Biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ondan sonra biz azərbaycanlılar əlbəttə ki, bütün qədim torpaqlarımıza qayıdacağıq – İrəvana da, Göyçəyə, Zəngəzur mahalına da. Bütün bunlar bizim qədim torpaqlarımızdır. Gənc nəsil də bunu bilməlidir ki, bizim torpaqlarımız sadəcə olaraq bugünkü müstəqil Azərbaycan torpaqları deyil. Biz o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq. Biz hər gün çalışmalıyıq ki, o günü yaxınlaşdıraq.

Ona görə biz daha da güclü olmalıyıq. Daha da güclü orduya sahib olmalıyıq. Ordu quruculuğu bizim üçün indi əsas vəzifədir. Ona görə bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Bu gün Azərbaycan Ordusu həm hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında, dünyanın ən qabaqcıl orduları sırasındadır. Bunu biz yaratmışıq. Çünki başqa cür mümkün deyil.

Bu gün dünyada beynəlxalq hüquq işləmir, beynəlxalq müqavilələr sadəcə olaraq kağız parçasıdır, heç bir dəyəri yoxdur.

Kimin gücü var o müqavilələrə məhəl qoymur. Yəni, dünyada yeni bir dövr başlayıbdır, bunu biz bilməliyik. Bu dövrü biz başlamamışıq. Biz həmişə beynəlxalq hüquqa əsaslanmışıq və bütün siyasətimizi belə qurmuşuq. Öz səsimizi ucaltmışıq ki, nə üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir. Orada birbaşa yazılıb ki, Azərbaycan torpaqları işğaldan qeyd-şərtsiz və dərhal azad edilməlidir. Yəni, beynəlxalq hüquq sadəcə olaraq güclü dövlətlər üçün bir alətdir ki, güclü olmayan dövlətləri nəyə isə məcbur etsin. Amma onların özləri üçün beynəlxalq hüquq heç bir şeydir. Bunu biz görürük, bunu görməyən yoxdur. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür o da haqlıdır. Bu nəyi göstərir? Onu göstərir ki, güclü olmaq lazımdır.



Heç bir ölkə öz milli təhlükəsizliyini enerji təhlükəsizliyini təmin etmədən sığortalaya bilməz. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Görün, Azərbaycan qazı bu gün Avropa üçün, Avrasiya üçün, bu bölgə üçün nə qədər böyük əhəmiyyət daşıyır. Yəni, yeni enerji xəritəsi yaradılır. Bunu biz yaradırıq, öz tərəfdaşlarımızla birlikdə. Ona görə təbii ki, görülən bu işlər Azərbaycanın geosiyasi əhəmiyyətini artıracaq və bizim gücümüzü də artıracaq, təsir imkanlarımız da artacaq. Bu gün də kifayət qədər güclüdür. Bu gün bölgədə nə iqtisadi, nə siyasi, nə başqa sahələrdə heç bir layihə bizim razılığımız olmadan icra edilə bilməz. Bunu yaxın tarix göstərib.

Azərbaycan bu gün bölgənin aparıcı ölkələrindən biridir və bizim siyasət ədalətli siyasətdir. Biz bütün ölkələrlə bərabərhüquqlu, qonşularla mehriban münasibətlərin tərəfdarıyıq. Biz bərabərliyin tərəfdarıyıq. Biz hesab edirik ki, dünyada böyük-kiçik ölkə anlayışı olmamalıdır. Bütün ölkələr bərabər hüquqa malikdir. Ona görə biz bütün ölkələrlə öz siyasətimizi bu prinsiplər əsasında qururuq. Heç bir ölkə qarşısında öhdəlik götürməmişik və bu, mümkün deyil.

Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, xalqla iqtidar arasında birlik möhkəmdir. Bizim islahatlarımız, siyasi addımlarımız, beynəlxalq səviyyədə apardığımız işlər xalq tərəfindən dəstəklənir və bugünkü Azərbaycan reallıqları bunu göstərir. Son illər ərzində Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Bax, bu yaxınlarda – iki gün bundan əvvəl biz qədim türk torpağı olan Qars şəhərində TANAP layihəsinə start verdik. Yəni, bu, tarixi layihədir. TANAP layihəsi «Cənub» qaz dəhlizinin bir hissəsidir, önəmli hissəsidir. Amma «Cənub» qaz dəhlizi dörd hissədən ibarətdir: «Şahdəniz» yatağı, Cənubi Qafqaz qaz kəməri, TANAP və TAP. Azərbaycan bütün bu layihələrdə fəal iştirakçıdır və bu gün biz yeni reallığı yaradırıq. Çünki enerji təhlükəsizliyi bu gün milli təhlükəsizlik qədər önəmlidir.

Beynəlxalq təşkilatlarda ki, biz üzvük, o öhdəlikləri biz yerinə yetiririk, onlara hörmətlə yanaşırıq, vəssalam. Bizim başqa heç bir öhdəliyimiz yoxdur. Əgər kimsə hesab edir ki, Azərbaycanı nəyə isə təhrik etmək, sövq etmək, məcbur etmək mümkündür, səhv edir və bu səhv siyasətindən əl çəkməlidir. Son illərin tarixi bunu göstərir. Biz öz yolumuzla gedirik. Bu yol tərəqqi, inkişaf yoludur. Bu yol azadlıq-müstəqillik yoludur və biz bu uğurları bu yolda əldə etmişik.

Bizim şəhərlərimiz abadlaşır, insanların rifah halı yaxşılaşır. Azərbaycan bu gün dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Bakımız gözəlləşir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının qədim tarixi, bizim milli sərvətimiz olan Qız qalası, Şirvanşahlar sarayı, İçərişəhər - bu, dünya miqyaslı sərvətdir. Eyni zamanda, Bakının yeni simvolları, yeni rəmzləri yaradılır – Bayraq Meydanı, Heydər Əliyev Mərkəzi, Alov qüllələri,



Ağ şəhər, Xalça Muzeyi, bu yaxınlarda açılan bulvar. Onun uzunluğu artıq 16 kilometrə çatır. Yəni, budur bu gün bizim ölkəmiz. Azərbaycana gələn hər bir qonaq əgər o, qərəzli deyilsə, bunu görür, etiraf edir. Dostlarımız sevinir, düşmənlərimiz peşman olurlar.

Biz öz yolumuzla gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik və ölkəmizi daha da gücləndirəcəyik.

Bayramınız mübarək olsun!

***

Sonra Prezident İlham Əliyev və ailə üzvləri Dənizkənarı Milli Parka gəldilər.

Burada Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin üzvləri, rəqs və mahnı qrupları çıxış edirdilər.

Dövlət başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və ailə üzvlərini bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Dövlətimizin başçısı və ailə üzvləri bərəkətli Azərbaycan torpağında yetişdirilən məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri şənlik iştirakçılarında maraq doğururdu.

Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Xatırladaq ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri tərənnüm edir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə aparıb. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.



Prezident İlham Əliyev və ailə üzvləri pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların ifalarını dinlədilər.

Burada çay süfrəsinə qonaq olan dövlətimizin başçısı və ailə üzvləri daha sonra Azərbaycan xalçalarının nümunələrinə və kəlağayılara baxdılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya bayram hədiyyəsi edildi.

İndi Azərbaycan dünya idman tarixində mühüm hadisə kimi qalacaq ilk Avropa Oyunlarına hazırlaşır. Bununla bağlı bu ilki Novruz mərasiminin təşkil olunduğu Dənizkənarı Milli Parkda xüsusi guşələr yaradılıb.

Burada Prezident İlham Əliyevə birinci Avropa Oyunlarına ilk onlayn bilet təqdim olundu.

Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən qaynaqlanır. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə sədr təyin olunması ölkəmizin bu sınaqdan da uğurla çıxacağına əminlik yaradır. Təbii ki, Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitlikdən, son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərdən irəli gəlir. Digər tərəfdən, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, coğrafi mövqeyi, güclü idman infrastrukturu, ən başlıcası beynəlxalq yarışları keçirmək təcrübəsi Avropa Olimpiya Komitəsinin qərarını şərtləndirən mühüm amillər sırasında olub.

Ötən dövrdə Təşkilat Komitəsi fəal iş aparıb. Avropa Oyunlarının Koordinasiya Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları da hazırlıq işlərinin yüksək səviyyədə aparılmasına geniş imkanlar açıb, infrastruktur layihələrinin icrası təmin olunub. İlk Avropa Oyunlarının keçiriləcəyi əsas arenada - Bakı Olimpiya Stadionunda artıq tikinti işləri başa çatıb və Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə açılışı olub. İlk Avropa Oyunlarının xaricdə təbliğinə də xüsusi əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın iri şəhərlərində təntənəli təqdimat mərasimləri təşkil olunub. İyunun 12-dən 28-dək keçiriləcək birinci Avropa Oyunları 20 idman növünü əhatə edəcək. Buraya Olimpiya və qeyri-olimpiya idman növləri daxildir. 6 mindən çox idmançının mübarizə aparacağı ilk Avropa Oyunlarının əhəmiyyətini artıran mühüm amil onun 8 idman növü üzrə Rio-de-Janeyro Yay Olimpiya Oyunları üçün təsnifat xarakteri daşımasıdır. Çox qısa müddətdə görülən işlər bir






daha təsdiqləyir ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan Olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Heç şübhəsiz ki, bu mötəbər idman yarışı Azərbaycan idmançılarının parlaq qələbəsi ilə yadda qalacaq və ölkəmizin idman tarixinə şanlı səhifə kimi həkk olunacaq.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram şənliyində «Bakı-2015» birinci Avropa Oyunlarına həsr olunmuş stendlərin qarşısında idmançıların çıxışlarını izlədilər.

«Bakı-2015» birinci Avropa Oyunlarının rəmzləri olan «Ceyran» və «Nar» dövlətimizin başçısına və xanımına hədiyyələr təqdim etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilk Avropa Oyunlarının könüllüləri ilə xatirə şəkli çəkdirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

# Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirmişdir



Yanvarın 7-də Baş Prokurorluqda 2014-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Zakir Qaralov qeyd etmişdir ki, 2014-cü il xalqımız üçün çox uğurlu il olmaqla, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu siyasət nəticəsində ölkə həyatının bütün sahələrində böyük nailiyyətlərə, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət quruculuğu prosesləri yeni müstəviyə qaldırılmaqla, dünya birliyinə inteqrasiya prosesləri dönməz xarakter almışdır. Dövlət başçısının Azərbaycan xalqına ünvanlanmış bayram təbrikində də 2014-cü ilin ölkəmiz üçün çox əlamətdar olduğu və qarşıya qoyulmuş bütün vəzifələrin müvəffəqiyyətlə icra edildiyi, iqtisadiyyatın, əhalinin pul gəlirlərinin əhəmiyyətli artımına nail olunduğu, mühüm infrastruktur layihələrinin reallaşdırıldığı, ölkəmizin dünya dövlətləri üzrə reytinqinin yüksəlməsi və nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən hərtərəfli dəstəklənməsi ilə nəticələnən makroiqtisadi göstəricilərə nail olunduğu xüsusi vurğulanmışdır. Eyni zamanda, bir müddət öncə ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasının üzvü seçilməsi, 2014-cü ildə Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etməsi, eləcə də cari ildə birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi Azərbaycanın istər qitə, istərsə də dünya miqyasında rolunun və təsir imkanlarının əhəmiyyətli dərəcədə artmasının parlaq göstəricisi kimi dəyərləndirilmişdir.

Müşavirədə dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən təşkilati və institusional tədbirlərin

məntiqi nəticəsi olaraq Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu və Beynəlxalq Antikorrupsiya Akademiyasının iştirakçılığı ilə, eləcə də Beynəlxalq Antikorrupsiya Akademiyasının üzvü və iştirakçısı olan dövlətlərin cari ilin iyun və noyabr aylarında Bakıda keçirilən yüksək səviyyəli beynəlxalq konfransların əhəmiyyəti xüsusi vurğulanmışdır.

Diqqətə çatdırılmışdır ki, 2014-cü il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Prokurorluq orqanlarının səyləri Dövlət başçısı cənab İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilmişdir.

Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə həyata keçirilmiş birgə səmərəli istintaq-əməliyyat tədbirləri nəticəsində hesabat ilində qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması və onları törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri tədbirlərin həyat keçirilməsi təmin olunmuşdur. Belə ki, 2014-cü ildə qeydə alınmış 205 qəsdən adam öldürmə cinayəti, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş bu qəbildən olan cinayətlərdən 83-ü isti izlərlə açılmışdır. Hesabat ilinin sonunda İmişli rayonunda Reyhan Səfərovanın, Qax rayonunda Rostiaşvili qardaşlarının və Göyçay rayonunda Sahib Abbasovun qəsdən öldürülməsi cinayətlərinin açılması və bu cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb olunmaları təmin edilmişdir.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində respublikada ictimai rezonansa səbəb olmuş bir sıra cinayət hadisələri üzrə, o cümlədən Azərbaycan Respublikasının bir sıra qeyri-hökumət təşkilatlarının, eləcə də xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətlərində aşkar edilmiş qanun pozuntuları ilə bağlı başlanmış cinayət işlərinin istintaqı yüksək peşəkarlıqla davam etdirilmişdir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılmış, bu qəbldən olan cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Respublikanın digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsində hesabat dövründə cinayətkarlığa qarşı mübarizənin gücləndirildiyi, kriminogen durumun daha da stabilləşməsi ilə nəticələnən göstəricilərə nail olunduğu, mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görüldüyü, dövlət gənclər siyasətinin tələblərinə uyğun olaraq ədalətli və şəffaf prosedurlar əsasında gənc kadrların prokurorluqda qulluğa qəbulu istiqamətində tədbirlərin davam etdirilməsi, sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla qulluğa qəbul edilmiş 627 gənc hüquqşünasın hazırda respublika prokurorluq orqanlarının kadr korpusunun 58 faizini təşkil etməsi, eləcə də prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində zəruri tədbirlərin görüldüyü barədə geniş məlumat verilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2014-cü ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır. Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən 29 dekabr 2012-ci il tarixdə imzalanmış

Fərmanla təsdiq olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının ölkəmizin gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi yolunda müstəsna əhəmiyyətini diqqətə çatdıran Baş prokuror, 2020-ci ilə qədər prokurorluq orqanları qarşısında da mühüm vəzifələr durduğunu vurğulamaqla, prokurorluğun inkişafının əsas istiqamətlərini təşkil edəcək Konsepsiyada nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tapşırıqlar vermişdir.

Baş prokurorun birinci müavini Rüstəm Usubov hesabat ilində cinayətkarlığa qarşı mübarizə, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanov Baş Prokurorluğun 2014-cü ilin ikinci yarımilinə dair iş planının icra vəziyyəti və cari ilin birinci yarımili üçün iş planı barədə, Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynov isə hesabat ilində prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişlər.

Baş Prokurorluğun əlaqədar struktur qurumlarına baş vermə müddətindən asılı olmayaraq əvvəlki illərdə törədilməklə bağlı qalan 12 qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Xüsusi göstəriş verildi ki, Baş Prokurorluğun müvafiq qurumları qaz təchizatı sahəsində fəaliyyət göstərən və bu sahəyə dövlət nəzarətini həyata keçirən müvafiq icra strukturları və dövlət təsisatları ilə əlaqəli şəkildə, insanların ölümünə və xəsarət almasına, ölkə iqtisadiyyatına külli miqdarda ziyan dəyməsinə səbəb olan qaz partlayışları və dəm qazından zəhərlənmə hadisələrini doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədi ilə təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilsin.

Əməliyyat müşavirəsində hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi zamanı yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi barədə konkret tapşırıqlar verilmişdir.

Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə digər struktur qurumların rəhbərlərindən tələb edilmişdir ki, əməkdaşların fəaliyyətlərində aşkara çıxarılan neqativ təzahürlərə qarşı mübarizə xətti qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın.

Müşavirədə prokurorluq orqanlarında informasiya kommunikasiya texnologiyalarının, o cümlədən «Elektron Sənəd Dövriyyəsi» və «Elektron Cinayət» İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması barədə tapşırıqlar verilmişdir.

Eyni zamanda, 2014-cü il ərzində görülmüş işlərin vəziyyətinin ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror ümidvar olduğunu bildirmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2015-ci ildə də öz səlahiyyət hədləri daxilində Prezident cənab İlham Əliyevin rəhbəliyi altında həyata keçirilən yeni məzmunlu siyasi tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkardlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında bütün zəruri tədbilərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2014-cü ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir



Fevralın 6-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2014-cü ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, müstəqil inkişaf tarixinin müasir məzmunlu yüksəliş mərhələsini yaşayan Azərbaycan Respublikasının həyatında 2014-cu ilin müstəsna əhəmiyyəti olmuş, Dövlət başçısı cənab İlham Əliyevin müdrik rəhbərliyi altında həyata keçirilən hərtərəfli islahatlar, möhtəşəm sosial-iqtisadi layihələrin reallaşdırılması, qarşıya qoyulmuş strateji məqsədlərə çatmaq yolunda atılan inamlı addımlar yüksək inkişaf göstəricilərinə nail olunmasını, ölkəmizdə sabit və dayanıqlı hüquqi-siyasi sistemin və güclü iqtisadi potensialın yaradılmasını, bütövlükdə Azərbaycanı və ayrılıqda hər bir bölgəni əhatə edən dinamik təkmilləşməni, əhalinin həyat şəraitinin layiqli səviyyəyə qaldırılmasını, dünya dövlətləri birliyinə hərtərəfli inteqrasiyanı təmin etmişdir.

Diqqətə çatdırılmışdır ki, 2014-cü il Azərbaycan Respublikası Prokurorluğu orqanları üçün də uğurlu hesabat dövrü olmuş, digər hüquq mühafizə orqanları ilə, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Prokurorluq orqanlarının səyləri Dövlət başçısı cənab İlham Əliyevin rəhbər göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, prokurorluqda islahatların yeni məzmunda davam etdirilməsinə, «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılmasına, mövcud çatışmazlıqlar və neqativ təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən təşkilati və institusional tədbirlərin məntiqi nəticəsi olaraq Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu və Beynəlxalq Antikorrupsiya Akademiyasının iştirakçılığı ilə, eləcə də Beynəlxalq An-




tikorrupsiya Akademiyasının üzvü və iştirakçısı olan dövlətlərin ötən ilin iyun və noyabr aylarında Bakıda keçirilən yüksək səviyyəli beynəlxalq konfransların əhəmiyyəti xüsusi vurğulanmışdır.

Bildirilmişdir ki, cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı həyata keçirilən mübarizə tədbirləri də diqqət mərkəzində saxlanılmış, bu qəbldən olan cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitin aşkarlanaraq müvafiq qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə həyata keçirilən peşəkar istintaq və əməliyyat-axtarış tədbirlərinin nəticəsi olaraq, ictimai əks-səda doğurmaqla cəmiyyətin maraq dairəsində olan, keçmiş illərdə törədilməklə uzun müddət ərzində bağlı qalan bir sıra xüsusilə ağır və ağır cinayətlərin açılması və cəzanın labüdlüyünün təmin olunduğu konkret misallarla diqqətə çatdırılmışdır.

Hesabat dövründə şəxsiyyət əleyhinə olan cinayətlərə qarşı mübarizə sahəsində təxirəsalınmaz istintaq-əməliyyat tədbirlərinin görülməsinə, qeydə alınmış 205 qəsdən adam öldürmə cinayətinin, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş bu qəbildən olan cinayətlərdən 83-nün isti izlərlə açılmasına baxmayaraq, qəsdən adam öldürmə cinayətlərinin sayının artması, 12 belə cinayətin, o cümlədən Bakı şəhərinin Suraxanı və Nizami rayonlarında, Gəncə, Sumqayıt, Şirvan şəhərlərində, Neftçala, Tərtər, Salyan, Xaçmaz, Xızı, Qəbələ və Ucar rayonlarının hər birində 1 bu qəbildən olan cinayətin bağlı qalması həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirlərinin ciddi nöqsanı kimi dəyərləndirilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumları və tabe prokurorlara 2014-cü ildə və əvvəlki illərdə törədilməklə bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Hesabat dövründə dövlət gənclər siyasətinin tələblərinə uyğun olaraq ədalətli və şəffaf prosedurlar əsasında gənc kadrların prokurorluqda qulluğa qəbulu istiqamətində tədbirlərin davam etdirilməsi, sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla qulluğa qəbul edilmiş 627 gənc hüquqşünasın hazırda respublika prokurorluq orqanlarının kadr korpusunun 58 faizini təşkil etməsi, eləcə də prokurorluq orqanlarında yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində zəruri tədbirlərin görüldüyü barədə geniş məlumat verilmişdir.

2014-cü hesabat ilində ixtisaslaşdırılmış cinayət təqibi orqanı kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən mütəşəkkil cinayətkarlığın korrupsiya və rüşvətxorluq kimi təhlükəli təzahürlərinə qarşı mübarizə sahəsində bir sıra səmərəli tədbirlərin həyata keçirildiyi, rüşvətlə bağlı, vəzifə səlahiyyətlərini aşma, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə və s. faktlar üzrə 333 şəxs barəsində 206 cinayət işinin istintaqının tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilməsi müsbət iş göstəriciləri kimi dəyərləndirilmişdir.

Eyni zamanda, Baş İdarənin fəaliyyətində formalaşmış müsbət meyllərin inkişaf etdirilməsi, korrupsiya cinayətlərinə və hüquqpozmalarına qarşı mübarizənin səmərəliliyinin artırılması, idarə əməkdaşlarının hazırlıq səviyyələrinin yüksəldilməsi, beynəlxalq əməkdaşlıq əlaqələrinin təkmilləşdirilməsi, informasiya texnologiyalarının yeni formalarının tətbiqi üçün zəruri tədbirlərin görülməsi, cinayət işləri üzrə vurulmuş maddi ziyanın ödənilməsi göstəricilərinin yüksəldilməsi barədə tapşırıqlar verildi.

Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluğu orqanları tərəfindən digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə cinayətkarlığa qarşı mübarizə sahəsində səmərəli tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılmışdır.

Kollegiya iclasında görülmüş müsbət işlərlə yanaşı, həmçinin fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil və ciddi tənqid olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddət ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir.

2014-cü hesabat ilində xidməti, icra və əmək intizamının pozuntusu hallarına qarşı, işində və xidmətdən kənar fəaliyyətində qanunsuzluqlara münasibətdə prinsipial mübarizə xətti davam etdirilmiş, müxtəlif pozuntulara yol verdiklərinə görə 46 əməkdaşın intizam məsuliyyətinə cəlb olunduğu, o cümlədən 5 əməkdaşın tutduğu vəzifədən azad edildiyi, prokurorluqda xidmətlə bir araya sığmayan kobud qanunsuzluqlara yol verdiklərinə görə 2 əməkdaşın prokurorluq orqanlarından xaric edildiyi diqqətə çatdırılmış, nizam-intizamın daha da möhkəmləndirilməsi üçün zəruri tədbirlərin görülməsi Baş Prokurorluğun bütün strukturlarından və tabe prokurorlardan tələb edilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2014-cü ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır. Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir.

Kollegiya iclasında çıxış edən Baş prokurorun birinci müavini Rüstəm Usubov, Baş prokurorun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru Əziz Seyidov və digər natiqlərin çıxışlarında 2014-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verilməklə, «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, işin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürülmüşdür.

Kollegiya iclasına yekun vuran Baş prokuror Zakir Qaralov əmin olduğunu bildirmişdir ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və Azərbaycanın daha da qüdrətlənməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2014-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir

Fevralın 17-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən 2014-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2014-cü ildə digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, dövlət müstəqilliyimizin, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərmişdir. Muxtar Respublika ərazisində 26 cinayət hadisəsi qeydə alınmışdır. Naxçıvan şəhəri ərazisində 13, Şərur rayonunda 2, Kəngərli rayonunda 5, Culfa rayonunda 1, Babək rayonunda 2, Şahbuz rayonunda 1, Ordubad rayonunda 1 və Sədərək rayonunda 1 cinayət hadisəsinin qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş vermədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməlidirlər.

Peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmamışdır. Həyata keçirilmiş zəruri profilaktiki tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar tərəfindən cinayət hadisələrinin törədilməsi halları qeydə alınmamışdır. Bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra da cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktik tədbirlərdən səmərəli istifadə edilməsi zəruridir.

Həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 1 cinayət hadisəsinin açılması təmin edilmişdir. Görülən işlərlə kifayətlənməməli və keçmiş illərdə baş verib qapalı qalmış bütün cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyi və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirilməlidir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 5 fakt qeydə alınmışdır. Lakin Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq bu sahəyə diqqət artırılmalı, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 4 cinayət işi istintaq olunmuşdur ki, 3 işin istintaqı tamamlanaraq ittiham aktları ilə müvafiq məhkəmələrə göndərilmiş, 1 işin icraatına isə xitam verilmişdir. Həbs qətimkan tədbirinin seçilməsi üçün məhkəmələrə 3 təqdimat verilmiş və onlardan 2-i təmin olunmuşdur. İstintaq olunmuş cinayət işləri üzrə dövlət mülkiyyətinə vurulmuş 10497 manat məbləğində maddi ziyanın istintaq dövründə tam ödətdirilməsi təmin olunmuşdur. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında 22 məlumat daxil olmuşdur ki, məlumatların həlli zamanı müddət və qanun pozuntularına yol verilməmiş, qəbul edilmiş qərarlardan ləğv ediləni olmamışdır. Bundan sonra da Baş Prokuroluq üzrə «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin, səmərəliliyinin artırılması, ibtidai istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» əmrin tələblərinə əməl edilməsi üçün bütün zəruri tədbirlər görülməlidir.

Vurğulanmışdır ki, dövlət ittihamının müdafiəsi sahəsində müəyyən işlər görülmüş, 36 şəxs barəsində 30 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmiş, 31 şəxs barəsində 25 iş üzrə ittiham hökmləri çıxarılmışdır. Apelyasiya instansiyası məhkəməsində 10 şəxs barəsində 9 iş üzrə hökm dəyişdirilmədən saxlanılmış, 8 şəxs barəsində 6 iş üzrə hökm dəyişdirilmiş, ilkin baxışı keçirilmiş 5 şəxs barəsində 4 iş qalıq qalmışdır. Məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 22 şəxs barəsində 22 işə baxılaraq nəticə verilmiş, 1 şəxs barəsində 1 iş qalıq qalmışdır. Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin əməkdaşları görülmüş işlərlə kifayətlənməməli, obyektiv və ədalətli məhkəmə qərarlarının çıxarılmasını təmin etməlidirlər.

Daxili işlər orqanlarında 20 cinayət işi istintaq olunmuş, 12280 manat məbləğində maddi ziyan istintaq dövrü tam ödətdirilmişdir. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş şəxslər üzrə 11 axtarış işi olmuşdur ki, onlardan 9-u tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 2 şəxsin tutulması isə təmin olunmamışdır. 9 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, nəticədə 16 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır. Cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Qeyd olunmuşdur ki, müvafiq prokurorlar tərəfindən 18 əməliyyat-qeydiyyat işi öyrənilmiş, nöqsan və qanun pozuntularının aradan qaldırılması üçün 2 təqdimat və 1 göstəriş verilmişdir. Tabe rayon (şəhər) prokurorları bundan sonra da «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun və Baş Prokurolruq üzrə «Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin təşkili haqqında» əmrin tələblərinə dönmədən əməl etməlidirlər.

Dövlət Gömrük Komitəsində 4 cinayət işi istintaq olunmuş, 3 iş ittiham aktı ilə məhkəməyə göndərilmiş, 1 işin isə icraatına xitam verilmişdir. Ədliyyə Nazirliyində 1 cinayət işi istintaq olunmuş, təqsirləndirilən şəxsin yeri müəyyən olunmadığına görə həmin işin icraatı dayandırılmışdır. Milli Təhlükəsizlik Nazirliyində isə 9 cinayət işi istintaq edilərək ittiham aktı ilə məhkəməyə göndərilmişdir.

Prokurorluq orqanlarında 10 beynəlxalq tapşırıq müvafiq qanunvericiliyə əsasən həll edilmişdir. İş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən müvafiq orqanlara 11 təqdimat və 1 göstəriş verilmişdir.

Prokurorluq orqanlarına vətəndaşlardan 22 ərizə, şikayət və digər müraciət daxil olmuşdur ki, müraciətin 6-ı prokurorluqda həll edilmiş, 12-i digər təşkilatlara göndərilmiş, 4-ü isə cinayət işinə əlavə edilmişdir. Həll edilən 6 müraciətdən 4-ü vətəndaşların konstitusion hüquqları, 2-i isə digər məsələlərlə əlaqədar olmuşdur. Prokurorluqda həll edilən 6 müraciət üzrə digər qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun elektron poçt ünvanına 1 müraciət daxil olmuşdur ki, həmin müraciət üzrə vətəndaşa izah verilmişdir. 316 vətəndaş müvafiq prokurorlar tərəfindən qəbul edilib dinlənilmiş, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür. Bütün bunlara baxmayaraq «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Qanunun və Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» əmrinin tələblərinə prokurorluq orqanlarında ciddi əməl edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Vurğulanmışdır ki, prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı 891 halda təbliğat aparılmış, kütləvi informasiya vasitələrində 365 dəfə, o cümlədən televiziyada 103,

radioda 29, mətbuatda isə 233 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmiş, Naxçıvan şəhər, Babək və Culfa rayon prokurorluqları tərəfindən kütləvi informasiya vasitələri ilə əlaqələr daha yaxşı təşkil olunmuşdur. Naxçıvan Dövlət televiziyasında «Qanunçuluq» televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda müxtəlif hüquqi mövzularda verilişlər efirə getmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 27 iyun 2014-cü il tarixli 13/148 №-li icmal məktubunda «Azərbaycan Respublikası Baş prokurorunun «Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında» 27 iyun 2005-ci il tarixli 09/62 №-li əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2013-cü ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair icmal məktub»da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuşdur. Prokurorluq əməkdaşları tərəfindən yerlərdə əhali ilə görüşlər keçirilmiş əhalinin hüquqi maarifləndirilməsi və hüquqi biliklərin təbliği ilə əlaqədar profilaktiki tədbirlər davam etdirilmiş, Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Proqramının icrası ilə əlaqədar olaraq İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) tərəfindən keçirilmiş tədbirlərdə və 23 dekabr 2014-cü ildə keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar müxtəlif hüquqi mövzularda çıxışlar edilmişdir. «Qanunvericilik sahələrinin ümumhüquqi təsnifatı»na uyğun olaraq qanunvericiliyin sistemləşdirilməsi Baş Prokurorluq üzrə müvafiq əmrlərin tələbləri əsasında aparılır.

Kadr işinin əsas istiqamətləri kimi kadrların seçilib yerləşdirilməsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuş, prokurorun müvafiq əmrləri ilə 15 nəfər yuxarı təsnifat vəzifəyə təyin olunmuş, 1 nəfər isə «Naxçıvan Muxtar Respublikasının əməkdar hüquqşünası» fəxri adı ilə təltif edilmiş, Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnaməyə müvafiq olaraq 01.04.2014-cü ildə işə qəbulla əlaqədar 10 ştat vahidi üzrə müsabiqə elan edilmiş, müsabiqənin nəticəsi olaraq 6 nəfər Muxtar Respublika Prokurorluğu orqanlarına, 1 nəfəri isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul olunmuşlar.

Prokurorluq işçilərinin nəzəri və peşə hazırlığı ilə əlaqədar keçirilən tədris məşğələlərin səmərəliliyinin yüksəldilməsi həmişə diqqət mərkəzində olmuş, qanunvericiliyə edilmiş son əlavə və dəyişikliklərin öyrənilməsi istiqamətində işlər görülmüşdür.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan xalqına, onun dövlətçiliyinə və hakimiyyətə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

## Baş prokuror Avropa İttifaqının İnsan hüquqları üzrə xüsusi nümayəndəsi ilə görüşmüşdür

Baş prokuror Zakir Qaralov Azərbaycanda səfərdə olan Avropa İttifaqının İnsan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin Avropaya inteqrasiya proseslərinə fəal qoşulduğu vurğulanmış, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd edilmişdir.

Baş prokuror ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində dövlət başçısı tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktlarının, o cümlədən prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında müasirləşmə prosesinin həyata keçirilməsi və köklü islahatların aparılması, şəffaflığın təmin edilməsi barədə ətraflı məlumat vermişdir.

Ölkəmizdə korrupsiyaya qarşı genişmiqyaslı mübarizə aparıldığını bildirən Zakir Qaralov Azərbaycanın bu sahədə beynəlxalq konvensiyalara qoşulduğunu, qanunvericiliyin təkmilləşdirildiyini vurğulamış, həmçinin «ASAN» xidmət mərkəzlərinin səmərəli fəaliyyətini qeyd etmişdir. Eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verilərək ötən il ərzində bu sahədə iki mötəbər beynəlxalq tədbirin Bakıda keçirildiyini bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə toxunan Baş prokuror, fevralın 26-da Xocalı soyqırımının 23-cü ildönümünün tamam olmasını qeyd edərək beynəlxalq birlik tərəfindən insanlıq əleyhinə olan bu cinayətə hüquqi qiymət verilmədiyini xüsusi vurğulamış, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasının zəruriliyi və bunu tələb edən BMT Təhlükəsizlik Şurası, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının olduğu, eyni zamanda bir milyondan artıq qaçqın və məcburi köçkünün konstitusion hüquqlarının bərpası istiqamətində səylərin artırılmasının vacibliyini qonaqların diqqətinə çatdırmışdır.

Azərbaycan Respublikasına olan səfərindən məmnunluğunu ifadə edən Stavros Lambrinidis Azərbaycana səfəri çərçivəsində bu cür görüşlərin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu vurğulamışdır. Təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın daha da inkişafı üçün geniş imkanlar olduğunu deyən qonaq Avropa İttifaqının Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələrin dərinləşməsində maraqlı olduğunu bildirmişdir.

Daha sonra tərəfləri maraqlandıran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

Görüşdə Avropa İttifaqının Azərbaycandakı səfiri Malena Mard və digər rəsmi şəxslər iştirak etmişlər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçiləri Baş Prokurorluqda olmuşlar

Martın 3-də Baş prokuror Zakir Qaralov Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Pedro Aqramuntun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Baş prokuror AŞPA ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini bildirərək Prezident cənab İlham Əliyevin ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı imzaladığı mütərəqqi qanunvericilik aktları, həyata keçirilən islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün yaradılmış normativ-hüquqi baza və korrupsiyaya qarşı mübarizə sahəsində görülən konkret işlər barədə ətraflı məlumat vermişdir.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verildiyini bildirən Baş prokuror ötən ildə, o cümlədən ölkəmizin Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Bakı

şəhərində korrupsiyaya qarşı mübarizə sahəsində keçirilmiş yüksək səviyyəli beynəlxalq konfransların əhəmiyyətindən bəhs etmişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin prokurorluq orqanları qarşısında prioritet vəzifə olduğunu diqqətə çatdıran Baş prokuror, çıxışında respublikamızda İnsan hüquqları üzrə Avropa Konvensiyasının implementasiyası, insan hüquqlarının qorunması istiqamətində aparılan işlər, o cümlədən «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»nın icrası ilə əlaqədar konkret işlərin həyata keçirildiyini xüsusi vurğulamışdır.

Azərbaycan Respublikasına növbəti səfərindən məmnunluğunu ifadə edən Pedro Aqramunt əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurlu inkişafını, ölkəmizin Avropa Şurası ilə əməkdaşlığını təqdir etmiş, məhkəmə-hüquq sistemində aparılan islahatlara maraq göstərərək insan haqlarının müdafiəsinin daha da gücləndirilməsi ilə bağlı fikirlərini bildirmişdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

### Baş prokuror Şamaxı şəhərində vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov fevralın 13-də Şamaxı rayon prokurorluğunun inzibati binasında Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Kürdəmir və Göyçay rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Şamaxı rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önü-

nə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 78 vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

## Baş prokuror Biləsuvar rayonunda vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov martın 30-da Biləsuvar rayon prokurorluğunun inzibati binasında Biləsuvar, Cəbrayıl, İmişli, Cəlilabad və Neftçala rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Biləsuvar rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 80-ə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Vətəndaşlar bölgə sakinlərinin yerində qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Cinayət törətmiş şəxslərin verilməsinin (ekstradisiyasının) bəzi məsələlərinə aydınlıq gətirilməlidir

*(Birinci hissəsi jurnalın əvvəlki nömrəsində)*

*Ekstradisiya məqsədi ilə tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakim yanına gətirilməli və onun ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək, təminatlarının təqdim edilməsi şərti ilə azad edilmək hüquqları təmin olunmalıdır.*

İnsan hüquq və azadlıqlarının müdafiəsində etalon kimi «beynəlxalq standartlar»ın qəbul edildiyini şübhə altına alan tapılmaz. Onlar haqlıdırlar. Lakin bəzi hallarda milli müdafiə standartlarının beynəlxalq standartlardan daha geniş, daha səmərəli olması da həqiqətdir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) hətta belə hallar üçün metodoloji yanaşma mövqeyi də müəyyənləşdirmişdir. Bu mövqeyə əsasən, milli qanunvericiliyin müəyyən etdiyi müdafiə səviyyəsi beynəlxalq standartlardan yüksək olduqda həmin səviyyə minimum kimi götürülür. Belə hallarda daxili qanunvericiliyin normalarının pozulması Avropa Məhkəməsi tərəfindən «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın (bundan sonra – Avropa Konvensiyasının) tələblərinin pozulması kimi dəyərləndirilir. İ.A. Fransaya qarşı işdə Avropa Məhkəməsi vurğulamışdır ki, «...5-ci maddənin 1-ci bəndinə əsasən daxili qanunvericiliyə riayət edilməməsi Konvensiyanın pozulmasına səbəb olur və Məhkəmə həmin qanunvericiliyə riayət edilib-edilmədiyini yoxlaya bilər və yoxlamalıdır.»[1]

Milli qanunvericilikdə nəzərdə tutulmuş təminatların beynəlxalq standartlarla müqayisədə daha yüksək səviyyəyə malik olmasının nümunəsi kimi ekstradisiya məqsədi ilə həbsə alınmış şəxslərin prosessual hüquqlarını göstərmək olar. Belə ki, ekstradisiya həbsi zamanı Avropa Konvensiyasının müəyyən etdiyi təminatlarla müqayisədə Azərbaycanın qanunvericiliyinin təsbit etdiyi təminatlar daha geniş və səmərəlidir. İlk növbədə bu, ekstradisiya məqsədi ilə tutulmuş və ya həbsə alınmış şəxsin hakim yanına gətirilməsi, ağlabatan müddət ərzində həbslə bağlı məhkəmə araşdırması aparılmasına, bu zaman ona məhkəməyə qədər azad edilmək, təminatlarının təqdim edilməsi şərti ilə azad edilmək hüquqlarının təmin olunmasına aiddir. Bu hüquqlar Avropa Konvensiyasının 5-ci maddəsinin 3-cü bəndində də nəzərdə tutulmuşdur. Orada deyilir: «Bu maddənin I bəndinin «c» yarımbəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər». Göründüyü kimi, Konvensiya qeyd edilən hüququ yalnız Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin «c» yarımbəndində göstərilmiş hallar – «hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsaslar olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması» halları üçün nəzərdə tutmuşdur. Digər şəxslərin, o cümlədən ekstradisiya məqsədi ilə həbsə alınmış şəxslərin (Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin «f» yarımbəndi) belə hüquqları Avropa Konvensiyasında təsbit edilməmişdir.

Azərbaycan qanunvericiliyinə görə isə, qeyd edilən hüquqlar müdafiə olunur. «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun 4.2-ci maddəsi Avropa Konvensiyasının 5-ci maddəsinin 3-cü bəndindəki hüququ həm də ekstradisiya məqsədi ilə həbs edilmiş şəxslər üçün tanımışdır. Orada

1 İ.A. (I.A.) Fransaya qarşı məhkəmə işi (1/1998/904/1116), 23 sentyabr 1998-ci il tarixli qərarın 171-ci paraqrafı.

deyilir ki, «Bu Qanunun 4.1-ci maddəsinə[2] uyğun tutulmuş və ya həbs olunmuş hər bir şəxs dərhal, işə baxmaq və ya məhkəməyə qədər azad etmək səlahiyyətinə malik olan hakimin yanına gətirilir. Həmin şəxs qanunla müəyyən edilmiş müddətdə məhkəmə araşdırmasının aparılması və ya məhkəməyə qədər azad edilməsi hüququna malikdir». Maddədə heç bir məhdudiyyət, məsələn, ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması halları üçün istisnalar yoxdur. Bu hüquq azadlıqdan məhrum olunan hər bir şəxsə verilir, o cümlədən Konstitusiya Qanununun 4.1.6-cı maddəsində nəzərdə tutulmuş barəsində «ekstradisiya tədbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi» hallarını da əhatə edir.

Qeyd edilən qanunun statusu (konstitusiya qanunu) bu məsələdə fərqli qaydalar müəyyən etmiş digər normativ-hüquqi aktların müddəalarının tətbiqi zamanı diqqətli olmağı tələb edir. Etiraf etməliyik ki, belə normalar mövcuddur. Məsələn, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 495.5-ci maddəsində göstərilmişdir ki, «Bu Məcəllənin 495.1[3] və 495.3[4]-cü maddələrinin müddəalarına müvafiq olaraq həbsə alınmış şəxs cinayət təqibi orqanlarının hərəkətlərindən şikayətlə məhkəməyə müraciət etmək hüququna malikdir. Həmin şikayətə bu Məcəllənin 442 - 454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır». Bu, Avropa Konvensiyasının 5-ci maddəsinin 3-cü bəndi ilə deyil (!), 4-cü bəndi ilə nəzərdə tutulmuş hüquqa *(Tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir)* uyğundur. Göstərilən bəndlərin arasındakı fərq əhəmiyyətlidir – 3-cü bəndin müdafiə səviyyəsi daha yüksək hesab edilir. Həmin fərqi Cesius (JĖČIUS) Litvaya qarşı məhkəmə işi (Ərizə N 34578/97) üzrə 31 iyul 2000-ci il tarixli qərarın 84-cü paraqrafında Avropa Məhkəməsi belə izah etmişdir: «Razılığa gələn Dövlətlərin 5-ci maddənin 3-cü bəndində nəzərdə tutulan öhdəliyi, yəni dərhal müvafiq vəzifəli şəxsin yanına gətirilmə öhdəliyi tutulmuş şəxsin həbsə alınmasının ilkin mərhələsi ilə məhdudlaşır, hərçənd ki, Konvensiyanın 5-ci maddəsinin 4-cü bəndi müəyyən hallarda tələb edə bilər ki, tutulmuş şəxs, əgər onun həbsdə qalma müddəti uzanırsa, həbsinin qanunsuz olduğuna səmərəli şəkildə etiraz edə bilmək üçün sonradan hakimin yanına gətirilməlidir». Göründüyü kimi, 5-ci maddənin 3-cü bəndində «norma» kimi müəyyən edilmiş qayda, 4-cü bənddə «istisna» kimi nəzərdə tutulmuşdur.

Konkret halda CPM-nin 495.5-ci maddəsinin «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanununun 4.3-cü maddəsi ilə ziddiyyət təşkil etməsi barədə fikir yürütmək üçün əsas yoxdur. Yalnız onu demək olar ki, CPM-də qeyd edilən konstitusiya qanununun müvafiq norması ilə «səsləşən» norma yoxdur. Təbii ki, onlar konstitusiya qanunu

2 *Bax,* «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» 24 dekabr 2002-ci il tarixli Konstitusiya Qanunu: «4.1. Aşağıdakı hallardan başqa və aşağıdakılardan fərqli qaydada heç kəs tutula, həbsə alına və ya başqa formada azadlıqdan məhrum edilə bilməz: 4.1.1. şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi; 4.1.2. şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi; 4.1.3. şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi; 4.1.4. yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması; 4.1.5. yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması; 4.1.6. şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya tədbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi.»

3 *Bax,* CPM: «495.1. Xarici dövlətin səlahiyyətli hakimiyyət orqanından hər hansı şəxsin verilməsi barədə xahişi və onun həbsə alınması haqqında qərarın surətini aldıqdan sonra Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı zərurət olduqda və bu Məcəllənin müddəalarına riayət etməklə şəxsin verilməsi haqqında qərar qəbul edilənədək onun tutulması və həbsə alınması üçün tədbirlər görə bilər».

4 *Bax, orada:* «495.3. Zəruri hallarda Azərbaycan Respublikasının sorğu edilən cinayət təqibi orqanı bu Məcəllənin müddəalarına riayət etməklə xarici dövlətin sorğu edən səlahiyyətli hakimiyyət orqanının vəsatəti əsasında hüquqi yardım göstərilməsi qaydasında, həmçinin barəsində verilməsi xahişi ilə rəsmi müraciət daxil olmamış şəxsi də tutmaq səlahiyyətinə malikdir.»

normaları ilə ziddiyyətə girsələr, tətbiq edilməməlidirlər.

Məqalənin əvvəlki hissəsində göstərilmişdi ki, prokurorluq yalnız «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Minsk və Kişinyov konvensiyaları üzrə milli əlaqələndirici subyekt kimi müəyyən edilmişdir. Bu hallarda prokurorluq ekstradisiya prosesinin bilavasitə icraçısı kimi çıxış edir. Qalan sənədlər üzrə ekstradisiya məsələləri Ədliyyə Nazirliyi tərəfindən qanunvericiliyə uyğun şəkildə həll edilir. Belə işlərdə prokurorluq iştirak edirmi, edirsə, onun iştirakının forma və hüdudlarını tənzimləyən normalar varmı?

Həbs prosessual məcburiyyət tədbiridir (CPM-nin 444.1.2-ci maddəsi) və yalnız məhkəmə qərarı əsasında tətbiq edilir. Bu məsələyə məhkəmədə baxılması üçün əsas prokurorun təqdimatıdır (CPM-nin 446.1.2-ci maddəsi)[5]. Ekstradisiya məqsədi ilə həbsə almanın başqa, xüsusi qaydası qanunvericilikdə müəyyən edilməmişdir.

Cinayət təqibi ilə əlaqədar şəxsin həbsə alınmasının yeganə qaydası CPM-də təsbit edilmişdir. Bu qaydalara görə, prokurorun həmin prosesdə iştirakı məhkəmənin qanuniliyinin əsas şərtlərindən biridir. CPM-nin 447.3-cü maddəsində göstərilmişdir: «(...) prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi (...) məsələləri üzrə qapalı məhkəmə iclasında aşağıdakı şəxslər iştirak etmək hüququna malikdirlər: 447.3.1. vəsatət vermiş şəxs; 447.3.2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror; 447.3.3. vəsatətlə hüquqlarının məhdudlaşdırılması nəzərdə tutulan şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi». Məhkəmədə prokuror səmərəli hüquqlara, o cümlədən təqdimatdan imtina hüququna malikdir. CPM-nin 447.7.4-cü maddəsində qeyd edilmişdir ki, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri üzrə məhkəmə iclasında «ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz yekun sözündə məhkəməyə vəsatətin təmin və ya rədd edilməsini təklif edir, bu zaman prokuror özünün məhkəməyə göndərdiyi təqdimatdan imtina etmək hüququna malikdir».

Göründüyü kimi, qanunverici «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Qanunun 6 və 7-ci maddələrində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Ədliyyə və Daxili İşlər nazirliklərinin) üzərinə qoyulmuş vəzifələrin icrasının prokurorluğun iştirakı ilə həyata keçirilməsi qaydasını müəyyənləşdirmişdir.

Təhlildən çıxan praktiki nəticə ondan ibarətdir ki, ekstradisiya məqsədi ilə tutulmuş şəxslər mütləq qaydada 48 saat ərzində məhkəmə nəzarətini həyata keçirən məhkəmə qarşısına çıxarılmalıdırlar. Onların «dinlənilmə» hüququ təmin olunmalıdır. Məhkəmədə bu şəxslərin ekstradisiyasının və həbsinin səbəbləri və əsasları (Avropa Məhkəməsinin «əsaslı şübhə» standartı üzrə) yoxlanılmalıdır. Bu zaman məhkəmə nəzarətinin bütün tələblərinə əməl olunmalıdır. İlk növbədə həmin şəxslərin müdafiə hüquqları təmin edilməlidir. Prosesdə prokuror iştirak etməlidir. Məhkəmə mümkün qədər tez başa çatdırılmalıdır. Həbs üçün əsas olmadıqda (və ya tapılmadıqda) və ya şəxsin ekstradisiya prosedurlarında iştirak etməsi (və ya bununla bağlı məhkəmə proseslərinə gəlməsi) təminatları təqdim edildikdə o, həbsdən azad edilməlidir.

Ekstradisiya ilə bağlı milli qanunvericilik və ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müvafiq normalarının tətbiqi zamanı normalar arasında ziddiyyətlərdən daha çox uyğunsuzluqlara, qeyri-müəyyənliklərə rast gəlmək olur. Bunlar əksər hallarda verilmə barədə sorğu əsasında tutulmuş və həbsə alınmış şəxslərin hüquqlarının pozulması ilə müşayiət edilir.

Ekstradisiya məqsədi ilə tutulmuş şəxslərin həbs edilmələri qaydası milli təcrübədə dərin köklər salmışdır. Bu, ilk növbədə qanunların keyfiyyəti, daha doğrusu, qeyri-müəyyənliyi ilə bağlıdır. Cinayət prosesində «azadlığın prezumpsiyası» insan hüquqlarının müdafiəsinin fundamental prinsiplərindən biridir. Avropa Məhkəməsi də təcrübəsində bu prinsipə geniş yer verir. Məhkəmənin fikrincə, azadlıq insanın təbii vəziyyətidir və onun istənilən məhdudlaşdırılmasına yalnız ciddi ictimai (dövləti) maraqla haqq qazandırmaq olar. Azadlıqdan məhrum etmə «qayda» deyil, «istisna» olmalı və yalnız o hallarda tətbiq edilməlidir ki, digər tədbirlər işləməsinlər.

Təəssüflə qeyd edilməldiir ki, ekstradisiya həbsi ilə bağlı qanunvericilik normalarını heç də həmişə bu yanaşmaya uyğun saymaq mümkün deyildir. Bəzi hallarda, qeyd edilən prinsipin əksini, yəni «həbsin prezumpsiyası»nı müşahidə etmək mümkündür.

---

5 *Bax,* CPM: «446.1. (...), prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi (...) məsələlərinin məhkəmədə baxılması üçün aşağıdakılar əsasdır: 446.1.2. prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiq və ya digər səlahiyyətli şəxsin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;».

«Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında» Qanunun 7-ci maddəsi («Verilmə haqqında sorğu alınanadək şəxsin həbsə alınması») müəyyən etmişdir ki, «Təxirəsalınmaz hallarda xarici dövlətin vəsatətinə əsasən verilmə haqqında sorğu alınanadək, şəxsin axtarışı və həbs edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada zəruri tədbirlər görülür» (7.1); «Sorğu edən xarici dövlət şəxsin həbsə alınması haqqında rəsmi məlumat aldığı vaxtdan ən geci 18 gün müddətində verilmə haqqında sorğu və ya bu Qanunun 5-ci maddəsində göstərilən sənədləri təqdim etmədikdə, bu Qanunun 7.1-ci maddəsində göstərilən qaydada həbs edilmiş şəxs azad olunur. Üzrlü səbəblər olduqda vəsatət verən xarici dövlətin xahişinə əsasən bu maddədə göstərilən müddət şəxsin həbsə alınması haqqında rəsmi məlumat alındığı vaxtdan 30 gündən artıq olmamaq şərti ilə uzadıla bilər» (7.4); «Şəxsin azad olunması sorğu alındıqdan sonra onun yenidən həbs edilməsini istisna etmir (7.5)».

Göründüyü kimi, 7.1-ci maddədə qanunverici verilməsi sorğu edilmiş və tutulmuş şəxsin həbs edilməməsi variantını, ümumiyyətlə nəzərdə tutmamışdır. 7.4-cü bənddən açıq-aydın görünür ki, verilməsi sorğu edilən şəxsin «normal vəziyyəti» həbsdə olmaqdır və o azadlığa yalnız müstəsna halda – sənədlər təqdim edilmədikdə çıxa bilər. 7.5-ci bənddə – «sorğunun alınması» şəxsin yenidən həbsinin yeganə əsası kimi göstərilmişdir. Necə deyərlər, «həbsin prezumpsiyası»nın klassik nümunəsi.

Qeyd edilən Qanunun 6 və 7-ci maddələrində verilməsi sorğu edilən şəxsin «axtarışı» onun «həbs edilməsi» ifadəsi ilə ayrılmaz vəhdət şəklində («şəxsin axtarışı və həbs edilməsi») təqdim edilir. Diqqət yetirin, söhbət «tutulma»dan deyil, «həbs edilmə»dən gedir. Belə təsəvvür yaranır ki, ekstradisiya məqsədi ilə axtarılıb tapılan şəxs mütləq həbs edilməlidir.

Qeyd edilən məsələ «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» Minsk (60,61, 62-ci maddələri) və Kişinyov (68, 70-ci maddələri) konvensiyalarında həll edilmişdir.

Azərbaycan Respublikasının CPM-də də belə qüsurları müşahidə etmək mümkündür. Bu Məcəllənin 495.1-ci maddəsində qeyd edilir ki, cinayət təqibi orqanı «şəxsin verilməsi haqqında qərar qəbul edilənədək onun tutulması və həbsə alınması üçün tədbirlər görə bilər». Başqa növ tədbir nəzərdə tutulmur, ya «tutulma və həbs» və ya «heç nə». Söhbət qətimkan tədbirindən gedirsə, milli qanunvericilik başqa, azadlıq hüququna müdaxilə ilə bağlı olmayan tədbirləri də nəzərdə tutur. Bu maddədə diqqəti cəlb edən digər məqam «tutulma» ilə «həbsə alınma»nın bir sırada göstərilməsidir. Qanunvericiliyə görə, cinayət təqibi orqanı məhkəmə qərarı olmadan şəxsi yalnız tuta bilər. Həbs üçün məhkəmə qərar verməlidir və bu zaman digər subyektlərin də iştirakı nəzərdə tutulan bəzi prosedurալara əməl etmək lazımdır. Belə qərarın qəbulunda cinayət təqibi orqanının iradəsi əhəmiyyətli rol oynamır. Bu səbəbdən onun boynuna şəxsin «həbsə alınması üçün tədbirlər görmək» vəzifəsi qoyulması real məna kəsb etmir, təcrübədə isə qarışıqlıq yaradır. Məsələn, məhkəmələr tərəfindən ekstradisiya məqsədi ilə həbs qərarlarının polisin vəzifəli şəxslərinin (adətən, rəis müavinlərinin) «vəsatətləri» və bu vəsatətləri müdafiə edən prokurorların «təqdimatları»na əsasən qəbul etmələri geniş yayılmışdır. Halbuki, qanunvericilikdə şəxsin həbs edilməsində polis məmurunun hər hansı bir prosessual səlahiyyəti nəzərdə tutulmamışdır. Onların müvafiq müraciətləri «vəsatət» (və ya başqa prosessual sənəd adı) adlandırılmaqla hüquqi əhəmiyyət kəsb etmir. Prokurorlar həmin vəsatətləri məhkəməyə təqdim etməməlidirlər.

Qeyd edilənlərdən çıxan praktiki nəticə ondan ibarətdir ki, təcrübədə sadalanan və onlara bənzər normaların tətbiqi zamanı diqqətli olmaq, onları ilk öncə daha yüksək hüquqi qüvvəyə malik normalar və hamılıqla qəbul edilmiş ədalət mühakiməsi prinsipləri baxımından dəyərləndirmək lazımdır. Həmin norma və prinsiplərə zidd qaydalar tətbiq olunmamalıdır. Ekstradisiya və onunla bağlı digər prosedurların həyata keçirilməsində tələskənliyə yol verilməməlidir.

Azərbaycanın cinayət-prosessual qanunvericiliyində ekstradisiya məsələləri ayrıca icraat şəklində tənzimlənməmişdir. Bunun nəticəsi odur ki, təcrübədə, məlumatların və sənədlərin uçotundan tutmuş hüquqi prosedurlarda iştiraka qədər xeyli qeyri-müəyyənliklər yaranmışdır. Bu vəziyyətdən irəli gələn çatışmazlıqları qarşılamaq üçün ekstradisiyası sorğu edilən şəxsin bütün hüquqlarını təmin etməklə ətraflı «ekstradisiya araşdırması» aparılmalıdır.

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri.*

# Azərbaycan Respublikası Prokurorluğu əməkdaşlarının nəzəri bilik və peşə hazırlığı səviyyəsinin «İmtahan» informasiya sistemində test üsulu ilə yoxlanılmışdır



«Prokurorluq işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yoxlanılması haqqında» 29.01.2015-ci il tarixli 10/5 nömrəli əmrə əsasən, cari ilin mart ayının 2-dən 19-dək Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun, Bakı şəhər Prokurorluğunun, eləcə də onlara tabe olan rayon (şəhər) və ərazi hərbi prokurorluqların işçilərinin nəzəri bilik və peşə hazırlığı səviyyəsi «İmtahan» informasiya sisteminin test bazası əsasında avtomatlaşdırılmış elektron imtahan üsulu ilə yoxlanmışdır.

Hazırlıq işləri çərçivəsində tədbirin keçirilməsi üçün Elm-Tədris Mərkəzi tərəfindən bir sıra zəruri işlər görülmüşdür. İnformasiya sisteminin verilənlər bazası mövcud test tapşırıqlarının təkmilləşdirilməsi, bəzilərinin çıxarılması, qanunvericilikdə və təcrübədə baş vermiş dəyişikliklər nəzərə alınmaqla yenilərinin hazırlanması hesabına zənginləşdirilmişdir. Testlərin ekspertizası keçirilmiş, 2.995 testin istifadə olunması məqbul hesab edilmişdir. Onların 1.604 ədədi tutduqları vəzifələrdən asılı olmayaraq bütün prokurorluq işçilərinin istifadə etdikləri biliklərə, qalan hissəsi – 1.391 ədədi konkret vəzifə sahələrinə aid testlər olmuşlar. Hər bir test bilik və funksional fəaliyyət sahələri üzrə indeksləşdirilmişdir.Müəyyən edilmişdir ki, prokurorluqda 55 unikal vəzifə vardır. Bu nəzərə alınmaqla vəzifələr də təsnifləşdirilmiş və hər bir vəzifəyə indeks verilmişdir. Verilənlər bazasının mənbələr üzrə strukturu və miqdarı müəyyən edilərkən müvafiq biliklərin təcrübədə tətbiqi tezliyi nəzərə alınmışdır. Məsələn, bazada CPM-dən 27,4%, CM-dən 15%, qanunlardan 17,5%, o cümlədən, «Prokurorluq haqqında» Qanundan 4,3%, «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanundan 2,7%, beynəlxalq konvensiyalardan 3,4%, o cümlədən, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasından 0,8%, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin konkret işləri üzrə presedent təcrübədən 2,3%, Mülki Məcəllədən 2,3%, Mülki-Prosessual Məcəllədən 1,1%, Ali

Məhkəmənin Plenum qərarlarından 2,7%, Azərbaycan Respublikasının Konstitusiyasından 2,8%, Baş Prokurorluq üzrə əmrlərdən 7,1%, müxtəlif təlimatlardan 3%, qaydalardan 1,7%, əsasnamələrdən 0,5%, nizamnamələrdən 1% və s. test hazırlanmışdır.

Verilənlər bazasındakı testlərin miqdarı qanunvericilikdəki dəyişikliklərin və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsinə dair testlərin hesabına artmışdır..

İmtahana hazırlıq çərçivəsində Elm-Tədris Mərkəzi tərəfindən xüsusi internet səhifəsi (http://etm-prok.info) yaradılmış və bura imtahanla bağlı bütün sənədlər – qanunlardan və digər normativ-hüquqi aktlardan çıxarışlar, testlərin siyahısı, elanlar, prokurorluq işçilərinin müraciətləri və s. yerləşdirilmişdir. Səhifəyə buraxılış üçün müəyyən edilmiş kod xidməti kanallarla prokurorluq işçilərinə çatdırılmışdır. Səhifə imtahan dövründə interaktiv rejimdə işləmişdir.

İmtahan uğurla başa çatmışdır. Onun nəticələrinin təhlili əsasında hazırlanmış prokurorluğun fəaliyyətinin səmərəsinin artırılması barədə təkliflər prokurorluğun rəhbərliyinə məruzə edilmişdir.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

***

## Hülud əl-Oran: Azərbaycan rəhbərliyi korrupsiyaya qarşı mübarizəyə böyük əhəmiyyət verir

**«Azərbaycan korrupsiyaya qarşı mübarizə üzrə beynəlxalq prosesin fəal iştirakçısıdır və Beynəlxalq Antikorrupsiya Akademiyasının fəaliyyətinə sanballı töhfə verir». Bu sözləri Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının ötən il noyabrın 19-21-də Bakıda keçirilən 3-cü sessiyasının işində iştirak edən İordaniya Haşimilər Krallığının Antikorrupsiya Komissiyasının beynəlxalq əməkdaşlıq şöbəsinin rəhbəri *Hülud əl-Oran*** AzərTAc-ın xüsusi müxbirinə müsahibəsində səsləndirib.



Onun sözlərinə görə, IACA Assambleyasının 3-cü sessiyasının Azərbaycanın paytaxtında keçirilməsi dünyada Azərbaycanın nüfuzunun artdığını və Azərbaycanda korrupsiyaya qarşı mübarizə tədbirlərinin beynəlxalq qurumlar tərəfindən qiymətləndirildiyini göstərir. Bu forum həmin problemlər üzrə qlobal əməkdaşlığı genişləndirmək üçün yaxşı zəmin də yaradır.

Hülud əl-Oran deyib: «Azərbaycan ölkə Prezidentinin himayəsi ilə keçirilən, 40-dan çox ölkənin və beynəlxalq qurumun nümayəndələrinin iştirak etdiyi bu mötəbər tədbiri yaxşı təşkil etdi və çox yüksək səviyyədə keçirdi. Sessiyada korrupsiyaya qarşı mübarizə və bu məqsədlə vahid yanaşmaların işlənib hazırlanması üzrə aktual məsələlər müzakirə edildi. Biz Azərbaycanın bu istiqamətdə fəaliyyəti və əldə etdiyi uğurlar barədə məruzəni məmnuniyyətlə dinlədik. Görünür, Azərbaycan rəhbərliyi korrupsiyaya qarşı mübarizəyə böyük əhəmiyyət verir. Buna görə də ölkə beynəlxalq antikorrupsiya təşkilatlarının və komissiyalarının hamısı, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində tədqiqatlarda, yeni mübarizə metodu və yanaşmalarının

öyrənilməsində ixtisaslaşan Beynəlxalq Antikorrupsiya Akademiyası ilə fəal əməkdaşlıq edir».

Hülud əl-Oran xüsusi qeyd edib ki, sessiyada təşkilati məsələlər də nəzərdən keçirilib, o cümlədən IACA-nın büdcəsi qəbul edilib, 2015-ci il üçün əməkdaşlıq proqramları və layihələri, habelə Antikorrupsiya Akademiyasının üzvü olan ölkələr arasındakı qarşılıqlı fəaliyyəti daha da sıxlaşdıran digər məsələlər müzakirə edilib.

Hülud əl-Oran deyib: «İordaniyaya qayıdandan sonra Antikorrupsiya Komissiyasının sədri Samih Binoya ətraflı məruzə təqdim etdim. Məruzədə ölkənizin əməli təcrübəsinin daha ətraflı öyrənilməsinin zəruriliyi barədə təkliflər yer alıb. Zənnimcə, bizim ölkədə də bu təcrübədən istifadə oluna bilər. Ölkənizin Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olanda və bu sahədə siyasətin həyata keçirilməsi mexanizmləri ilə yerində tanışlıq zamanı buna əmin oldum. Xüsusən, şikayətlərin verilməsi, bu prosesin necə getməsi, prokurorlar tərəfindən baxılması prosedurunun gedişatı və s. məsələlərdə. Bununla bərabər, dövlət qurumları arasında yaxşı elektron əlaqə yaradılıb. Bu istiqamətdə böyük iş görülüb, bütövlükdə Azərbaycanda çoxlu maraqlı yenilik tətbiq edilib və bu yeniliklər diqqətəlayiqdir. Zənnimcə, Azərbaycanda qanunların icrası üçün çox mütərəqqi üsullar və korrupsiyaya qarşı mübarizə aparan möhkəm sistem var. Yəqin ki, gələcəkdə təşkilatlarımız arasında daha sıx əməkdaşlıq yaranacaq və ola bilsin, bu əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsi aparacaq, birgə konfrans, seminar və s. keçirəcəyik».

Bakı və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin sürətli inkişafı barədə təəssüratlarından söz açan Hülud əl-Oran bildirib ki, bu, onun Azərbaycana ilk səfəri olub. O deyib: «Etiraf edim ki, az inkişaf etmiş postsovet ölkəsi olduğunu düşünürdüm, lakin gördüyüm tərəqqi məni yaxşı mənada təəccübləndirdi. Mən Avropanın, demək olar, bütün ölkələrində olmuşam və Azərbaycanda hiss etdim ki, bura sözün hər mənasında Avropa ölkəsidir. Çox gözəl, çox inkişaf etmiş, misilsiz arxitekturası və cazibəsi olan sivil ölkədir. Müsəlman ölkəsi olmasına baxmayaraq, özündə həm də Avropa dəyərlərini birləşdirən, həqiqətən müasir və dünyəvi bir dövlətdir. Bakı xeyirxah, səmimi və qonaqpərvər sakinləri olan gözəl şəhərdir. Yayda ailəmlə birlikdə Bakıya gəlməyi düşünürəm. Axı, yayda Bakıda həm də tarixdə ilk dəfə Avropa Oyunları keçiriləcək».

**AzərTac**

***

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir

Yanvarın 15-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2014-cü ildə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı mətbuat konfransı keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov görülmüş işlər barədə ətraflı məlumat vermişlər.

Bildirilmişdir ki, Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasəti nəticəsində ötən dövrlərdə olduğu kimi 2014-cü ildə də ölkə həyatının bütün sahələrində yenidənqurma işləri uğurla davam etdirilmiş, möhtəşəm nailiyyətlər qazanılmaqla irimiqyaslı nailiyyətlərə imza atılmışdır.

2014-cü ildə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter almış, mütərəqqi institusional tədbirlər həyata keçirilmişdir.




Prezident cənab İlham Əliyevin 24 iyun 2014-cü il tarixdə Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı çıxışında Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə ilk dəfə sədrlik edəcəyi dövrdə insan hüquqları, qanunun aliliyi və demokratiyaya güclü dəstək göstərəcəyini qeyd etməklə yanaşı, korrupsiyaya qarşı mübarizənin prioritet istiqamətlərdən biri olduğunu bildirməsi, habelə 31 dekabr 2014-cü il tarixdə «Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il» münasibətilə Azərbaycan xalqını təbrik edərkən korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi və sistem xarakterli tədbirlərin aparılacağını xüsusi vurğulaması bu istiqamətdə siyasi iradənin təzahürü olduğu bildirilmişdir.

Bundan başqa, 2014-cü il ərzində 2 önəmli beynəlxalq antikorrupsiya konfranslarının ölkəmizdə keçirilməsinin əhəmiyyəti xüsusi qeyd edilmiş, 30 iyun-01 iyul 2014-cü il tarixlərdə Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə Bakıda «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndənin iştirak etdiyi yüksək səviyyəli beynəlxalq konfransın keçirilməsi, həmçinin ölkəmizin 19-21 noyabr 2014-cü il tarixlərdə keçirilmiş Beynəlxalq Antikorrupsiya Akademiyasına (IACA) üzv və iştirakçı ölkələrin Assambleyasının 3-cü sessiyasına ev sahibliyi etməsi, eyni zamanda Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun Assambleyanın növbəti ili üçün sədri seçilməsi ölkəmizin artan nüfuzunun təcəssümü və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanda korrupsiyaya qarşı aparılan mübarizəyə verilən qiymətin nəticəsi kimi vurğulanmışdır.

IACA-ya üzv və iştirakçı ölkələrin Assambleyasının 3-cü sessiyasında 43 ölkədən 130-dan çox nümayəndənin, o cümlədən Avropa Şurasının, Avropa İttifaqının, Avropa Komissiyasının




Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF), müstəqil antikorrupsiya qurumlarının rəhbərləri, ədliyyə və daxili işlər nazirlərinin iştirak etdiyi sessiya çərçivəsində qəbul edilmiş Bakı Bəyannaməsində korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə potensialın genişləndirilməsi üzrə birgə səylərin əhəmiyyəti qeyd edilmiş, qərarlılıq, milli və beynəlxalq səviyyədə təhsil, təlim vasitəsilə antikorrupsiya mühitinin qurulması təşəbbüslərinə tam dəstək vurğulanmışdır.

Hesabat dövründə korrupsiyaya qarşı ardıcıl və sistemli mübarizənin aparılması istiqamətində bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər həyata keçirilmiş, ölkədə korrupsiyaya qarşı mübarizənin daha səmərəli formada təşkil edilməsinə zəmin yaranmışdır.

Belə ki, «Prokurorluq haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi haqqında 14 fevral 2014-cü il tarixli qanunlar və həmin qanunların tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adı ilə əvəz olunmuş, eyni zamanda statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilərək Baş İdarə əməkdaşlarının ştat vahidi 100-dən 140-a çatdırılmışdır.

Bildirilmişdir ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, eyni zamanda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi əvvəlki illərdə olduğu kimi fəaliyyətini 2014-cü ildə də uğurla davam etdirmişdir.

Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 3194 müraciətinə baxılmış, həmçinin 218 cinayət xarakterli material araşdırılmışdır. Həmin cinayət xarakterli materialların 82%-i üzrə cinayət işi başlanmış, digər məlumatlar üzrə isə zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Baş İdarənin 161 saylı «Qaynar xətt» əlaqə mərkəzinə bu müddət ərzində 4945 müraciət daxil olmuş, həmin müraciətlərin 21-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir. Bununla yanaşı, korrupsiya ilə əlaqədar olmayan müraciət müəlliflərinə mülki, ailə, mənzil, inzibati və digər hüquq sahələrində pozulmuş hüquqlarının bərpası ilə bağlı ətraflı izahlar verilmişdir.

2014-cü il ərzində Baş İdarənin növbətçi prokurorları tərəfindən korrupsiya və digər hüquqpozmalar barədə müraciət etmiş 807, Baş İdarə rəisi tərəfindən isə 139 vətəndaş qəbul edilməklə ərizələri alınmış, həmin ərizələr üzrə tam və hərtərəfli araşdırmalar aparılmaqla obyektiv qərarların qəbul edilməsi təmin olunmuşdur.

Hesabat dövrü ərzində törədilmiş və ya hazırlanan cinayətlər barədə Baş İdarənin əməliyyat qurumları tərəfindən 584 müraciət araşdırılmışdır. Həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 10, o cümlədən korrupsiya hüquqpozmaları ilə əlaqədar toplanmış materiallar üzrə 11 cinayət işi başlanmışdır.

2014-cü il ərzində Baş İdarənin İstintaq şöbəsi tərəfindən 333 şəxs barəsində 206 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 16 şəxs barəsində 9 iş rüşvət alma (passiv rüşvətxorluq), 5 şəxs barəsində 4 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 43 şəxs barəsində 22 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 6 şəxs barəsində 6 iş vəzifə səlahiyyətlərini aşma, 7 şəxs barəsində 4 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 6 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 5 şəxs barəsində 4 iş səhlənkarlıq, 134 şəxs barəsində 79 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 95 şəxs barəsində 59 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 14 iş saxta sənədlərdən istifadə etmə, 2 şəxs barəsində 2 iş isə digər faktlarla əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 76 milyon 165 min 41 manat ziyandan istintaq müddətində 54 milyon 885 min 691 manat və ya 72%-i ödənilmiş, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

2014-cü il ərzində də korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir.

Belə ki, əhalinin sosial müdafiəsi, səhiyyə, yerli icra orqanları və digər sahələrdə aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə əlaqədar təkliflər hazırlanıb aidiyyəti qurumlara təqdim edilmiş, həmçinin bir sıra hallarda vəzifəli şəxslər tərəfindən «Korrupsiyaya qarşı mübarizə haqqında» qanunun tələblərinin pozularaq cinayət xarakteri daşımayan pozuntulara yol verildiyi müəyyənləşdirildiyindən həmin şəxslər barəsində «Prokurorluq haqqında» qanuna müvafiq olaraq aidiyyəti üzrə təqdimatlar verilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

2014-cü il ərzində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq uğurla davam etdirilmişdir.

Belə ki, 15-18 aprel 2014-cü il tarixlərdə GRECO-nun ekspertləri tərəfindən Azərbaycan

Respublikasına 4-cü raund dəyərləndirmə missiyası həyata keçirilmişdir. Dəyərləndirmə missiyası çərçivəsində Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin, Milli Məclisin və Məhkəmə-Hüquq Şurasının üzvlərinin, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və digər instansiya məhkəmələrinin hakimlərinin, müvafiq nazirliklərin məsul əməkdaşlarının, ali təhsil müəssisələrinin müəllim heyətinin və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə çoxsaylı görüşlər keçirilmişdir.

6-10 oktyabr 2014-cü il tarixlərdə Strasburq şəhərində keçirilmiş GRECO-nun 65-ci plenar iclasında Azərbaycanın 4-cü raund dəyərləndirməsi üzrə hesabat layihəsi dinlənilmiş, ölkəmizdə antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, habelə deputat, hakim və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması ilə bağlı məsələlərə dair tövsiyələr verilmişdir.

Hesabat dövründə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə əməkdaşlıq diqqət mərkəzində saxlanılmış, 17 yanvar 2014-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində OECD Katibliyinin məsul əməkdaşlarının iştirakı ilə qurumun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən ölkəmizin Üçüncü Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatı keçirilmişdir.

Ötən hesabat ili ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və iki yüzdən artıq prokurorluq əməkdaşının fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq daha da inkişaf etdirilmiş, 7-10 aprel 2014-cü il tarixlərdə qurumun Prezidenti və Avstriya Prokurorlar Assosiasiyasının Prezidenti Gerhard Yaroş nümayəndə heyəti ilə birlikdə, həmçinin 21-24 yanvar 2014-cü il tarixlərdə Assosiasiyanın baş müşaviri, Böyük Britaniya Krallığının böyük prokuroru Elizabet Hou ölkəmizdə işgüzar səfərdə olmuşlar.

2014-cü il ərzində Baş İdarə tərəfindən həmçinin Dünya Bankı, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM, Avropa İttifaqının Şərq Tərəfdaşlığı, Avropa İttifaqı (Aİ) – Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməklə Baş İdarə əməkdaşları həmin istiqamətlər üzrə konfrans, seminar, treninq, təlim və dəyirmi masalarda aktiv iştirak etmişlər.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar Baş İdarə əməkdaşlarının kütləvi informasiya vasitələrində məqalələri dərc edilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2014-cü il ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər. QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

Tədbirin sonunda korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində Baş İdarə tərəfindən hazırlanaraq nəşr edilmiş metodiki vəsaitlərin təqdimatı keçirilmiş, qeyd olunan nəşrlər tədbir iştirakçılarına paylanmaqla onların böyük marağına səbəb olmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir



Martın 17-də Baş Prokurorluğun Tarix muzeyində Müraciətlərə baxılması idarəsinin məxfiçilik və mülki müdafiə məsələləri üzrə prokuroru Yadigar Aslanovun rəhbərliyi altında hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə təlim məşqi keçirilmişdir.

Təlim məşqində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin Mülki müdafiə qüvvələrinin hazırlığı bölməsinin rəisi mayor Elşən Yolçuyev və həmin idarənin Müdafiənin təşkili və planlaşdırılması şöbəsinin zabiti Rafael Məhərrəmov iştirak etmişlər.



Məşq zamanı hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatı, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir. Mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti, zəruri vərdişləri mənimsəmələrinin keyfiyyəti yoxlanılmışdır.

Sonda suallar cavablandırılmış, fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

## Bakı şəhər prokurorluğunda «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir



Martın 5-də Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi tərəfindən Bakı şəhər prokurorluğunda həmin prokurorluğun struktur qurumları əməkdaşlarının və Bakı şəhərinin rayon prokurorluqları işçilərinin iştirakı ilə «Vətəndaşların qəbulu işinin təşkili» mövzusunda seminar keçirilmişdir.

Bakı şəhər prokurorunun müavini Azər Əsgərov seminarı açıq elan edərək vətəndaşların qəbulu işinin düzgün təşkilinin vacibliyindən danışmışdır.

Bundan sonra Müraciətlərə baxılması idarəsinin rəis müavini – Vətəndaşların qəbulu şöbəsinin rəisi Aynur Osmanova çıxış edərək vətəndaşların qəbulu işinin təşkili sahəsində fəallıq və təşəbbüskarlığın artırılması, yüksək icra intizamının təmin edilməsinin zəruriliyini vurğulamış, mövcud olan nöqsan və çatışmazlıqlardan söhbət açmış və zəruri tövsiyələri vermişdir.

Seminarda çıxış edən Müraciətlərə baxılması idarəsinin prokurorları Emil Mirzəyev və Yadigar Aslanov prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə məlumat vermiş, Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrin vətəndaşların qəbulu məsələlərini tənzimləyən müddəalarını ətraflı şərh etməklə vətəndaşların prokurorluq orqanlarında qəbulunun səmərəli keçirilməsinə dair tövsiyələr vermişlər.

Seminarda həmçinin vətəndaşların yaşayış yerləri üzrə qəbulunun xüsusiyyətləri barədə danışılaraq belə qəbulların təşkili və keçirilməsi qaydaları haqqında zəruri izahlar verilmiş, rayon prokurorlarının və onların vətəndaşların qəbuluna məsul olan köməkçilərinin vəzifələri təhlil edilmişdir.

Geniş fikir mübadiləsi şəraitində keçən tədbirin sonunda maraq doğuran məsələlər üzrə suallar cavablandırılmışdır.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

***

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 20 yanvar faciəsinin 25 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar faciə qurbanlarının xatirəsini anma mərasimi keçirilmişdir. Qanlı Yanvar hadisələrinin mahiyyətindən söhbət açan Muxtar Respublika prokuroru Səbuhi Şahverdiyev bildirmişdir ki, bu terror aktı Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin ölkəmizlə bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə qanlı divan tutmaq məqsədi ilə törədilmişdir. Bakıya və ölkəmizin digər rayonlarına hərbi hissələrin yeridilməsi sovet imperiyasının yürütdüyü mənfur siyasətin iç üzünü göstərdi. Dinc əhaliyə ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə divan tutulması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı imperiyanın əsrlərlə apardığı siyasətin davamı idi.

Qeyd edilmişdir ki, o zaman ölkəmizdə siyasi və iqtisadi böhran hökm sürürdü. Keçmiş sovet rəhbərliyi ermənilərin təsiri altında Azərbaycana qarşı böyük kampaniya aparırdı. Onların məqsədləri isə Azərbaycanda azadlıq hərəkatını boğmaq idi. Vəziyyət elə bir həddə çatmışdı ki, artıq Azərbaycanın bir dövlət kimi mövcud olması şübhə altında idi. O zamanlar Azərbaycanın qəhrəman oğlu, ümummilli lider Heydər Əliyev də xalqını bu ağır günlərdə tək qoymayaraq, yanvar ayının 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək terror aktını pisləyən bəyanatla çıxış etmişdir. Dahi şəxsiyyət böyük cəsarət göstərərək 20 Yanvar faciəsinə siyasi qiymət verib, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, o zamankı SSRİ və respublika rəhbərlərinin günahı və xəyanəti üzündən törədilmiş cinayət olduğunu göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması istiqamətində mühüm addımlar atıldı, qanlı qırğının xalqımızın tarixində yeri və rolu, dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm işlər görüldü. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi. Ulu öndərin şəhid ailələrini və əlilləri dövlət qayğısı ilə əhatə etdiyini vurğulayan Səbuhi Şahverdiyev qeyd etmişdir ki, onun siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub.

Azərbaycanın əldə etdiyi uğurlardan, keçdiyi inkişaf yolundan danışan Muxtar Respublika prokuroru qeyd etmişdir ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu gün öz inkişafı, dünyada qazandığı nüfuzu, regionun ən qüdrətli dövlətinə çevrilməsi ilə düşmənə layiqli cavab verir. Qazanılan bu uğurlar isə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müdrik siyasətin məntiqi nəticəsidir.

Səbuhi Şahverdiyev qeyd etmişdir ki, artıq Qanlı Yanvar hadisəsindən 25 il ötür. Hər il biz həmin dəhşətli hadisələri xatırlayırıq. Bu, həm dövlətimizin, həm də xalqımızın həmin qanlı hadisələrə münasibətidir. Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban verən cəsur Vətən oğullarının qəhrəmanlıq mübarizəsini böyük hörmət və ehtiramla əziz tutur. Şəhidlərimizin qəhrəmanlıqları əbədi olaraq xalqımızın yaddaşına həkk edilib, şəhidlərin qanı bahasına qazanılan dövlət müstəqilliyimizi qorumalı, onu əbədi və dönməz etməliyik.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

***

## Şərur rayon prokurorluğunda «Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları» mövzusunda seminar keçirilmişdir

Fevralın 10-da Şərur rayon prokurorluğunda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə «Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması qaydaları» mövzusunda seminar-məşğələ keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi rəisi Faiq Səfərov qeyd etdi ki, cəmiyyət inkişaf etdikcə yeni-yeni ictimai münasibətlər yaranır, bunun nəticəsində isə yeni qanunlar qəbul olunur və ya qüvvədə olan qanunvericiliyə əlavə və dəyişikliklər edilir. Yeni qanunvericiliyin və ya qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin öyrənilərək düzgün tətbiq edilməsi üçün qanunvericiliyin sistemləşdirilməsi işinin davamlı və müntəzəm aparılmasının əhəmiyyəti olduqca böyükdür. Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi Azərbaycan Respublikası Milli Məclisinin 22.04.1994-cü il tarixli 802 №-li qərarı ilə təsdiq edilmiş «Qanunvericlik sahələrinin ümumhüquqi təsnifatı», Azərbaycan Respublikasının digər qanunvericlik aktları, Azərbaycan Respublikası Baş Prokurorunun 27.02.2001-ci il tarixli 02/45 №-li «Prokurorluq orqanlarında hüquqi təminat və qanunvericiliyin sistemləşdirilməsi işinin əsaslı yaxşılaşdırılması tədbirləri haqqında» əmri və «Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsinin aparıl-

ması Qaydaları haqqında» Təlimata əsasən aparılır.

Qeyd olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, rayon (şəhər) prokurorluqlarında bu vəzifəni həyata keçirən prokurorluq işçiləri, normativ hüquqi aktların kartotekasını aparır, Azərbaycan Respublikasının məcəllələrini nəzarət vəziyyətində saxlayır, əməliyyat işçiləri tərəfindən yeni qanunvericiliyin öyrənilməsini, normativ hüquqi aktların və hüquq ədəbiyyatının uçotu və mühafizəsini təmin edir. Normativ hüquqi aktların sistematik kartotekasının aparılması qanunvericiliyin uçotu vasitəsi ilə sistemləşdirilməsinin vacib formalarından biridir. Sistematik kartotekada Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarının, referendumda qəbul edilmiş aktların, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarının, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlarının və Azərbaycan Respublikası Baş prokuroru tərəfindən imzalanmış əsas əmr, göstəriş, məlumat məktublarının və təsdiq edilmiş Təlimatların uçotu aparılır. Rayon prokurorluğunda Azərbaycan Respublikasının bütün məcəllələrinin, Azərbaycan Respublikası Konstitusiya və Ali Məhkəməsi plenumlarının qərarlarının, Azərbaycan Respublikası Baş prokuroru tərəfindən imzalanmış əsas əmr, göstəriş, məlumat məktublarının və təsdiq edilmiş Təlimatların nəzarət nüsxələri aparılır.

Bir daha qeyd olundu ki, prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirlməsi işi təşkil edilərkən normativ hüquqi aktların və hüquq ədəbiyyatının tam uçotu aparılmalı və etibarlı mühafizəsi təşkil edilməlidir.

Sonda iştirakçılara Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və informasiya idarəsi tərəfindən hazırlanmış «Prokurorluq orqanlarında qanunvericiliyin sistemləşdirilməsi işinin aparılması haqqında» metodiki vəsaitdən geniş istifadə olunması tövsiyə olunmuş, onları maraqlandıran suallar cavablandırılmışdır.

***

## Prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması ilə əlaqədar Naxçıvan şəhər prokurorluğunda seminar keçirilmişdir

Martın 10-da Naxçıvan şəhər prokurorluğunda Naxçıvan şəhər və Babək rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması ilə əlaqədar seminar keçirilmişdir. Seminarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinin rəisi Nihad Abbasov «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» 10.06.1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Baş prokurorunun «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrinin tələbləri haqqında məlumat verərək qeyd etmişdir ki, vətəndaşların dövlət ornalarına təkliflər, ərizə və şikayətlərlə müraciət etməsi insan hüquqlarının həyata keçirilməsində və qorunmasında mühüm rol oynayır. Ölkə Konstitusiyasına əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ var. Hər bir müraciətə isə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Müraciəti qəbul etməkdən imtina qadağandır. Anonim müraciətlərin, həlli prokurorluğun səlahiyyətinə aid olmayan müraciətlərin aidiyyəti üzrə göndərilməsi, müraciət müəllifinin məlumatlandırılması, yuxarı prokurorluqdan daxil olmuş müraciətlərin həlli qaydası, həmçinin müraciətlərə baxılması zamanı şəxsi, dövlət, ailə, peşə, kommersiya və qanunla qorunan digər sirlərin yayılmasına yol verilməməsi, eləcə də müraciətlərlə bağlı kargüzarlığın aparılması qaydası və qarşıya çıxan digər suallar barədə seminar iştirakçılarına ətraflı məlumat verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Azərbaycanın Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlığı genişlənir




Martın 6-da qərargahı Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) yaradılmasının 4-cü ildönümü qeyd olunub.

Avstriyanın yüksək vəzifəli şəxslərinin, Akademiyanın İdarəetmə Şurası üzvlərinin, Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokuror, IACA Assambleyasının sədri Zakir Qaralovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Tədbiri giriş sözü ilə açan Akademiyanın icraçı dekanı Martin Kroytner görülmüş işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verib. Akademiyanın Azərbaycanla səmərəli institusional əməkdaşlığını qeyd edən Martin Kroytner bu tədris ocağı ilə əlaqələrə xüsusi önəm verdiyinə görə ölkəmizə dərin minnətdarlığını bildirib.

Mərasimdə Azərbaycan Respublikasının Baş prokuroru, IACA Assambleyasının sədri Zakir Qaralov çıxış edərək dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin ölkəmizdə prioritet olduğunu, kompleks və ardıcıl inzibati və institusional islahatların həyata keçirildiyini, bu siyasətin uğurla davam etdirildiyini diqqətə çatdırıb. Baş prokuror beynəlxalq aləm tərəfindən Azərbaycanda korrupsiyaya qarşı mübarizəyə verilən yüksək qiymətin təzahürü olaraq ötən il noyabrın 19-21-də IACA Assambleyasının 3-cü sessiyasının Bakı şəhərində keçirilməsinə və Azərbaycanın nümayəndəsinin Assambleyanın sədri seçilməsinə görə Akade-



miyaya üzv dövlətlərin nümayəndələrinə təşəkkürünü bildirib.

Ölkəmizlə Akademiya arasında səmərəli əməkdaşlığın mövcudluğunu vurğulayan Baş prokuror IACA-nın qarşısında duran vəzifələrin həllində Azərbaycanın bu mötəbər tədris ocağına hər zaman dəstək olduğunu qeyd edib. Azərbaycanın Akademiyanın Assambleyasında sədrliyi dövründə görülmüş və gələcəkdə həyata keçiriləcək işlərə toxunan Zakir Qaralov IACA-nın fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində ölkəmizin bundan sonra da zəruri dəstəyini əsirgəməyəcəyini bildirib. Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının formalaşdırıldığını, korrupsiyaya qarşı mübarizə komissiyasının, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin, «ASAN» Xidmət və «Elektron Hökumət» portalının yaradıldığını vurğulayan Baş prokuror ölkəmizin bu sahədə öz müsbət təcrübəsini bölüşməyə hazır olduğuna əminlik ifadə edib.

Tədbir çərçivəsində Bolqarıstanın vitse-prezidenti, Akademiyanın İdarəetmə Şurasının rəhbəri Marqarita Popova, Avstriyanın ədliyyə naziri Volfqanq Brandştetter, daxili işlər naziri Yohanna Mikl-Leitner və digər rəsmi şəxslərlə görüşlər keçirilib, qarşılıqlı fəaliyyətə dair fikir mübadiləsi aparılıb.

Həmçinin tədbir iştirakçılarına «ASAN» Xidmətin, korrupsiyaya qarşı mübarizə Baş idarəsinin fəaliyyətini və ölkəmizdə korrupsiya ilə mübarizə sahəsində görülmüş işləri əks etdirən kitab, jurnal və digər nəşrlər təqdim edilib.

Tədbirdə ölkəmizin Avstriya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov iştirak edib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan – Türkiyə prokurorluq orqanları arasında işgüzar əməkdaşlıq genişlənir



Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Baş prokuroru Həsən Erbilin dəvəti ilə hər iki ölkənin prokurorluq orqanları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədi ilə 15–19 mart tarixlərdə Türkiyə Respublikasında səfərdə olub.

Martın 16-da nümayəndə heyəti tərəfindən Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə – Anıtqəbiri ziyarət edilərək Böyük Atatürkün əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub, xatirə kitabına ürək sözləri yazılıb.





Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Baş prokuror Zakir Qaralovu qəbul edib. Görüşdə Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə olduğu kimi hüquq-mühafizə orqanları arasında da əməkdaşlığın uğurla inkişaf etdiyi diqqətə çəkilib.

Daha sonra Türkiyə Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Baş prokuror Həsən Erbil bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Zakir Qaralov yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edib, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirib. Baş prokuror çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini xüsusi olaraq vurğulanıb.



Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmaqla həm ikitərəfli, həm də çoxtərəfli, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət, habelə hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsi məsələləri müzakirə edilib.

Türkiyə Baş prokurorluğunun strukturu və fəaliyyətini əks etdirən videomaterial nümayiş olunub.



Daha sonra hər iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan və Türkiyə prokurorluqları arasında Anlaşma Memorandumu imzalanıb.

Tərəflər sənədin imzalanmasını mühüm hadisə kimi qiymətləndirərək, anlaşma memorandumunun qardaş ölkələrin prokurorluq orqanları arasında təcrübə mübadiləsi, tədris və digər sahələrdəki əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyini bildiriblər.

Səfər çərçivəsində Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit, ədliyyə naziri Kənan İpək, İstanbul şəhər Baş prokuroru Hadi Salihoğlu və digər rəsmi şəxslərlə görüşlər keçirilməklə, prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında mövcud əlaqələrin yüksək səviyyədə olduğu vurğulanaraq, gələcək əməkdaşlıq perspektivləri ətrafında səmərəli fikir mübadiləsi aparılıb.





Zakir Qaralov Türkiyə Ali Məhkəməsinin sədri vəzifəsinə yeni seçilən Rüştü Ciritə Azərbaycan Respublikasının Ali Məhkəmənin sədri Ramiz Rzayevin məktubunu çatdırıb. İsmail Rüştü Cirit tezliklə Azərbaycana səfər edəcəyini bildirib.

Səfər çərçivəsində İstanbula gələn nümayəndə heyəti şəhərin Sarıyer rayonunda Heydər Əliyev Parkını ziyarət edib. Ziyarətdə Türkiyənin Baş prokuroru Hasan Erbil, Azərbaycanın





İstanbuldakı baş konsulu Həsən Zeynalov və digər rəsmi şəxslər də iştirak ediblər. Ümummilli lider Heydər Əliyevin parkdakı heykəli önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib.

Sonra Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün həmin ərazidəki heykəli önünə tər güllər düzülüb, xatirəsi anılıb.

Daha sonra İstanbulun Baş prokuroru Hadi Salihoğlu ilə görüş olub. Hadi Salihoğlu Azərbaycanla Türkiyənin prokurorluq orqanları arasında əlaqələrin əhəmiyyətindən danışıb.



Baş prokuror Zakir Qaralov Azərbaycanda prokurorluq orqanlarının fəaliyyəti, bu sahədə aparılan islahatlar, cinayətkarlıqla mübarizəyə dair görülən işlərdən bəhs edib.

Görüşdə ölkələrimizin prokurorluq orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğu bildirilib, bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinə dair səmərəli fikir mübadiləsi aparılıb.

Söhbət zamanı martın 17-də Qarsda TANAP-ın təməlqoyma mərasiminin keçirilməsi məmnunluqla xatırlanıb. Əminliklə qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi ilə Çanaqqala zəfərinin 100-cü ildönümü və Novruz bayramı ərəfəsində keçirilən bu tədbir ölkələrimizə və xalqlarımıza böyük fayda gətirəcək.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq qurumlarla əməkdaşlıq uğurla davam etdirilir

Martın 23-24-də Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 15-ci Monitorinq Görüşü keçirilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının OECD təşkilatının Antikorrupsiya Şəbəkəsi üzrə milli koordinatoru, Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Monitorinq görüşü zamanı OECD təşkilatı çərçivəsində Antikorrupsiya Şəbəkəsinə üzv olan bir sira dövlətlərin III raund qiymətləndirilməsinə dair hesabatların məruzəsi, ölkəmizin dövrü hesabatın dinlənilməsi, habelə Antikorrupsiya Şəbəkəsinin IV raund üzrə yeni proqramının müzakirəsi həyata keçirilmişdir.

Tədbirdə çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılan genişmiqyaslı tədbirlər, o cümlədən OECD təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində görülmüş işlər barədə ətraflı məlumat vermişdir. Tədbir çərçivəsində Antikorrupsiya Şəbəkəsinin IV raund üzrə yeni proqramının layihəsinə ölkəmiz üçün zəruri olan bir sıra məsələlər daxil edilmişdir.

Müzakirələr zamanı Azərbaycan Respublikasının ASAN xidmət mərkəzləri görüş iştirakçıları tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ən uğurlu layihələrdən biri kimi dəyərləndirilmişdir.

Martın 26-da Brüssel şəhərində Azərbaycan nümayəndə heyətinin Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa Bürosunun (OLAF) və Korrupsiyaya qarşı Avropa Tərəfdaşları (EPAC) təşkilatlarının rəhbəri Covanni Kessler ilə görüşü zamanı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin EPAC şəbəkəsinə qoşulmasına dair Baş prokuror Zakir Qaralovun müvafiq məktubu təqdim edilmişdir. Covanni Kessler Azərbaycan

Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nümayəndələrinin cari ilin sonunda keçiriləcək şəbəkənin illik iclasına dəvət olunmasını bildirmiş və Baş İdarənin şəbəkəyə tamhüquqlu üzv seçilməsinə ümidvar olduğunu qeyd etmişdir. Görüş zamanı, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin OLAF təşkilatı ilə əməkdaşlıq perspektivləri və digər zəruri məsələlər də müzakirə edilmişdir.

***

## Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı beynəlxalq tədbirlərdə iştirak etmişdir




Türkiyənin Böyük iyirmilərin sammitinə (G20) sədrliyi dövründə Azərbaycan Respublikası G20 tədbirlərinə dəvət olunmuşdur. Bununla bağlı martın 4-5-də İstanbul şəhərində şerpa (dövlət və hökumət başçılarının xüsusi nümayəndələri) istiqamətində Antikorrupsiya üzrə işçi qrupun ilk iclası keçirilmişdir.Tədbirdə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının qiymətləndirmə mexanizmləri, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlıq, dövlət və özəl sektorun şəffaflığı, yüksək riskə malik sektorlarda korrupsiyanın qarşısının alınması və digər məsələlər müzakirə edilmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev iclasda çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər barədə ətraflı məlumat vermişdir

Bundan başqa, Orxan İsayev martın 6-da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Türkiyə hökuməti tərəfindən təşkil edilmiş 5-ci konfransda, mart 26-27-də isə İzmir şəhərində ikinci şerpa iclasında da iştirak etmiş, müzakirə edilən məsələlərlə bağlı nümayəndələrlə fikir mübadiləsi aparmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 14-cü maddədə «sahibinin mülki məsuliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq sığorta etdirilmiş» sözləri «avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilmiş» sözləri ilə əvəz edilsin.

**2.** 27-ci maddənin I hissəsinin ikinci cümləsində «sahibinin mülki məsuliyyətinin icbari sığortasının» sözləri «avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortasının» sözləri ilə əvəz edilsin.

**3.** 30-cu maddənin VII hissəsinin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

**«5)** Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortasının «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilməsini təsdiq edən icbari sığorta şəhadətnaməsini.».

**4.** 37-ci maddənin I hissəsinin 1-ci bəndində «nəqliyyat vasitəsinin sahibinin mülki məsuliyyətinin icbari sığortası müqaviləsinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsini» sözləri «avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və sərnişin daşımaları xidmətini həyata keçirən avtonəqliyyat vasitələri ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası müqaviləsinin «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanmasını təsdiq edən icbari sığorta şəhadətnaməsini» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2014-cü il
№ 1138-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945; № 11, maddə 1049) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 31.5-ci maddədə «müddətləri və cədvəli» sözləri «müddətləri, cədvəli və bu Qanunun 31.6-cı maddəsində göstərilən sualların hazırlanmasında istifadə olunan hüquqi aktların və digər məlumat mənbələrinin siyahısı» sözləri ilə əvəz edilsin;

**2.** 31.6-cı maddənin ikinci cümləsində «qulluqçusunun» sözü «qulluqçusuna onun xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onun» sözləri ilə əvəz edilsin;

**3.** 31.16-cı maddəyə «bir nüsxədə» sözlərindən əvvəl «, habelə attestasiya zamanı verilən suallar və cavablar» sözləri əlavə edilsin;

**4.** Aşağıdakı məzmunda 31.22-ci maddə əlavə edilsin:

«**31.22.** Dövlət qulluqçusunun attestasiyasının keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1160-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I

kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, №1, maddə 14, №7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158; Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1115-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 102.1.21-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.22-ci maddə əlavə edilsin:

**«102.1.22.** yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsi.»;

**1.2.** 123.1-ci maddədə «əldə edilmişdirsə,» sözlərindən sonra «bu Məcəllənin 102.1.22-ci maddəsində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla» sözləri əlavə edilsin;

**1.3.** 161.1-ci maddədə «hər hansı rüsumlar, vergilər» sözləri «yol vergisi istisna olmaqla, digər vergilər, rüsumlar» sözləri ilə əvəz edilsin;

**1.4.** 162.1-ci maddəyə «ƏDV» sözündən sonra «və yol vergisi» sözləri əlavə edilsin;

**1.5.** 185-ci maddə üzrə:

**1.5.1.** 185.1-ci maddənin birinci cümləsindən «və tütün məmulatları» sözləri çıxarılsın, həmin cümlədə «aksiz» sözündən sonra «, yol vergisi» sözləri əlavə edilsin;

**1.5.2.** 185.2-ci maddənin birinci bəndində «üzən vasitələr» sözlərindən sonra «, habelə platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz» sözləri, «aksiz» sözündən sonra «, yol vergisi» sözləri əlavə edilsin;

**1.5.3.** 185.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü bənd əlavə edilsin:

«İdxal olunan platinə görə vergi tutulan əməliyyat platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə – qızılın min çəki vahidindəki miqdarı, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə – almazın karatıdır.»;

**1.6.** 188-ci maddə üzrə:

**1.6.1.** 188.1.1-ci maddədə «və 600 ədəd siqaretin» sözləri «, 600 ədəd siqaretin, 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın» sözləri ilə əvəz edilsin;

**1.6.2.** aşağıdakı məzmunda 188.1.5-ci maddə əlavə edilsin:

**«188.1.5.** Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirilmək üçün idxal olunan platin, qızıl və emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilmək üçün idxal olunan qızıl.»;

**1.7.** 190-cı maddə üzrə:

**1.7.1.** 190.1-ci maddənin beşinci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda altıncı bənd əlavə edilsin:

«– idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz.»;

**1.7.2.** 190.2-ci maddəyə «üzən vasitələr» sözlərindən sonra «, habelə platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz» sözləri əlavə edilsin;

**1.7.3.** 190.3.1-ci maddədə «0,8» rəqəmləri «2,0» rəqəmləri ilə, 190.3.2-ci maddədə «0,5» rəqəmləri «2,0» rəqəmləri ilə, 190.3.3-cü maddədə «0,2» rəqəmləri «6,0» rəqəmləri ilə, 190.3.4-cü maddədə «0,2» rəqəmləri «2,5» rəqəmləri ilə, 190.3.6-cı maddədə «0,08» rəqəmləri «0,2» rəqəmləri ilə əvəz edilsin;

**1.7.4.** 190.3.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«190.3.7.** siqarlar, ucları kəsilən siqarlar və siqarilla (nazik siqarlar) – 1000 ədədinə 10,0 manat;»;

**1.7.5.** aşağıdakı məzmunda 190.3.8-ci maddə əlavə edilsin:

**«190.3.8.** tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri – 1000 ədədinə 4,0 manat.»;

**1.7.6.** 190.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**«190.4.** Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə, habelə idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza aşağıdakı aksiz dərəcələri tətbiq edilir:

**190.4.1.** minik avtomobillərinə, istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə:

**190.4.3.3.** qızılın min çəki vahidindəki miqdarı 585 (beş yüz səksən beş) olduqda, hər qramına görə – 1,2 manat;

**190.4.3.4.** qızılın min çəki vahidindəki miqdarı 750 (yeddi yüz əlli) olduqda, hər qramına görə –1,5 manat;

**190.4.3.5.** qızılın min çəki vahidindəki miqdarı 958 (doqquz yüz əlli səkkiz) olduqda, hər qramına görə – 1,8 manat;

**190.4.3.6.** qızılın min çəki vahidindəki miqdarı 999 (doqquz yüz doxsan doqquz) olduqda, hər qramına görə – 2,0 manat;

**190.4.4.** idxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 200 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:

| Vergitutma obyektinin adı | Aksiz dərəcəsi |
|---|---|
| Minik avtomobilləri: | |
| – mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda | Mühərrikin həcminin hər kubsantimetrinə görə – 0,20 manat |
| – mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda | 400 manat + mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 1,5 manat |
| – mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda | 1900 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 4 manat |
| – mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda | 5900 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 8 manat |
| – mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda | 13900 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox olan hissəsi üçün hər kubsantimetrə görə – 10 manat |
| İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr | Mühərrikin həcminin hər kubsantimetrinə görə – 3 manat |

**190.4.2.** idxal olunan platinin hər qramına görə – 2,0 manat;

**190.4.3.** idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə:

**190.4.3.1.** qızılın min çəki vahidindəki miqdarı 375 (üç yüz yetmiş beş) olduqda, hər qramına görə – 0,8 manat;

**190.4.3.2.** qızılın min çəki vahidindəki miqdarı 500 (beş yüz) olduqda, hər qramına görə – 1,0 manat;

**190.4.4.1.** almazın bir ədədinin miqdarı 1 karatdan aşağı olduqda, aksiz dərəcəsi almazın faktiki miqdarına mütənasib olaraq azaldılır;

**190.4.4.2.** almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olduqda, aksizin məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır:

**190.4.4.2.1.** 1 karatdan 2 karatadək olduqda – 2,0;

**190.4.4.2.2.** 2 karatdan 3 karatadək olduqda – 3,0;

**190.4.4.2.3.** 3 karatdan 4 karatadək olduqda – 4,0;

**190.4.4.2.4.** 4 karatdan 5 karatadək olduqda – 5,0;

**190.4.4.2.5.** 5 karatdan yuxarı olduqda – 10,0.».

**1.8.** 199-cu maddə üzrə:

**1.8.1.** 199.4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

«**199.4.3.** mexaniki nəqliyyat vasitələrinin;»;

**1.8.2.** aşağıdakı məzmunda 199.10-cu maddə əlavə edilsin:

«**199.10.** Müəssisələrin balansında olan, sərnişin və yük daşımalarında istifadə edilən su nəqliyyatı vasitələrinə görə ödənilməli olan əmlak vergisinin məbləği 25 faiz azaldılır.»;

**1.9.** 209-cu maddənin mətni aşağıdakı redaksiyada verilsin:

«Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı və ya idxalı ilə məşğul olan şəxslər yol vergisinin ödəyiciləridir.»;

**1.10.** 210-cu maddənin mətni aşağıdakı redaksiyada verilsin:

«Azərbaycan Respublikasının ərazisinə daxil olan və Azərbaycan Respublikasının ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı olan xarici dövlətlərin avtonəqliyyat vasitələri, habelə Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qaz yol vergisinin vergitutma obyektidir.»;

**1.11.** 211-ci maddə üzrə:

**1.11.1.** 211.1-ci maddədə «daxil olan» sözlərindən sonra «və Azərbaycan Respublikasının ərazisini tərk edən» sözləri əlavə edilsin, «şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin mühərriklərinin həcmindən asılı olaraq avtonəqliyyat vasitələrindən vergi» sözləri «istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi» sözləri ilə əvəz edilsin;

**1.11.2.** 211.1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

«**211.1.2.** Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır.»;

**1.11.3.** aşağıdakı məzmunda 211.4-cü maddə əlavə edilsin:

«**211.4.** Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə hesablanmış yol vergisinə nəzarət dövlət vergi orqanları, Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisinin hesablanmasına və ödənilməsinə nəzarət isə gömrük orqanları tərəfindən həyata keçirilir.»;

**1.12.** 212-ci maddə üzrə:

**1.12.1.** 212.2-ci və 212.4-cü maddələr ləğv edilsin;

**1.12.2.** 212.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

«**212.3.** Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə yol vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.».

**Maddə 2.** Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1167-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701; 2014, № 6, maddə 620) aşağıdakı məzmunda 15-1-ci maddə əlavə edilsin:

**«Maddə 15-1. Azərbaycan Respublikası vətəndaşının andı**

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş və ya Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilmiş və 14 yaşı tamam olmuş şəxs Azərbaycan Respublikasının dövlət dilində Azərbaycan Respublikasına sadiq olacağı barədə aşağıdakı məzmunda and içir:

«Mən, (Soyadı, Adı, Atasının adı) Azərbaycan Respublikasının vətəndaşı olaraq, hər hansı xarici dövlət qarşısında onun vətəndaşlığı ilə bağlı öhdəliklərimin olmadığına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabe olacağıma, Azərbaycan dövlətinə sədaqətlə xidmət edəcəyimə, onun müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyacağıma, Azərbaycan xalqının adət-ənənələrinə və mədəniyyətinə hörmət edəcəyimə and içirəm.».

Andiçmə təntənəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı önündə Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir.

And içən Azərbaycan Respublikasının vətəndaşı andın mətnini imzalayır və bu sənəd müvafiq icra hakimiyyəti orqanında saxlanılır.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1161-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1000-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777) aşağıdakı məzmunda 9.3-cü maddə əlavə edilsin:

«**9.3.** Sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan bu Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş subyektlərlə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2014-cü il
№ 1131-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1001-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777) 2.0.3-cü və 2.0.6-cı maddələrində «almaq hüququ» sözləri «verilməli» sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1164-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6,

maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236; № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 15-ci maddə üzrə:

**1.1.** 15.3-cü maddənin ikinci cümləsinə «inzibati həbs» sözlərindən sonra «, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına isə həmçinin ictimai işlər və inzibati cərimə» sözləri əlavə edilsin;

**1.2.** 15.3-cü maddənin üçüncü cümləsi çıxarılsın;

**1.3.** «Qeyd» hissəsinin birinci abzasına (ikinci halda) «hərbi qulluqçuları» sözlərindən sonra «və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları» sözləri əlavə edilsin.

**2.** 28-1.3.5-ci maddəyə «hərbi qulluqçulara» sözlərindən sonra «və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına» sözləri əlavə edilsin.

**3.** 24-cü fəslin adına «uçot» sözündən sonra «, hərbi qeydiyyat və səfərbərlik» sözləri əlavə edilsin.

**4.** 349-cu, 350-ci, 351-ci, 354-cü və 355-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**«Maddə 349. Çağırışçılar və hərbi vəzifəlilər haqqında məlumatların vaxtında verilməməsi**

**349.1.** İlkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların siyahılarının çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunu aparan orqan və təşkilatlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə –

vəzifəli şəxslər iki yüz manat miqdarında, hüquqi şəxslər dörd yüz manat miqdarında cərimə edilir.

**349.2.** Çağırışçıların və hərbi vəzifəlilərin sağlamlıq imkanlarının məhdudluğunun və ya əlilliyinin müəyyən edilməsi, onların soyadının, adının, atasının adının dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatında doğum tarixi və yeri haqqında dəyişikliklər edilməsi, ölümünün qeydiyyatı, habelə onlar barəsində cinayət işinin başlanılması və ya məhkəmənin qanuni qüvvəyə minmiş hökmü barədə məlumatın müvafiq icra hakimiyyəti orqanına təqdim etməli olan aidiyyəti orqanlar tərəfindən müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə –

vəzifəli şəxslər yüz əlli manat miqdarında, hüquqi şəxslər üç yüz manat miqdarında cərimə edilir.

**349.3.** Bu Məcəllənin 349.1-ci və 349.2-ci maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyata alınması, hərbi qeydiyyatdan

çıxarılmasının rəsmiləşdirilməsi və ya hərbi qeydiyyat məlumatının dəqiqləşdirilməsi üçün tələb olunan məlumatları çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunu aparan orqan və təşkilatlar tərəfindən müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə –

vəzifəli şəxslər yüz manat miqdarında, hüquqi şəxslər iki yüz manat miqdarında cərimə edilir.

**Maddə 350. İlkin hərbi qeydiyyata alınmaqdan boyun qaçırma**

İlkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların qeydiyyata alınmaq üçün fərdi çağırış vərəqəsində göstərilmiş müddətdə üzrlü səbəblər olmadan müvafiq icra hakimiyyəti orqanına gəlməməsinə görə –

xəbərdarlıq edilir və ya otuz manat miqdarında cərimə edilir.

**Maddə 351. Çağırışçılara və hərbi vəzifəlilərə çağırış barədə məlumatın verilməməsi**

Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunu aparan orqan və təşkilatlar tərəfindən çağırışçılara və hərbi vəzifəlilərə onların müvafiq icra hakimiyyəti orqanına çağırılması barədə məlumatın verilməməsi, yaxud onların çağırış məntəqələrinə və ya toplanış yerinə vaxtında gəlməsinə maneçilik törədilməsinə görə –

vəzifəli şəxslər səksən manat miqdarında, hüquqi şəxslər iki yüz manat miqdarında cərimə edilir.

**Maddə 354. Hərbi qeydiyyat qaydalarının pozulması**

**354.1.** Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatını aparan orqanın vəzifəli şəxsi tərəfindən çağırışçılardan və hərbi vəzifəlilərdən «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmayan əlavə sənədlərin tələb edilməsinə, hərbi qeydiyyata alınma haqqında vəsiqəyə yanlış məlumatların daxil edilməsinə, onların hərbi qeydiyyata alınmasından, hərbi qeydiyyatdan çıxarılmasından və ya hərbi qeydiyyata alınma haqqında vəsiqənin verilməsindən əsassız imtina edilməsinə görə –

üç yüz manat miqdarında cərimə edilir.

**354.2.** Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyat üzrə «Hərbi vəzifə və hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş vəzifələrini icra etməməsinə, yəni:

**354.2.1.** hərbi vəzifəlilər ehtiyata keçirildikdən sonra 7 gün müddətində yaşayış yeri üzrə hərbi qeydiyyata alınmaq üçün müvafiq icra hakimiyyəti orqanına gəlməməsinə;

**354.2.2.** hərbi vəzifəlilər və çağırışçılar yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə, yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmamasına və olduğu yer üzrə hərbi qeydiyyata durmamasına;

**354.2.3.** hərbi vəzifəlilər və çağırışçılar yaşayış yerini dəyişərkən, 10 gün müddətində hərbi qeydiyyatda olduqları müvafiq icra hakimiyyəti orqanına məlumat verməməsinə görə –

xəbərdarlıq edilir və ya otuz manat miqdarında cərimə edilir.

**354.3.** Çağırışçıların və hərbi vəzifəlilərin bu Məcəllənin 350-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, qanunla nəzərdə tutulmuş hallarda çağırış üzrə müvafiq icra hakimiyyəti orqanına üzrlü səbəblər olmadan gəlməməsinə görə –

xəbərdarlıq edilir və ya əlli manat miqdarında cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 354.3-cü maddəsində göstərilən əməl növbəti hərbi çağırış və ya səfərbərlik üzrə çağırış ilə bağlı törədildikdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olur.

**Maddə 355. Hərbi qeydiyyat sənədlərinin qəsdən korlanması və ya itirilməsi**

Çağırışçılar və hərbi vəzifəlilər hərbi biletin və ya ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin qəsdən korlanılmasına və ya itirilməsinə görə –

xəbərdarlıq edilir və ya əlli manat miqdarında cərimə edilir.».

**5.** 352-ci və 353-cü maddələr ləğv edilsin.

**6.** 356-cı maddə üzrə:

**6.1.** 356.1-ci maddənin sanksiyasında «yetmiş manatdan doxsan manatadək miqdarda» sözləri «iki yüz qırx manat miqdarında» sözləri ilə əvəz edilsin;

**6.2.** 356.2-ci maddənin dispozisiyasında «Azərbaycan Respublikasının qanunvericiliyinə» sözləri «Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında» Azərbaycan Respublikasının Qanununa» sözləri ilə, sanksiyasında «səksən manatdan doxsan manatadək miqdarda» sözləri «iki yüz altmış manat miqdarında» sözləri ilə əvəz edilsin.

**7.** 356-1-ci maddə üzrə:

**7.1.** 356-1.1-ci maddənin sanksiyasında «otuz manatdan əlli manatadək miqdarda» sözləri «yüz iyirmi manat miqdarında» sözləri ilə, «altmış manatdan doxsan manatadək miqdarda» sözləri «iki yüz əlli manat miqdarında» sözləri ilə əvəz edilsin;

**7.2.** 356-1.2-ci maddənin dispozisiyasından «qanunvericiliklə nəzərdə tutulmuş» sözləri çıxarılsın, sanksiyasında «yetmiş manatdan doxsan manatadək miqdarda» sözləri «yüz səksən manat miqdarında» sözləri ilə, «yüz əlli manatdan iki yüz manatadək miqdarda» sözləri «iki yüz əlli manat miqdarında» sözləri ilə əvəz edilsin.

**8.** 360.1-ci maddədə «351 və 353.1-ci» sözləri «349, 351, 354.1, 356 və 356-1-ci» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2014-cü il
№ 1139-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «İcbari sığortalar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1000-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

«Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 569; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692; 2006, № 11, maddə 928; 2007, № 6, maddə 560; 2008, № 8, maddə 695, № 11, maddə 960; 2009, № 12, maddə 966; 2013, № 4, maddə 357; 2014, № 1, maddə 8, № 4, maddə 337) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

«Sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan bu Qanunun 6-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş dövlət orqanları ilə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz.».

**2.** 6-cı maddəyə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

«Sığortaçı sığorta ödənişini bu maddənin beşinci hissəsi ilə müəyyən edilmiş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2014-cü il
№ 1132-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanununu «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 995-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080; 2007, № 8, maddə 756; 2010, № 3, maddələr 171, 172; 2011, № 3, maddə 162, № 7, maddə 617; 2012, № 5, maddə 405, № 7, maddə 653) 38.2.8-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 38.2.9-cu maddə əlavə edilsin:

**«38.2.9.** maliyyə əməliyyatları barədə məlumatlar.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2014-cü il
№ 1140-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı maddə üzrə:

**1.1.** 6.2.6-cı və 6.2.8-ci maddələrdə «təyin etdiyi» sözləri «seçdiyi» sözü ilə əvəz edilsin;

**1.2.** 6.2.7-ci maddədə «Azərbaycan Respublikası Ali Məhkəməsinin təyin etdiyi» sözləri «Məhkəmə-Hüquq Şurasının seçdiyi» sözləri ilə əvəz edilsin;

**1.3.** 6.2.9-cu maddədə «Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının təyin etdiyi» sözləri «Məhkəmə-Hüquq Şurasının seçdiyi» sözləri ilə əvəz edilsin.

**2.** 11.0.4-cü maddədə «, apellyasiya məhkəmələrinin,» sözləri «və» sözü ilə əvəz edilsin, «, ağır cinayətlər məhkəmələrinin» sözləri isə çıxarılsın.

**3.** 12-ci maddə üzrə:

**3.1.** 12.0.4-cü maddənin əvvəlinə «hakimlərin iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, səlahiyyət müddətinin uzadılması,» sözləri əlavə edilsin, «, apellyasiya məhkəmələrinin,» sözləri «və» sözü ilə əvəz edilsin, «, ağır cinayətlər məhkəmələrinin» sözləri isə çıxarılsın;

**3.2.** Aşağıdakı məzmunda 12.0.6-1-ci maddə əlavə edilsin:

**«12.0.6-1.** məhkəmə hakimiyyətinin inkişafı sahəsində göstərdikləri xidmətə və səmərəli əməkdaşlığa görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələrini və ölkə vətəndaşlarını fəxri fərman və fəxri döş nişanı ilə təltif etmək.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1169-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

# «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 94-cü maddənin beşinci hissəsinin ikinci cümləsində «, apellyasiya məhkəmələrinin,» sözləri «və» sözü ilə əvəz edilsin, «, ağır cinayətlər məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası ağır cinayətlər məhkəməsinin» sözləri isə çıxarılsın.

**2.** 96-cı maddə üzrə:

**2.1.** birinci hissənin birinci cümləsində «beş» sözü «üç» sözü ilə əvəz edilsin, dördüncü cümləsində «həddinə» sözü «həddinədək» sözü ilə əvəz edilsin, «– 65 yaşınadək» sözləri və beşinci cümləsi çıxarılsın.

**2.2.** ikinci – dördüncü hissələr müvafiq olaraq üçüncü – beşinci hissələr hesab edilsin və maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

«Ali Məhkəmənin hakimləri üçün son yaş həddi 68, digər instansiya məhkəmələrinin hakimləri üçün 66 yaşdır.».

**3.** 110-cu maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 110. Hakimlərin həvəsləndirilməsi**

Hakimlər vəzifələrini nümunəvi yerinə yetirdikdə, uzun müddət və qüsursuz işlədikdə, habelə öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verdikdə Məhkəmə-Hüquq Şurası onlar barədə aşağıdakı həvəsləndirmə tədbirləri görür:

qiymətli hədiyyə ilə mükafatlandırmaq;

fəxri fərman ilə təltif etmək;

fəxri döş nişanı ilə təltif etmək;

hakimin təltif olunmasına dair müvafiq icra hakimiyyəti orqanına təklif vermək.».

**Maddə 2. Keçid müddəası:**

Bu Qanunun 1-ci maddəsinin 2-ci hissəsi 2015-ci ilin yanvar ayının 1-dək vəzifəyə təyin edilmiş hakimlərə şamil edilmir. Bu tarixədək hakim vəzifəsinə təyin edilmiş şəxslərə münasibətdə «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 96-cı maddəsinin birinci hissəsinin bu dəyişikliklərdən əvvəlki redaksiyası tətbiq olunur.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2014-cü il
№ 1168-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Əmək Məcəlləsini «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339; Azərbaycan Respublikasının 2014-cü il 28 noyabr tarixli 1117-IVQD nömrəli və 30 dekabr tarixli 1165-IVQD nömrəli qanunları) 179-cu maddəsinin 2-ci hissəsinin «c» yarımbəndindən «andlılar,» sözü çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1188-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1042-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993,

994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236, № 4, maddələr 326, 345, № 5, maddə 466, № 6, maddələr 599, 619, 621, № 7, maddələr 765, 776, 781, № 10, maddə 1147, № 11, maddə 1363; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1139-IVQD nömrəli, 30 dekabr tarixli 1162-IVQD nömrəli qanunları) 318.1-ci maddəsindən «və ya bu orqanın vəzifəli şəxsləri tərəfindən öz səlahiyyətləri daxilində qəbul etdikləri digər qərarların» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1206-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikasının Qanununu «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 569; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692; 2006, № 11, maddə 928; 2007, № 6, maddə 560; 2008, № 8, maddə 695, № 11, maddə 960; 2009, № 12, maddə 966; 2013, № 4, maddə 357; 2014, № 1, maddə 8, № 4, maddə 337; Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1132-IVQD nömrəli Qanunu) 2-ci maddəsindən «andlı iclasçılar,» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1189-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununu «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 57; 2001, № 11, maddə 683, № 12, maddə 736; 2007, № 7, maddə 712; 2008, № 8, maddə 695; 2009, № 12, maddə 966; 2011, № 6, maddə 475; 2012, № 6, maddə 520, № 11, maddə 1043) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü maddənin birinci hissəsinin 1-ci bəndindən «, andlı iclasçılar» sözləri çıxarılsın.

**2.** 12-ci maddənin birinci hissəsinin 3-cü bəndindən «, andlı iclasçıların» sözləri, ikinci hissəsinin 1-ci bəndindən «andlı iclasçılar,» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1187-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununu «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12, maddə 1089; 2013, № 11, maddə 1318; 2014, № 1, maddə 9, № 7, maddə 777) 3.1.1-ci maddəsindən «və andlı iclasçılar» sözləri çıxarılsın.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1195-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621) 56-cı maddəsinin 2-ci hissəsinin dördüncü cümləsinə «torpağın ayrılması» sözlərindən sonra «, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri yerinə yetirmək məqsədi ilə torpağın dövlət mülkiyyətinə və ya icarəsinə verilməsi» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 fevral 2015-ci il
№ 1182-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddə 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 139-1.1.5-ci maddədə «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək» sözləri «2006-cı il iyulun 6-dək» sözləri ilə əvəz edilsin.

**2.** 139-1.1.7-ci maddəyə «orderlər» sözündən sonra «, kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının üzvlərinin siyahısına müvafiq olaraq verilmiş üzvlük kitabçası və ya üzvlərin iclasının protokolundan çıxarış» sözləri əlavə edilsin.

**3.** 139-1.1.8-ci maddədə «obyektlərinin qanuni istifadədə olmasına dair» sözləri «obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən» sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 139-1.1.9-cu, 139-1.1.10-cu, 139-1.1.11-ci və 139-1.1.12-ci maddələr əlavə edilsin:

**«139-1.1.9.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə minənədək (2013-cü il yanvarın 1-dək) inşa edilmiş tikililərə dair:

**139-1.1.9.1.** hündürlüyü 12 metrədək olan yaşayış evlərinə münasibətdə — torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə və ya yaşayış evinin istismara qəbul aktı;

**139-1.1.9.2.** çoxmənzilli binalara, qeyri-yaşayış binalarına və hündürlüyü 12 metrdən çox olan yaşayış evlərinə münasibətdə – torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı, istismara qəbul aktı;

**139-1.1.10.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə mindikdən (2013-cü il yanvarın 1-dən) sonra inşa edilən tikililərə dair:

**139-1.1.10.1.** tikintisinə icazə tələb olunan tikinti obyektləri üçün – torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikintiyə icazə verilməsi barədə qərar, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti obyektinin istismarına icazə;

**139-1.1.10.2.** məlumatlandırma icraatının tətbiq edildiyi yaşayış evləri üçün – torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, sifarişçi tərəfindən tikinti başa çatdıqdan sonra müvafiq icra hakimiyyəti orqanına məlumat verilməsini təsdiq edən sənəd;

**139-1.1.11.** Azərbaycan Respublikasının Mənzil Məcəlləsi qüvvəyə minənədək (2009-cu il oktyabrın 1-dək) dövlət və ya ictimai mənzil fondundan yaşayış sahəsinin verilməsinə dair müvafiq icra hakimiyyəti orqanının sərəncamı, order və ya mənzil kirayəsi müqaviləsi;

**139-1.1.12.** 2006-cı il iyulun 6-dan 2009-cu il iyunun 24-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən daşınmaz əmlaka dair verilmiş şəhadətnamələr.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 fevral 2015-ci il
№ 1197-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744; 2000, № 1, maddə 34; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2006, № 7, maddələr 590, 593; 2009, № 11, maddə 888; 2010, № 7, maddə 610) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Birinci abzasda «90-cı maddəsində» sözləri «90-cı maddəsinin beşinci hissəsində» sözləri ilə, «108, 117, 118, 119 və 120-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının» sözləri «108-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının» sözləri ilə əvəz edilsin.

**2.** İkinci abzasda «90-cı maddəsində» sözləri «90-cı maddəsinin beşinci hissəsində» sözləri ilə əvəz edilsin.

**3.** İkinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda üçüncü və dördüncü abzaslar əlavə edilsin:

«həmin Qanunun 90-cı maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

həmin Qanunun 113-cü maddəsinin üçüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-Sosial Ekspert Komissiyası həyata keçirir.».

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 13 yanvar 2015-ci il.
№ 440

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

17 dekabr 2014-cü il — Bakı şəhəri

# Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinin şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Teymur Ocaqverdovun,

maraqlı subyektlərin nümayəndələri Quba rayon Məhkəməsinin hakimi Zamin Tahirovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin sektor müdiri Fuad Məmmədovun,

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi Mirzəli Abbasovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 398.1.4, 407.2 və 412.7-ci maddələrinin şərh edilməsinə dair Quba rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Quba rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 398.1.4, 407.2 və 412.7-ci maddələrinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 66.5, 67.1 və 18.1-ci maddələri, Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci və 83.1-ci maddələrinin şərh edilməsinə dair» 2010-cu il 6 sentyabr tarixli və «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinin şərh edilməsinə dair» 2012-ci il 22 fevral tarixli qərarlarına münasibətdə şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, Qusar rayon Məhkəməsinin 24 iyul 2013-cü il tarixli hökmü ilə O.Xasiyev Cinayət Məcəlləsinin 177.2.2, 177.2.3 və 177.2.4-cü maddələri ilə təqsirli bilinərək, 4.000 manat cərimə cəzasına məhkum edilmişdir.

Həmin hökm Sumqayıt Apellyasiya Məhkəməsinin 4 oktyabr 2013-cü il tarixli qərarı ilə dəyişdirilərək, O.Xasiyevə 3 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən üzərində 2 il 7 ay 1 gün azadlıqdan məhrum etmə cəzası saxlanılmış və həmin cəza Cinayət Məcəlləsinin 70-ci maddəsinə əsasən 2 il sınaq müddəti ilə şərti hesab edilmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsinin həmin qərarı Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 1 aprel 2014-cü il tarixli qərarı ilə ləğv edilmiş və cinayət işi yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılmışdır. Apellyasiya instansiyası məhkəməsinin 10 iyun 2014-cü il tarixli qərarı ilə Qusar rayon Məhkəməsinin 24 iyul 2013-cü il tarixli hökmü dəyişdirilmiş, O.Xasiyevə təyin edilmiş 4.000 manat məbləğində cərimə cəzası 3 il müddətinə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmiş, Cinayət Məcəlləsinin 69.3-cü maddəsinə əsasən üzərində 2 il 8 ay 1 gün azadlıqdan məhrum etmə cəzası saxlanılmış və həmin qərar qanuni qüvvəyə minmişdir.

Müraciətdə həmçinin göstərilir ki, Quba rayon Məhkəməsinin icraatında olan iş üzrə O.Xasiyevin Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə ittiham olunduğu cinayət 18 mart 2014-cü il tarixində, yəni barəsində Sumqayıt Apellyasiya Məhkəməsinin 4

oktyabr 2013-cü il tarixli qərarı qüvvədə olduğu vaxt törədilmişdir.

Müraciət edən hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qərarı qüvvədə olduğu müddətdə şəxsin yeni cinayət əməli törətməsi, həmin qərar ləğv olunduqdan və şəxs barəsində apellyasiya instansiyası məhkəməsinin yeni qərarı qəbul edildikdən sonra həmin şəxsə cinayətlərin məcmusu və ya hökmlərin məcmusu qaydasında cəza təyin edilməsi məsələsi qanunda birbaşa göstərilmədiyindən, məhkəmə təcrübəsində müxtəlif yanaşmalara səbəb olur.

Müraciət edən icraatında olan işdə apellyasiya instansiyası məhkəməsinin 4 oktyabr 2013-cü il tarixli qərarı qanuni qüvvəyə mindikdən sonra şəxsin cinayət əməli törətməsi, həmin qərar ləğv olunub, apellyasiya məhkəməsinin yeni qərarı çıxarıldıqdan sonra, şəxsin əməlinin residiv yaradıb-yaratmaması və bu zaman apellyasiya məhkəməsinin qərarının Cinayət Məcəlləsinin 18.1-ci maddəsində göstərilən ittiham hökmünü ehtiva edib-etməməsinin aydın olmadığını bildirir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Müraciətdə qaldırılan məsələlər faktiki olaraq apellyasiya instansiyası məhkəməsinin qərarından sonra yeni cinayət törətmiş şəxsə həmin qərar sonradan ləğv olunduğu halda, cinayətlərin məcmusu və ya hökmlərin məcmusu qaydasında cəza təyin edilməsi və onun əməlinin residiv yaradıb-yaratmaması ilə əlaqədardır.

Cinayətlərin məcmusu və onların residivi mürəkkəb sosial-hüquqi hadisə olmaqla təqsirləndirilən şəxsin ictimai təhlükəliliyinin artmasına, hətta bu şəxsin kriminal peşəkarlığına və təşkilatçılığına dəlalət edir. Məhz bu səbəbdən cinayət qanunvericiliyi mürəkkəb cinayətlərə hüquqi qiymət verilərkən daha sərt cəzaların təyin olunmasını müəyyən etməklə, sosial ədalətin bərpası və cəzanın məqsədinə nail olunmasını rəhbər tutmuşdur.

Cinayətlərin məcmusunun anlayışı və buna görə cəzanın təyin edilməsi qaydası Cinayət Məcəlləsinin 17.1 və 66-cı maddələrində nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır (Cinayət Məcəlləsinin 17.1-ci maddəsi).

Həmin Məcəllənin 66.1-ci maddəsinə müvafiq olaraq cinayətlərin məcmusu üzrə məhkəmə hər bir cinayətə görə ayrılıqda cəza təyin edərək, az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə və ya təyin olunmuş cəzaları tamamilə və ya qismən toplamaq yolu ilə qəti cəza təyin edir.

Cinayət Məcəlləsində cəzaların məcmusu üzrə cəzanın təyin olunmasının iki prinsipi öz əksini tapmışdır: əhatə etmək (əvəzləmək) və toplamaq (tamamilə və ya qismən) prinsipləri. Qanunverici hər bir cinayətə görə ayrılıqda cinayətlərin məcmusu üzrə bir qəti cəzanın təyin edilməsini müəyyən etmişdir.

Bununla yanaşı, qanunverici cinayət işi üzrə hökm çıxarıldıqdan sonra, məhkumun hökm çıxarılmazdan əvvəl başqa cinayəti törətməkdə təqsirli olduğu müəyyən edildiyi halda cəzanın təyin edilməsi qaydasını da nəzərdə tutmuşdur. Cinayət Məcəlləsinin 66.5-ci maddəsinə əsasən cinayət işi üzrə hökm çıxarıldıqdan sonra, məhkumun birinci iş üzrə hökm çıxarılmazdan əvvəl törədilmiş başqa cinayətdə də təqsirli olduğu müəyyən olunarsa, ona eyni qaydalar üzrə cəza təyin edilir.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinin şərh edilməsinə dair» 2012-ci il 22 fevral tarixli Qərarında göstərilir ki, cinayət hüququnda «məhkum» anlayışı qanuni qüvvəyə minmiş hökmə əsasən təqsirli bilinmiş şəxsi ehtiva etdiyindən, Cinayət Məcəlləsinin 66.5-ci maddəsində birinci iş üzrə qanuni qüvvəyə minmiş hökm nəzərdə tutulur.

Digər tərəfdən, qanunverici cəzasını tam çəkmədən Cinayət Məcəlləsinin 18.1-ci maddəsi baxımından residiv etmiş məhkumun yüksək təhlükəli olmasını, eləcə də əvvəlki iş üzrə təyin edilmiş cəzanın onun tərəfindən yeni cinayət törədilməsinin qarşısını almağa kifayət etməməsini nəzərə alaraq, şəxsə cəzanın artıq hökmlərin məcmusu üzrə təyin edilməsini müəyyən etmişdir. Belə ki, Cinayət Məcəlləsinin 67.1-ci maddəsinə əsasən hökmlərin məcmusu üzrə cəza təyin edilərkən, məhkəmə yeni hökm üzrə təyin edilmiş cəzaya əvvəlki hökm üzrə təyin edilmiş cəzanın çəkilməmiş hissəsini tamamilə və ya qismən birləşdirir.

Cinayət qanunvericiliyinin qeyd olunan normalarından aydın olur ki, cinayətlərin məcmusu üzrə cəza ilkin mühakimədən əvvəl törədilmiş cinayətlərə, hökmlərin məcmusu üzrə cəza isə qanuni qüvvəyə minmiş hökmlə məhkum edilmiş şəxs tərəfindən yeni cinayət törədilməsi hallarına tətbiq edilir. Göründüyü kimi, qanunverici məcmu halında cəzanın təyin edilməsində fərqləndirməni cinayətlərin törədilməsi zamanı ilə əlaqələndirmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələnin düzgün həll edilməsi məqsədilə məhkəmə hökmünün və qərarının qüvvəyə minməsi qaydasının açıqlanmasını zəruri hesab edir.

Cinayət-Prosessual Məcəlləsinin 358.2-ci maddəsinə görə birinci instansiya məhkəməsinin hökm və ya qərarından apellyasiya qaydasında protest və ya şikayət verilməmişsə, 20 (iyirmi) gün müddətindən sonra qanuni qüvvəyə minir. Eyni zamanda, Cinayət-Prosessual Məcəlləsinin 389.1-ci maddəsinə əsasən birinci instansiya məhkəməsinin hökm və ya qərarından apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi onların qanuni qüvvəyə minməsini dayandırır. Apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir (Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsi). Həmin Məcəllənin 412.7-ci maddəsinə əsasən məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarından kassasiya şikayəti, yaxud kassasiya protestinin verilməsi onların icrasını dayandırmır.

Beləliklə, Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan qanuni qüvvəyə mindiyindən, həmin qərardan sonra cinayət törətmiş şəxsə hökmlərin məcmusu üzrə qəti cəza təyin edilməlidir.

Bununla yanaşı qeyd olunmalıdır ki, apellyasiya instansiyası məhkəməsinin qərarı qüvvədə olduğu vaxt cinayət törətmiş şəxsə, həmin qərar kassasiya instansiyası məhkəməsi tərəfindən maddi və ya prosessual əsaslarla ləğv edildiyi halda və mahiyyət etibarilə şəxsə bəraət verilmədiyi və ya onun tərəfindən cinayətin törədilməsi faktı inkar edilmədiyi təqdirdə, hökmlərin məcmusu üzrə cəza təyin olunmalıdır. Göründüyü kimi, hökmlərin məcmusu üzrə cəzanın təyin edilməsinin əsas şərti qanuni qüvvəyə minmiş hökmlə məhkum edilmiş şəxs tərəfindən yeni cinayətin törədilməsidir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, Cinayət Məcəlləsinin 18.1-ci maddəsinə əsasən qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətlərin residivini yaradır. Həmin Məcəllənin 83.1-ci maddəsinə əsasən cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18-ci və 83.1-ci maddələrinin şərh edilməsinə dair» 2010-cu il 6 sentyabr tarixli Qərarına əsasən Cinayət Məcəlləsinin 18.1-ci maddəsinin «məhkum olunmuş şəxs» müddəası həmin Məcəllənin 83.1-ci maddəsinə uyğun olaraq barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü, ödənilməmiş və ya götürülməmiş məhkumluğu olan şəxsi ehtiva edir. Yenidən qəsdən cinayət törədilən anda şəxsin üzərində ödənilməmiş və ya götürülməmiş məhkumluğun olması, cinayət prosesinin sonrakı mərhələsində məhkumluğun ödənilib-ödənilməməsindən asılı olmayaraq, həmin şəxsə qanunla müəyyən olunmuş hallarda residivə görə cəza təyin edilməsinə mane olmur.

Göründüyü kimi, residivin əsas elementlərindən biri əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsidir. «Məhkum olunmuş şəxs» isə barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olan şəxs hesab edilir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə mindiyindən, həmin qərardan sonra şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətlərin residivini yaradır və həmin şəxsə hökmlərin məcmusu üzrə qəti cəza təyin edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 407.2-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsinin yekun qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə mindiyindən, həmin qərardan sonra şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətlərin residivini yaradır və həmin şəxsə hökmlərin məcmusu üzrə qəti cəza təyin edilməlidir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

16 dekabr 2014-cü il Bakı şəhəri

# Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.1 və 228.2-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinin şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Suraxanı rayon Məhkəməsinin hakimi Ceyhun Qədimovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin baş məsləhətçisi Məhəmməd Bazıqovun,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sərvər Süleymanlının,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyevin və Bakı Apellyasiya Məhkəməsinin hakimi Raqib Qurbanovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Suraxanı rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.1 və 228.2-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Suraxanı rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 228.1 və 228.2-ci maddələrinin və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin (bundan sonra – Mənzil Məcəlləsi) 30.1 və 30.2-ci maddələrinin şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, Ş.Güləliyev M.Güləliyevə və T.Güləliyevaya qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, M.Güləliyevə 5.000 manat məbləğində kompensasiya verilməklə, T.Güləliyevaya isə kompensasiya verilmədən mənzildən istifadə hüquqlarına xitam verilməsinə və cavabdehlərin həmin mənzildən çıxarılmalarına dair qətnamə qəbul olunmasını xahiş etmişdir.

Suraxanı rayon Məhkəməsi işə baxarkən belə qənaətə gəlmişdir ki, cavabdehlərin mübahisəli mənzildən istifadə hüquqlarına xitam verilməsinin mümkünlüyü məsələsinə qiymət verilməzdən əvvəl, onların həmin yaşayış sahəsinə münasibətdə istifadə hüquqlarının mövcud olub-olmaması məsələsi araşdırılmalıdır. Belə ki, hüquq mövcud olmadığı halda ona xitam verilməsi məsələsindən də söhbət gedə bilməz.

Müraciətdən görünür ki, M.Güləliyevin iddiaçının ailə üzvü olaraq mübahisəli mənzildən istifadə hüququ 1 oktyabr 2009-cu il tarixinədək qüvvədə olmuş Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə əsasən yaranmışdır. T.Güləliyeva isə müvafiq mənzilə 2011-ci ildə, yəni həm 1 sentyabr 2000-ci ildən etibarən qüvvədə olan Mülki Məcəllə, həm də 1 oktyabr 2009-cu ildən etibarən qüvvədə olan Mənzil Məcəlləsi qüvvədə olduqları vaxtda köçmüşdür.

Müraciət edən Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinin məzmununu açıqlayaraq hesab

edir ki, müvafiq şəxslər hətta mülkiyyətçinin ailə üzvləri kimi yaşayış sahəsinə köçürülmüş olsalar da, onların mülkiyyətçinin ailə üzvü hesab edilməsi mütləq deyil. Həmçinin qanunverici müvafiq məsələnin həlli zamanı hansı meyarların əsas götürülməli olduğunu müəyyən etməmişdir. Mənzil Məcəlləsinin 30.1-ci maddəsində «digər qohumlar» ifadəsinin mülkiyyətçinin yalnız qan qohumlarını və ya sonradan yaranmış qohumluq münasibətləri üzrə qohumlarını da ehtiva etdiyi aydın deyildir.

Müraciətdə həmçinin qeyd olunur ki, Mənzil Məcəlləsində Mülki Məcəllənin 228-ci maddəsinin müddəalarından fərqli olaraq, yaşayış sahəsinə istifadə hüququnun əmələ gəlməsi üçün mülkiyyətçi ilə notariat qaydasında təsdiqlənən yazılı razılaşmanın olması və istifadə hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması nəzərdə tutulmur.

Hər iki Məcəllənin qüvvədə olduğunu nəzərə alaraq Suraxanı rayon Məhkəməsi hesab edir ki, Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinə əsasən əmələ gələn istifadə hüququ ilə bağlı notariat qaydasında təsdiqlənən yazılı razılaşmanın olmasının, habelə müvafiq hüququn daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasının zəruriliyi məsələsinin şərh edilməsinə ehtiyac yaranmışdır.

Müraciət edən habelə qeyd edir ki, Mənzil Məcəlləsində mülkiyyətçinin ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna xitam verilməsinin mümkünlüyü birbaşa təsbit edilməsə də, buna qadağa da qoyulmur. Həmçinin mülkiyyətçinin ailə üzvünün yaşayış sahəsindən istifadə hüququna kompensasiya verilməklə xitam verilməsi də Mənzil Məcəlləsində qadağan edilməmişdir.

Müraciətdə qaldırılan məsələlər faktiki olaraq şəxsin yaşayış sahəsinə Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 29-cu maddəsində təsbit olunmuş mülkiyyət hüququnun həyata keçirilməsinin hədləri, habelə mülkiyyətçinin ailə üzvlərinin onun yaşayış sahəsindən istifadə etmək hüququnun yaranmasının hüquqi əsasları ilə bağlıdır.

Bu məsələlərin araşdırılması üçün Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, mülkiyyət hüququna mümkün məhdudiyyətlərin hədlərini nəzərdən keçirməyi vacib hesab edir.

Konstitusiyanın 29-cu maddəsinə əsasən hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Mülkiyyət hüququnun məzmunu Konstitusiyanın 13-cü maddəsinin müddəaları nəzərə alınmaqla başa düşülməlidir. Vətəndaş cəmiyyətinin mühüm institutu olan mülkiyyət iqtisadiyyatın inkişafının əsasını təşkil edən ən vacib amillərdən biridir. Buna görə də mülkiyyət konstitusiyanın 13-cü maddəsi ilə toxunulmaz elan olunaraq dövlət tərəfindən qorunur. Mülkiyyət hüququ isə cəmiyyətdəki hər bir fərdin azadlığının əsası kimi çıxış edir, şəxsiyyətin inkişafı üçün zəruri şərtdir.

Bununla belə, qeyd olunan hüququn əhəmiyyətinə baxmayaraq, o mütləq deyil və məhdudlaşdırıla bilər. Nəzərə almaq lazımdır ki, mülkiyyət insanın xüsusi maraqlarının həyata keçirilməsində vacib funksiya daşımaqla yanaşı, Konstitusiyanın 15-ci maddəsinin məzmununa əsasən, sosial yönümlü dövlətdə həm də mühüm sosial funksiyaya malikdir. (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.1 və 107-5.1-ci maddələrinin şərh edilməsinə dair» 2011-ci il 16 dekabr tarixli Qərarı).

Burada həmçinin nəzərə almaq lazımdır ki, Konstitusiyada mülkiyyət hüququ təsbit edilməklə yanaşı, onun ümumi və xüsusi məhdudiyyətlərinin hədləri də müəyyən olunmuşdur (Konstitusiyanın 13-cü maddəsinin III hissəsi, 29-cu maddəsinin II hissəsi və 71-ci maddəsinin II hissəsi, «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3.3-cü maddəsi).

Belə ki, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusion hüququn mahiyyətini dəyişməməlidir.

Bu cür məhdudiyyətin mümkünlüyü və onun xarakteri layiqli həyat səviyyəsi də daxil olmaqla konstitusion əhəmiyyətli dəyərlərin müdafiəsi ilə

şərtləndirilməlidir... Vətəndaşın sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısı dövlətin sosial sahədə konstitusion məqsədləri sırasında göstərilməsi və Konstitusiyada heç kəsin yaşadığı mənzildən qanunsuz məhrum olunmasının mümkünsüzlüyünün müəyyən edilməsi mənzil münasibətləri sahəsində dövlətin siyasətinin vacibliyinə və konstitusiya əhəmiyyətli olduğuna dəlalət edir. Buna görə, konstitusiya əsasları olan dövlətin mənzil siyasəti üzrə qəbul edilən qərarlar Konstitusiyadan irəli gələn şərtlərə riayət olunmaqla, mülkiyyət hüququnun məhdudlaşdırılması üçün əsas kimi çıxış edə bilər. Lakin hər bir halda belə məhdudiyyət qarşıya qoyulmuş məqsədə ağlabatan şəkildə mütənasib olmaqla mülkiyyətçinin üzərinə fərdi və həddən artıq yük qoymamalıdır. (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikası Qanununun 1-ci, 5-ci və 12-ci maddələrinin şərh edilməsinə dair» 2012-ci il 21 dekabr tarixli Qərarı).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsində təsbit olunan mülkiyyət hüququ üzrə oxşar hüquqi mövqelər ifadə etmişdir. Belə ki, Məhkəmənin presedent hüququna əsasən, 1 saylı Protokolun 1-ci maddəsinin birinci və ən mühüm tələbi ondan ibarətdir ki, mülkiyyətdən maneəsiz istifadə hüququna dövlət hakimiyyəti orqanı tərəfindən edilən istənilən müdaxilə qanuni olmalıdır. Qanunilik prinsipi onu da nəzərdə tutur ki, daxili qanunvericiliyin tətbiq edilə bilən normaları kifayət qədər əlçatan, dəqiq olsun və tətbiq edilərkən onların nəticələrini öncədən görmək mümkün olsun. Konvensiya tərəfindən tanınan hüququn və ya azadlığın həyata keçirilməsinə hər hansı müdaxilə legitim məqsəd daşımalıdır. 1 saylı Protokolun 1-ci maddəsinə xas olan «ədalətli balans» prinsipi özlüyündə cəmiyyətin ümumi marağının mövcudluğunu nəzərdə tutur. Mülkiyyətdən maneəsiz istifadə etmək hüququna müdaxilə zamanı cəmiyyətin ümumi maraqları ilə fərdin əsas hüquqlarının müdafiəsi tələbləri arasında «ədalətli balans» gözlənilməlidir. Konkret olaraq, dövlət istənilən tədbiri tətbiq edərkən, ... tətbiq edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi olmalıdır. (Broniovski Polşaya qarşı iş üzrə Böyük Palatanın 2004-cü il 22 iyun tarixli Qərarı, §147-148, 150; Skordino İtaliyaya qarşı iş üzrə Böyük Palatanın 2006-cı il 29 mart tarixli Qərarı, § 93).

Bu hüquqi mövqelərə əsaslanaraq qeyd olunmalıdır ki, yaşayış sahəsinə mülkiyyət hüququnun qanunverici tərəfindən tənzimlənməsi yaşayış sahəsinin mülkiyyətçisinin ailə üzvləri də daxil olmaqla müvafiq hüquq münasibətlərinin bütün iştirakçılarının hüquq və maraqlarının ədalətli və ağlabatan tarazlığı əsasında həyata keçirilməlidir. Bu konstitusion məqsədə çatmaq üçün belə tənzimləmə həm də məhkəmələr tərəfindən konkret işin faktiki hallarının müəyyənləşdirilməsi və araşdırılması, bu halların əsasında yaranan və ya yarana biləcək müxtəlif halların nəzərə alınması və nəticə etibarilə konstitusiya hüquq və azadlıqlarının əsassız və həddən artıq məhdudlaşdırılmaması məqsədilə differensasiyalaşdırılmış (fərqli) yanaşmanın tətbiq edilməsini mümkün etməlidir. Bundan əlavə, müvafiq hüquq münasibətlərinin iştirakçılarının maraqlarının ədalətli və ağlabatan tarazlaşdırılması qüvvədə olan hüquqi tənzimetmə sisteminin əsasında, bütün hüquq sahələrinin normaları nəzərə alınmaqla həyata keçirilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.4-cü maddələrinin şərh edilməsinə dair» 2013-cü il 8 oktyabr tarixli Qərarı).

Bu məqsədlərə nail olmaq üçün yaşayış sahəsinin mülkiyyətçisi və onun ailə üzvləri arasında həmin yaşayış sahəsinə dair qarşılıqlı hüquq və vəzifələrin həcmini müəyyən edən hüquqi əsasları, o cümlədən ailə üzvlərinin yaşayış sahəsindən istifadə etmək hüququnun yaranması əsaslarını müəyyən etmək vacibdir.

Müraciətdə qaldırılan məsələlər kontekstində qeyd olunmalıdır ki, yaşayış sahəsindən istifadə etmək hüququnun yaranmasının bir neçə əsası ola bilər (məsələn, əşya hüququnun, mülkiyyətçi və digər şəxslər arasında müqavilə münasibətlərinin, ailə münasibətlərinin mövcudluğu).

Bu mənada qeyd edilməlidir ki, Mülki Məcəllədə «istifadə» sözü mahiyyətcə müxtəlif institutlarla bağlı müddəalarda geniş şəkildə işlədilmişdir. Məsələn, Mülki Məcəllənin əşya hüququ olan mülkiyyət hüququ anlayışının izahı ilə bağlı 152-ci maddəsində, 11-ci Fəslinin servitut və uzufrukt ilə bağlı müddəalarında, habelə öhdəlik hüququna aid olan 33-

cü Fəslində kirayə və 36-cı Fəslində əvəzsiz istifadə müqaviləsi ilə bağlı müddəalarda da bu anlayışa rast gəlinir.

İstifadə hüququ öz-özlüyündə konkret hüququn əşya və yaxud öhdəlik hüququna aid edilməsini müəyyənləşdirmir. Hüquqi mahiyyəti baxımından bir-birindən çox fərqli olmalarına baxmayaraq, belə hüquqların ortaq cəhəti ondan ibarətdir ki, «istifadə» sözünün işlədilməsi yalnız əşyadan öz sahibinin istifadə etmək səlahiyyətini təmin edir. Lakin bu hüquqların məzmunundan görünür ki, onlardan hər birinin əşyadan istifadə etmək imkanını təmin etməsi şərtləri, istifadənin həcmi, istifadənin hüquqi baxımdan yaranması və ona xitam verilməsi ilə bağlı qayda və şərtlər, başqa sözlə istifadə səlahiyyətinin hüquqi rejimi bir-birindən fərqlidir.

Buna görə, bu hüquqlar öz sahiblərinin əşyadan istifadə etmək səlahiyyətlərini təmin etsələr də, bu imkanı təmin edən əmlak hüquqlarının heç birini «istifadə hüququ» adlandırmaq olmaz. Əks halda əmlak hüquqlarının adlarının əsas funksiyası olan fərqləndirmə və müəyyən etmə xüsusiyyəti aradan qalxmış olar. Belə olan halda isə hansı hüququn nəzərdə tutulduğunu müəyyən etmək mümkün olmaz. Nəticə etibarilə, mülki qanunvericilikdə «istifadə hüququ» ifadəsi əmlak hüquqlarının hər hansı bir növünü deyil, müəyyən bir hüququn həyata keçirilmə şəklini (formasını) ifadə edir.

Buna müvafiq olaraq qeyd edilməlidir ki, Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrində nəzərdə tutulan yaşayış binasının tərkib hissəsindən «istifadə hüququ»nun mahiyyəti və həcmi Mənzil Məcəlləsinin 30.2-ci maddəsində nəzərdə tutulan yaşayış sahəsindən «istifadə etmək hüququ»nun mahiyyəti və həcmindən fərqlidir. Hər iki Məcəllədə yaşayış sahəsindən istifadə etmək imkanı nəzərdə tutulsa da, bu istifadəni təmin edən hüquqi əsaslar fərqlidir.

Mülki Məcəllənin 228-ci maddəsinin məzmunundan məlum olur ki, həmin maddədə yaşayış binasının tərkib hissəsindən istifadə etmək səlahiyyətini təmin edən hüquq, mülki qanunvericilikdə məhdud əşya hüquqlarına dair nəzərdə tutulan bütün xüsusiyyətləri özündə əks etdirdiyinə görə, məhdud əşya hüququdur. Belə ki, daşınmaz əşyalar üzərində mülkiyyət hüququnun yüklü hala gəlməsinə səbəb olan məhdud əşya hüquqları, bir qayda olaraq, sözügedən daşınmaz əşyanın mülkiyyətçisi ilə notariat qaydasında bağlanan müqavilə əsasında (Mülki Məcəllənin 144.1-ci maddəsi) və daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmaqla yaranır (Mülki Məcəllənin 14.3-cü maddəsi).

Həmçinin, daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış məhdud əşya hüquqları bağlı olduqları daşınmaz əşyaya olan mülkiyyət hüququnun özgəninkiləşdirilməsi halında xitam olmadıqları kimi (Mülki Məcəllənin 158.3-cü maddəsi), istənilən üçüncü şəxslərə qarşı da irəli sürülə bilərlər (Mülki Məcəllənin 158.4-cü maddəsi).

Beləliklə, Mülki Məcəllənin 228-ci maddəsində yaşayış binasının tərkib hissəsindən istifadə imkanını təmin edən əmlak hüququ yalnız notariat qaydasında təsdiq olunan müqavilə əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmaqla yarandığına və istənilən şəxsdən bu hüququn pozulmasının aradan qaldırılmasını tələb etmək səlahiyyətini təmin etdiyinə görə, bu hüquq mahiyyətcə məhdud əşya hüququdur.

Bundan fərqli olaraq, yaşayış sahəsi mülkiyyətçisinin hüquqlarının məhdudlaşdırılmasının digər əsaslarından biri kimi Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrində göstərilən ailə münasibətləri əşya hüquqlarına aid edilə bilməz. Belə ki, Mənzil Məcəlləsinin 30-cu maddəsində göstərilən şəxslərin yaşayış sahəsindən istifadə edə bilmələrinə hüquqi əsas yaşayış sahəsinin mülkiyyətçisi ilə bağlanan müqavilələr və onlara əsasən həyata keçirilən mülki hüquqi əməliyyatlar sayəsində əldə edilən hüquqlar deyil, məhz yaşayış sahəsinin mülkiyyətçisi ilə olan ailə münasibətləri sayəsində yaranan hüququn həyata keçirilməsidir.

Mənzil Məcəlləsinin 30.2-ci maddəsində yaşayış sahəsi mülkiyyətçisinin ailə üzvünün «yaşayış sahəsindən istifadə etmək hüququ» ifadəsi ilə yaşayış sahəsinin mülkiyyətçisi ilə ailə münasibətləri əsasında yaranmış, yəni ailə hüququ sahəsinə aid olan hüququn (haqqın) həyata keçirilməsi şəkli (forması) nəzərdə tutulmuşdur. Bu hüquq, ailə qanunvericiliyinin ailənin möhkəmləndirilməsi və etibarlı ailə münasibətlərinin təmin edilməsi ilə bağlı ümumi məqsədindən irəli gələn hüquq olmaqla, yaşayış sahəsi mülkiyyətçisinin ailə üzvlərinin hüquqlarının sosial təminatı kimi çıxış edir. Bu hüququn yaranması ailə münasibətlərinin mövcudluğu ilə şərtləndiyindən, xüsusi hüquq sahəsinə aid edildiyinə baxmayaraq, onun cəmiyyətin normal mövcudluğu üçün vacib olan ailə, valideyn və uşaq institutlarını qoruyan publik hüquq komponentləri də mövcuddur.

Beləliklə, Mənzil Məcəlləsinin 30-cu maddəsində mülkiyyətçiyə məxsus yaşayış sahəsindən onun ailə üzvünün istifadə etməsinə əsas verən hüququn yaranması və xitamı mülki qanunvericiliyin deyil, ailə qanunvericiliyinin müvafiq normaları ilə tənzimlənir. Buna görə də həmin hüququn yaranması və həyata keçirilməsi üçün notariat qaydasında müqavilənin bağlanması və onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması zərurəti yoxdur.

Ailə qanunvericiliyində hansı hallarda valideynlərin öz övladlarını və digər ailə üzvlərini saxlamaq vəzifəsi daşıdıqları və hansı hallarda övladların öz valideynlərini və digər ailə üzvlərini saxlamaq vəzifəsi daşıdıqları müəyyən edilmişdir (Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13 və 15-ci Fəsillərinin müvafiq müddəaları). Buna uyğun olaraq, şəxsin ailə qanunvericiliyi əsasında yaşayış sahəsinin mülkiyyətçisi ilə birlikdə yaşamaq və yaşayış sahəsinin mülkiyyətçisindən özünün saxlanılmasını tələb etmək hüququ varsa və mülkiyyətçi ilə birlikdə yaşayırsa, həmin şəxs Mənzil Məcəlləsinin 30.1-ci maddəsində nəzərdə tutulan «ailə üzvləri» anlayışının əhatə dairəsinə daxildir.

Bunun davamı olaraq, şəxsin ailə qanunvericiliyi əsasında yaşayış sahəsinin mülkiyyətçisi ilə birlikdə yaşamaq və yaşayış sahəsinin mülkiyyətçisindən özünün saxlanılmasını tələb etmək hüququ yoxdursa, onda həmin şəxsin Mənzil Məcəlləsinin 30.2-ci maddəsi əsasında yaşayış sahəsi mülkiyyətçisinin yaşayış sahəsindən istifadə etmək səlahiyyəti də olmaz.

Nəzərə almaq lazımdır ki, Mənzil Məcəlləsinin 30.4-cü maddəsində yaşayış sahəsinin mülkiyyətçisi ilə keçmiş ailə üzvü arasında başqa razılaşma yoxdursa, yaşayış sahəsinin mülkiyyətçisi ilə ailə münasibətlərinə xitam verildikdə, keçmiş ailə üzvünün həmin yaşayış sahəsindən istifadə hüququnun saxlanmadığı qeyd edilmişdir. Bununla belə, əgər tərəflər arasında başqa razılaşma olarsa, keçmiş ailə üzvünün həmin yaşayış sahəsindən istifadə etmək imkanı artıq ailə münasibətlərini tənzimləyən normalara görə deyil, mülki qanunvericilik əsasında davam edər. (Mənzil Məcəlləsinin 30.7-ci maddəsi).

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Mənzil Məcəlləsinin 30.1-ci maddəsinin ikinci cümləsinin «digər qohumlar» ifadəsi Ailə Məcəlləsinin 15-ci Fəslinin müddəalarına əsasən yaşayış sahəsinin mülkiyyətçisindən özünün saxlanılmasını tələb etmək hüququ olan şəxsləri ehtiva edir;

– Mənzil Məcəlləsinin 30.2-ci maddəsində mülkiyyətçiyə məxsus yaşayış sahəsindən onun ailə üzvlərinin istifadə etməsinə əsas verən hüququn yaranması və xitamı mülki qanunvericiliyin deyil, ailə qanunvericiliyinin müvafiq normaları ilə tənzimləndiyindən, bu hüququn yaranması və həyata keçirilməsi üçün Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinə əsasən notariat qaydasında müqavilənin bağlanması və onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması tələb olunmur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.1-ci maddəsinin ikinci cümləsinin «digər qohumlar» ifadəsi Azərbaycan Respublikası Ailə Məcəlləsinin 15-ci Fəslinin müddəalarına əsasən yaşayış sahəsinin mülkiyyətçisindən özünün saxlanılmasını tələb etmək hüququ olan şəxsləri ehtiva edir.

**2.** Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.2-ci maddəsində mülkiyyətçiyə məxsus yaşayış sahəsindən onun ailə üzvlərinin istifadə etməsinə əsas verən hüququn yaranması və xitamı mülki qanunvericiliyin deyil, ailə qanunvericiliyinin müvafiq normaları ilə tənzimləndiyindən, bu hüququn yaranması və həyata keçirilməsi üçün Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.1 və 228.2-ci maddələrinə əsasən notariat qaydasında müqavilənin bağlanması və onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması tələb olunmur.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

18 dekabr 2014-cü il Bakı şəhəri

# Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.1-ci maddəsi baxımından şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Quba rayon Məhkəməsinin hakimi Zamin Tahirovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun

ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Firudin Səməndərovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsinin böyük müstəntiqi Elman Yəhyanın iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin şərh edilməsinə dair Quba rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Quba rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 37-ci maddəsinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 306.1-ci maddəsi və Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.1-ci maddəsinin şərh edilməsinə dair» 2012-ci il 2 oktyabr tarixli Qərarı (bundan sonra – Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarı) baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, R.Babayev Quba rayon Məhkəməsinin 24 sentyabr 2010-cu il tarixli qətnaməsinin icrası ilə bağlı icra məmurunun qanuni tələbini üzrsüz səbəbdən yerinə yetirməməsinə görə 25 oktyabr 2011-ci il tarixində Quba rayon Məhkəməsi tərəfindən İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə təqsirli bilinərək, inzibati qaydada 3 gün müddətinə inzibati həbs cəzası ilə cəzalandırılmışdır. R.Babayev barəsində tətbiq olunmuş inzibati tənbehin icrası 28 oktyabr 2011-ci il tarixində bitmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İstintaq idarəsinin müstəntiqinin 25 noyabr 2013-cü il tarixli qərarı ilə R.Babayevin Quba rayon Məhkəməsinin 24 sentyabr 2010-cu il tarixli qanuni qüvvəyə minmiş qətnaməsini icra etməməsi faktına görə Cinayət Məcəlləsinin 306.1-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Müraciət edən qeyd edir ki, Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarında Cinayət Məcəlləsinin 306-cı maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin, məhkəmə aktını icra etməməsinə görə İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə inzibati

məsuliyyətə cəlb edildikdən sonra şəxs tərəfindən icra sənədinin yenidən qərəzli olaraq icra edilmədiyi hallarda yaranması göstərilmişdir.

İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinə əsasən barəsində inzibati tənbeh tətbiq olunmuş şəxs tənbehin icrasının qurtardığı gündən etibarən bir il ərzində yeni inzibati xəta törətməmişsə, o, inzibati məsuliyyətə cəlb edilməmiş sayılır.

Müraciət edən hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsi Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə və Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarına əsasən şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün hüquqi əsasın olub-olmamasının müəyyən edilməsi ilə bağlı məhkəmə təcrübəsində müəyyən çətinliklər yaradır.

Belə ki, bəzi yanaşmalara görə barəsində tətbiq edilən inzibati tənbehin icrası müddəti qurtardığı gündən etibarən şəxsin bir il ərzində inzibati xəta törətmədiyi halda inzibati məsuliyyətə cəlb edilməmiş sayılması, onun Cinayət Məcəlləsinin 306.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsini istisna edir. Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarında Cinayət Məcəlləsinin 306-cı maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyətinin yaranması üçün şəxsin İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilməsi imperativ qayda kimi müəyyən edilir. Tənbehin icrası müddətinin faktiki bitməsi günündən bir il müddətin keçməsi isə şəxsin Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə məsuliyyətə cəlb edilməsi üçün zəruri olan inzibati məsuliyyəti aradan qaldırır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 129-cu maddəsinin I və II hissələrinə görə məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Məhkəmə qərarlarının icrasının məcburiliyi «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində də əks olunmuşdur. Həmin maddəyə əsasən məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar çıxarırlar. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş bu qərarlar Azərbaycan Respublikası ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Konstitusiyanın 60-cı maddəsində hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiya Məhkəməsi Plenumunun ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı formalaşdırdığı hüquqi mövqe ondan ibarətdir ki, ədalət mühakiməsi mahiyyət etibarilə ədalət anlayışına cavab verməli və hüquqların təsirli şəkildə bərpa olunmasını təmin etməlidir.

Məhkəmə təminatı hüququ məhkəmənin təkcə vətəndaşların şikayətlərinə baxmaq və qanuni, əsaslandırılmış və ədalətli qərar qəbul etmək vəzifəsini ehtiva etmir. Həmin təminat, həmçinin qəbul olunmuş məhkəmə aktlarının icra edilməsini də nəzərdə tutur. Belə ki, ədalət mühakiməsinin mühüm elementlərindən biri məhkəmə qərarlarının vaxtında və tam icrasına nail olunmasıdır. Əks halda, həmin qərarların vaxtında icra olunmaması ədalətli məhkəmə araşdırılması hüququnun pozulması hesab olunur.

Ədalətli məhkəmə araşdırılması hüququ «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyada (bundan sonra – Konvensiya) da öz əksini tapmışdır. Konvensiyanın 6-cı maddəsinin tələbinə görə hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasına dair mövqeyinə görə, iştirakçı dövlətin daxili hüquq sistemi məcburi qüvvəyə malik yekun məhkəmə qərarının tərəflərdən birinin ziyanına olaraq yerinə yetirilməmiş qalmasına imkan versəydi, məhkəmə araşdırılması hüququ xəyali hüquq olardı. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi iş üzrə tərəflərə verilən prosessual təminatları (ədalətli, açıq və vaxtında aparılan məhkəmə araşdırılması) ətraflı təsvir etdiyi halda məhkəmə qərarlarının ic-

rası hüququnu müdafiə etməsəydi, bu, anlaşılmaz bir hal olardı. Qeyd olunan maddəni yalnız məhkəməyə müraciət edilməsi və icraatın aparılması ilə əlaqədar olan maddə kimi şərh etmək, yəqin ki, qanunun aliliyi prinsipinə zidd olan situasiyalara gətirib çıxarardı; halbuki iştirakçı dövlətlər Konvensiyanı ratifikasiya edərkən həmin prinsipə hörmət etməyi öhdələrinə götürüblər. Buna görə də, hər hansı məhkəmə tərəfindən çıxarılmış qərarın icrası Konvensiyanın 6-cı maddəsinin məqsədləri üçün «məhkəmə araşdırılmasının» ayrılmaz tərkib hissəsi sayılmalıdır. (Hornsbi Yunanıstana qarşı iş üzrə 1997-ci il 19 mart tarixli Qərar, §40).

Avropa Məhkəməsi həmçinin qeyd etmişdir ki, məhkəmə qərarının icrasının gecikdirilməsinə xüsusi hallarda haqq qazandırıla bilər. Amma bu gecikdirmə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə qorunan hüququn mahiyyətinə xələl gətirməməlidir. (Burdov Rusiyaya qarşı iş üzrə 2002-ci il 7 may tarixli Qərar, §35).

«İcra haqqında» Azərbaycan Respublikasının Qanunu (budan sonra – «İcra haqqında» Qanun) məhkəmə qərarlarının məcburi icrası qaydalarını və şərtlərini ətraflı və dəqiq tənzimləyir. Belə ki, həmin Qanunun III Fəsli məcburi icra tədbirləri və onların tətbiqinin əsaslarını, IV Fəsli tələbin borclunun əmlakına yönəldilməsi, VI Fəsli isə tələbin borclunun əmək haqqına və digər gəlirlərinə yönəldilməsi qaydalarını müəyyən edir.

Məhkəmənin qətnaməsini, hökmünü, qərarını, yaxud digər aktını icra etməmə dedikdə, icra üçün daxil olmuş məhkəmə qətnaməsinin, hökmünün, qərardadının, qərarının və ya əmrinin icrasını həyata keçirmək üçün bu və ya digər hərəkəti etməli olan şəxsin qanunla müəyyən edilmiş müddətdə həmin hərəkətləri etməməsi başa düşülür. Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarında qeyd edilmişdir ki, məhkəmə aktlarını qərəzli icra etməmə, bir qayda olaraq, hərəkətsizlik nəticəsində baş verir. Borclu məhkəmə qərarının icrası üçün müəyyən hərəkətləri etmir. Bununla yanaşı, icra etməmə borclunun müəyyən hərəkətləri etməsi ilə də həyata keçirilə bilər.

Cinayət Məcəlləsinin 306.1-ci maddəsində qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 265.5-ci maddəsinin və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 82.3-cü maddəsinin şərh edilməsinə dair» 2008-ci il 15 fevral tarixli Qərarında göstərilmişdir ki, «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 82-ci maddəsinin quruluşunda qanunverici tərəfindən inzibati preyudisiyadan istifadə olunmuşdur. Həmçinin inzibati məsuliyyətdən sonra borclunun hüquqazidd davranışı davam etdiyi halda onun cinayət məsuliyyətinə cəlb olunması, habelə bunun məhz Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq orqana, məhkəmə icraçıları qurumunun rəhbərinin təqdimatı əsasında mümkünlüyü müəyyən olunmuşdur.

Cinayət qanunvericiliyində inzibati preyudisiya, bir tərəfdən əməlin lazımsız kriminallaşdırılmasını istisna edir, digər tərəfdən isə analoji hüquq pozuntusuna görə şəxsi inzibati məsuliyyətə cəlb etmək vasitəsi ilə cinayətlərin qarşısının alınmasına imkan yaradır.

Bu halda, inzibati tənbeh təkcə inzibati hüquq pozuntusu ilə deyil, həm də cinayətlə mübarizədə hüquqi vasitə hesab edilir. Belə ki, inzibati pozuntu törətmiş və buna görə inzibati məsuliyyətə cəlb olunmuş şəxs təkrarən eyni pozuntunu törətməsi halında cinayət məsuliyyətinə cəlb ediləcəyi barədə xəbərdar edilir. İnzibati məsuliyyətə cəlb edilmənin nəticəsiz qalması, bu inzibati tənbehin tərbiyəedici, xəbərdaredici təsir göstərmədiyini sübut edir. Belə olan halda, təqsirləndirilən şəxs cinayət məsuliyyətinə cəlb edilir.

İnzibati tənbehin icrası zamanı və qanunla nəzərdə tutulmuş icradan sonrakı müddət şəxsin inzibati məsuliyyətə cəlb olunmuş hesab edildiyi müddətdir. Bu müddət ərzində şəxsin yeni inzibati xəta törətməsi faktı onun üçün hüquqi xarakterli mənfi nəticələr (inzibati məsuliyyəti ağırlaşdıran hal və daha ciddi inzibati tənbehin tətbiqi üçün tövsifedici əlamət) yarada bilər. İnzibati tənbehin ödənilməsi müddəti sınaq müddəti hesab edilir və bu müddətdə məsuliyyətə cəlb olunmuş şəxs özünün islah olunmasını sübut etməlidir.

Cinayət hüququnda inzibati preyudisiya Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarında da öz əksini tapmışdır. Həmin Qərara əsasən Cinayət Məcəlləsinin 306-

cı maddəsində nəzərdə tutulmuş cinayət tərkibi şəxs İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edildikdən sonra yaranır. Lakin şəxsin İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilmiş olması qeyd şərtsiz olaraq onun Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsinə səbəb ola bilməz. Məhkəmə qərarını icra etməyən şəxsin bunu qərəzli olaraq edib-etməməsi və ya məhkəmə aktlarının icrasına maneçilik törətməsi həmin şəxs inzibati məsuliyyətə cəlb edildikdən sonra aydınlaşdırılmalıdır və yalnız bu əlamət mövcud olduqda cinayət təqibi başlana bilər.

Konstitusiya Məhkəməsi Plenumunun 2012-ci il 2 oktyabr tarixli Qərarında qeyd edilmişdir ki, məhkəmə aktlarının qərəzli icra edilməməsini aşağıdakılara əsasən müəyyən etmək olar:

– məhkəmə qərarında nəzərdə tutulmuş tələblərin həmin qərarda müəyyən edilmiş müddət ərzində icra edilməməsi;

– borcluya məhkəmə qərarının icra edilməməsi haqqında dəfələrlə rəsmi xəbərdarlıq edilməsi;

– borclunun məhkəmə qərarını icra etməməsinə görə inzibati məsuliyyətə cəlb edilməsi;

– borclu tərəfindən məhkəmə qərarının icrası üçün yetərli tədbirlərin görülməməsi;

– borclunun məhkəmə qərarının icrası üçün faktiki imkanlarının olması. Eyni zamanda, tələbin yönəldilməsi mümkün olan əmlakın və pul vəsaitinin gizlədilməsi, icradan yayınmaq məqsədilə əmlakın özgəninkiləşdirilməsi və borcun tam ödənilməsi imkanı olduğu halda kiçik məbləğin ödənilməsi ilə məhkəmə qərarının icrasından yayınma məhkəmə aktlarının qərəzli icra edilməməsi kimi qiymətləndirilməlidir.

Göstərilənlərlə yanaşı, məhkəmə qərarlarının icrası məsələsinin daim xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, səlahiyyətli dövlət orqanları məhkəmə qərarlarının icrası ilə bağlı bütün lazımi tədbirləri vaxtında görməlidirlər.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, məhkəmə qərarlarının icra edilməməsi uzanan cinayətdir. Uzanan cinayət müəyyən cinayət tərkibinin uzun müddət ərzində fasiləsiz olaraq həyata keçirilməsində ifadə olunur və cinayət əməlinin törədilməsi ilə bitmir.

Bu baxımdan, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin tələbləri məhkəmə qərarının icra edilməməsinə görə cinayət məsuliyyətinə cəlb edilməni istisna etmir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin tələbləri inzibati xarakterli pozuntu törətmiş və bunun nəticəsində inzibati məsuliyyətə cəlb olunmuş şəxslərə aiddir. Belə ki, inzibati xətaya görə inzibati tənbeh almış şəxsin eyni xətanı il ərzində təkrar törətməsi onun üçün daha ciddi inzibati tənbehin tətbiqinə dair tövsifedici əlamətdir.

Yuxarıda qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsinə müvafiq olaraq barəsində inzibati tənbeh tətbiq olunmuş şəxs, məhkəmə aktını qərəzli olaraq icra etməməkdə davam edərsə, Cinayət Məcəlləsinin 306.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilir. Bu hallara İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin tələbləri şamil edilmir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsinə müvafiq olaraq barəsində inzibati tənbeh tətbiq olunmuş şəxs, məhkəmə aktını qərəzli olaraq icra etməməkdə davam edərsə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.1-ci maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilir. Bu hallara Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 37-ci maddəsinin tələbləri şamil edilmir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

12 fevral 2015-ci il Bakı şəhəri

## Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə iclas katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Qəbələ rayon Məhkəməsinin sədri Vahid Sadıqovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati qanunvericilik sektorunun müdiri Fuad Məmmədovun,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professor əvəzi, hüquq üzrə elmlər doktoru Midhəd Qəfərovun və müstəqil ekspert hüquq üzrə fəlsəfə doktoru Aydın Yusubovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Munis Abuzərlinin, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Baş istintaq idarəsinin şöbə rəisi Mahir Qasımovun, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş cinayət axtarışı idarəsinin əməliyyat müvəkkili Ceyhun Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Qəbələ rayon Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertlərin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Qəbələ rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilən materiallara münasibətdə məhkəmə nəzarətini həyata keçirən məhkəmənin səlahiyyətlərini müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Qəbələ rayon Məhkəməsinin icraatına CPM-in 445.2-ci maddəsinin tələblərinə uyğun olaraq Qəbələ rayon polis şöbəsi tərəfindən «Əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə dair» 8 iyul 2014-cü il tarixli qərar və bu qərar əsasında həmin tarixdə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə bağlı «Baxış keçirilməsi haqqında» iki protokol daxil olmuşdur.

Müraciət edənin fikrincə, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların sübut kimi qəbul və istifadə edilməsinə yalnız həmin materialların cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun təqdim edilməsi və yoxlanılması şərti ilə yol verilir (CPM-in 137-ci maddəsi). Bu isə CPM-in 445.2-ci maddəsinə əsasən əməliyyat-axtarış tədbirinin aparılması barədə qərarın

məhkəməyə sadəcə məlumatlandırmaq üçün təqdim edilməsini deyil, həm də məhkəmənin əməliyyat-axtarış tədbiri nəticəsində əldə edilmiş materiallar üzrə müvafiq tədbirin keçirilməsinin qanuniliyini yoxlamaq səlahiyyətini nəzərdə tutur. Əməliyyat-axtarış materiallarının təqdim edilməsi və yoxlanılması qaydaları isə cinayət-prosessual qanunvericiliyində müəyyən edilməmişdir.

Qeyd edilənlərə əsaslanaraq, Qəbələ rayon Məhkəməsi CPM-in 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarətinin hədləri baxımından şərh edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi vacib hesab edir.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri də məhkəmə-hüquq islahatlarıdır. Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra – Konstitusiya) ali dəyər olan insan və vətəndaş hüquq və azadlıqlarının təminatında məhkəmələrin rolu xüsusi qeyd olunmuşdur. Hüquqi dövlətdə insan hüquqlarının məhdudlaşdırılması yalnız qanun əsasında mümkündür. İnsan hüquqlarının məhdudlaşdırılmasının qanuniliyinə, mütənasibliyinə və ədalətliliyinə nəzarəti isə məhkəmələr həyata keçirirlər.

Məhkəmə nəzarəti cinayət-prosessual qanunvericiliyi sahəsində əsasən məhkəməyədək icraat mərhələsində öz funksional yükünü daşıyır. Məhkəmə nəzarəti cinayət-prosesi çərçivəsində təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun fəaliyyəti nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilələrin qarşısını almağa, pozulmuş hüquqların bərpasına xidmət edən məhkəmə fəaliyyətinin müstəqil növüdür.

Məhkəmə nəzarətinin hüquqi əhəmiyyəti Konstitusiya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr ilə müəyyən edilir.

Konstitusiyanın 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyinin məhkəmələr tərəfindən həll edilməsi məhz Konstitusiyanın 71-ci maddəsinin VII hissəsindən irəli gəlir. Belə ki, Konstitusiyanın həmin normasına görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Hər kəs əmin olmalıdır ki, dövlət orqanları tərəfindən hər hansı qanuni təqib həyata keçirilirsə, həmin fəaliyyətə müstəqil məhkəmə orqanı tərəfindən nəzarət mövcuddur.

Bununla yanaşı, ayrı-ayrı konstitusiya normalarında insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasında məhkəmə nəzarətinin vacibliyi xüsusi qeyd edilir. Məsələn, Konstitusiyanın 33-cü maddəsinin II hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

«İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın (bundan sonra – Konvensiya) 5-ci maddəsində azadlıq və toxunulmazlıq hüququnun təminatında məhkəmə nəzarətinin vacibliyi birbaşa vurğulanmışdır.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində məhkəməyədək icraat mərhələsində məhkəmə nəzarəti nisbətən yeni institutdur. Prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarəti məhkəməyədək icraat mərhələsində ibtidai araşdırma subyektlərinin fəaliyyətinin insan hüquq və azadlıqlarına qanunsuz müdaxiləsinin qarşısının alınmasına yönəlmişdir. Prokuror nəzarəti ümumilikdə təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunçuluğa riayət edilməsinə yönəldiyi halda, məhkəmə nəzarəti əməliyyat-axtarış fəaliyyəti subyektləri tərəfindən insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasının qanuniliyi, əsaslılığı, mütənasibliyi, məqsədəmüvafiqliyi və təxirəsalınmazlığının yoxlanılması funksiyasını daşıyır.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli Qanununa (bundan sonra – «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun) əsasən əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti prokuror nəzarətindən fərqli olsa da, onlar arasında oxşar cəhətlər də mövcuddur.

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 20-ci maddəsinin I hissəsində göstərilir ki, əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən qanunların icrasına nəzarəti Azərbaycan Respublikasının Baş

prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar həyata keçirirlər. Həmin maddənin IV və V hissələrinə görə əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vasitələrinə dair məlumatlar prokuror nəzarətinin predmetinə daxil deyil və əməliyyat-axtarış fəaliyyətinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Baş prokuroru və onun tərəfindən müvəkkil edilmiş prokurorlar onlara verilən sənədlərdə əks olunan məlumatların məxfiliyini təmin etməlidirlər.

Beləliklə, məhkəmə nəzarəti ilə prokuror nəzarəti arasında nəzarətin predmeti baxımından fərqlilik müşahidə olunsa da, əməliyyat-axtarış fəaliyyətinin spesifik xüsusiyyətlərini nəzərə alaraq, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun 20-ci maddəsinin IV və V hissələrinin tələblərini məhkəmə nəzarəti fəaliyyətinə də aid etmək olar.

Məhkəmə prosessual funksiyaların bölüşdürülməsi prinsipini rəhbər tutaraq, əməliyyat-axtarış və ya ibtidai araşdırma subyektlərinin fəaliyyəti sahəsində bütövlükdə qanunçuluğa nəzarət etmək vəzifəsini daşımır. Belə ki, cinayət barədə məlumatların qeydiyyatı, ibtidai araşdırmanın başlanması haqqında qərar və ya digər insan hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olmayan prosessual tədbirlər məhkəmə nəzarətinin predmeti ola bilməz.

Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair» 5 avqust 2009-cu il tarixli Qərarında qeyd edilmişdir ki, məhkəmə nəzarəti icraatında məhkəmə əsasən iki vəzifə daşıyır: cinayət təqibi üzrə müvəkkil edilmiş orqanlar və vəzifəli şəxslər tərəfindən edilən ayrı-ayrı hərəkətlərin və qəbul olunan qərarların qanuniliyinin təmin olunması; cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının qorunması (əsassız və qanunsuz məhdudlaşdırılmasının istisna edilməsi, hüquqların pozulmasına son qoyulması və pozulmuş hüquqların bərpası).

Beləliklə, prokuror nəzarətindən fərqli olaraq, məhkəmə nəzarətinin predmetini – insan və vətəndaş hüquq və azadlıqlarının təminatı ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı təşkil edir.

Qeyd edildiyi kimi, məhkəmə nəzarəti Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nisbətən yeni institutdur. 2000-ci il 1 sentyabr tarixindən qüvvəyə minmiş CPM-in 442.2-ci maddəsi məhkəmə nəzarətinin obyektini müəyyən edərək göstərir ki, məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında məhkəmə aşağıdakılara baxır: hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, mülkiyyət hüququnu, şəxsi sirrinin (o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların) saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatları ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılmasına, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsinə və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara, bununla yanaşı cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinə və ya qərarlarına dair şikayətlərə.

Məhkəmə nəzarəti sahəsinə aid olan məsələlər, habelə onların həyata keçirilməsi qaydası CPM-in 443-454-cü maddələri ilə müəyyən edilir. Bu maddələr cinayət prosesində istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi, habelə əməliyyat-axtarış tədbirinin keçirilməsi halında mütləq qaydada məhkəmə nəzarətinin mövcudluğunu nəzərdə tutur.

Bununla yanaşı, əməliyyat-axtarış fəaliyyətinin əsasları «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanun ilə tənzimlənir. Bu Qanun insanların konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönələn hər hansı bir əməliyyat-axtarış tədbirinin yalnız məhkəmənin qərarı əsasında keçirilməsini və ya keçirildikdən dərhal sonra məhkəməni həmin tədbir haqqında məlumatlandırmağı nəzərdə tutur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) bir sıra qərarlarında məhkəmə nəzarətinin vacibliyini vurğulamışdır. Belə ki, Avropa Məhkəməsi Xudobin Rusiyaya qarşı iş üzrə 26 oktyabr 2006-cı il tarixli Qərarında bildirmişdir ki, istintaq tədbirlərinə sanksiya verən, nəticələrini öncədən görmək mümkün olan aydın prosedur mövcud olmalı, eləcə də həmin tədbirlərə lazımi qaydada nəzarət təşkil edilməlidir ki, hakimiyyət orqanlarının vicdanlı davranması və hüquqa zidd olmayan hüquq-mühafizə məqsədlərinə riayət edilməsi təmin olunsun. Eyni hüquqi mövqe Avropa Məhkəməsinin Klass və başqaları Almaniyaya qarşı iş üzrə 6 sentyabr 1978-ci il, Lüdi

İsveçrəyə qarşı iş üzrə 15 iyun 1992-ci il tarixli Qərarlarında da ifadə edilmişdir.

Avropa Məhkəməsi öz qərarlarında göstərir ki, əməliyyat-axtarış fəaliyyətinə məhkəmə nəzarəti sui-istifadənin qarşısının alınmasına və qüvvənin mütənasib istifadəsinə nəzarət edir. Avropa Məhkəməsi Uzun Almaniyaya qarşı işi üzrə 2 sentyabr 2010-cu il tarixli Qərarında bildirmişdir ki, şübhəli şəxslərin avtomobilində quraşdırılan və güdmə funksiyasını daşıyan GPS (qlobal təsvir sistemi) hazırlanan cinayətin qarşısının alınması məqsədi ilə məhkəmə nəzarəti altında istifadə edildiyinə görə adekvat və effektiv təminatlarla aparılıb. Bu isə istifadə olunan əməliyyat-axtarış tədbirlərinin aparılmasında sui-istifadənin qarşısının alınması üçün faydalı vasitədir.

Məhkəmə nəzarətinin mövcudluğu, ilk növbədə, əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin mövcudluğunu ifadə edir. Avropa Məhkəməsi Avropaya inteqrasiya və insan hüquqları naminə Assosiasiya və Ekimciyeva Bolqarıstana qarşı iş üzrə 28 iyun 2007-ci il tarixli Qərarında qeyd etmişdir ki, məxfi müşahidənin tətbiqinə ümumi nəzarətin bilavasitə xüsusi vasitələrin tətbiq edilməsini həyata keçirən daxili işlər orqanlarına həvalə edilməsi nəticə etibarı ilə əməliyyat-axtarış fəaliyyətinə qərəzsiz orqanın nəzarətinin olmadığını bildirir, bu isə Konvensiyanın 8-ci maddəsinin tələblərinin pozulduğunu göstərir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət prosesində istifadə olunan əməliyyat-axtarış fəaliyyətinin nəticələri iki yolla əldə oluna bilər: 1) məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində; 2) əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan həmin tədbir barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində.

Birinci halda, məhkəmə qərarının əvvəlcədən alınması qaydasında əməliyyat-axtarış fəaliyyətinin aparılmasına məhkəmə nəzarətinin həcmi (həddi) problemi təcrübədə hər hansı mübahisə yaratmır. CPM-in 446.4-cü maddəsindən görünür ki, istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar vəsatətə əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə nəzarəti funksiyalarını həyata keçirən hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Qanunverici əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın rəhbərinin vəsatətinin əsaslandırılması üçün bir sıra tələblər irəli sürür. Məsələn, vəsatətdə əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyi əsaslandırılmalı, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi nəticəsində hansı nəticənin əldə edilməli olduğu və nə üçün həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin mümkün olmaması, əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin hansı müddətdə, harada və hansı üsullarla nəzərdə tutulduğu və digər əhəmiyyətli məlumatlar göstərilməlidir.

Əməliyyat-axtarış tədbirini həyata keçirən orqanın vəsatətində qeyd olunan müddəalar əsaslandırılmaqla prokurora təqdim edilir. Prokuror öz növbəsində əməliyyat-axtarış tədbirinin həyata keçirilməsi haqqında materialları nəzərdən keçirməklə müvafiq qərar qəbul edir, yəni vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarır, yaxud zəruriliyini təsdiq edən materialları vəsatətə əlavə etməklə müvafiq qərarın qəbul edilməsi üçün məhkəməyə təqdimat göndərir.

Beləliklə, məhkəmənin razılığı ilə aparılan tədbirlərə dair məhkəmə nəzarətini həyata keçirən hakimin qanunvericiliklə müəyyən edilən səlahiyyətləri kifayət qədər genişdir. Əvvəla, məhkəmənin razılığını almaq məqsədi ilə qaldırılan vəsatətə istintaq hərəkətinin məcburi aparılmasının, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsinin və ya əməliyyat-axtarış tədbirinin həyata keçirilməsinin zəruriliyini təsdiq edən materiallar əlavə edilməlidir. Həmin materiallar kifayət etmədikdə, hakim onların tamamlanmasını tələb etmək hüququna malikdir.

Göründüyü kimi, CPM-də əməliyyat-axtarış tədbirləri keçirilərkən şəxsi toxunulmazlıq, yazışma, telefon danışıqları, poçt, teleqraf və poçt rabitəsi şəbəkələri ilə ötürülən digər məlumatların sirri, eləcə də mənzil toxunulmazlığı barədə hər bir kəsin konstitusiya hüquq və azadlıqlarının məhdudlaşdırılmasına dair materiallara məhkəmə qaydasında baxılması nəzərdə tutulmuşdur. Məhkəmə nəzarəti qaydasında daxil olan əməliyyat-axtarış sənədlərində göstərilən məlumatların məxfiliyinin təmin edilməsi üçün məhkəmədə şərait yaradılır.

CPM-in 448-ci maddəsinə görə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məsələlərinə

dair məhkəmə iclasının nəticələri üzrə hakim müvafiq əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə verir və ya onun keçirilməsindən imtina edir, bu barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar əməliyyat-axtarış tədbirinin keçirilməsinin təşəbbüskarına verilir və təqdim olunmuş materiallar geri qaytarılır. Eyni zamanda, məhkəmə nəzarəti qaydasında qəbul edilən qərar hakim tərəfindən tam əsaslandırılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən Qəbələ rayon Məhkəməsinin müraciəti araşdırılarkən müəyyən edilmişdir ki, təxirəsalınmaz tədbirlərin keçirilməsindən sonra məhkəmə nəzarəti qaydasında keçirilmiş tədbirlər barəsində məhkəməni məlumatlandırmaq qaydası təcrübədə fərqli tətbiq edilir. Bunun səbəbi isə ilk növbədə, qanunu tətbiq edən subyektlərin normanın tələblərinə tam formal yanaşmasıdır. Belə ki, CPM-in 445.2-ci maddəsinin tələblərinə görə «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanununun 10-cu maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş hallarda CPM-in 445.1-ci maddəsində göstərilən əməliyyat-axtarış tədbirləri məhkəmənin qərarı olmadan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsinin əsaslandırılmış qərarı ilə həyata keçirilə bilər. Bu halda əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanın səlahiyyətli şəxsi müvafiq tədbir aparıldıqdan sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

CPM-in qeyd edilən norması əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqandan məhkəmə nəzarəti qaydasında, formal olaraq müvafiq tədbir keçirildikdən sonra 48 saat müddətində əməliyyat-axtarış tədbirinin aparılması barədə yalnız əsaslandırılmış qərarı məhkəmə nəzarətini həyata keçirən məhkəməyə təqdim etməsini tələb edir.

Məsələyə formal cəhətdən yanaşıldığı təqdirdə məhkəmə yalnız həyata keçirilmiş əməliyyat-axtarış tədbirinin zəruriliyini və qanuna uyğun aparıldığını yoxlamaqla müvafiq qərar çıxarmalıdır. Bu qərarın surəti əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqana və ibtidai istintaqa rəhbərlik edən prokurora göndərilir. Gələcəkdə işə mahiyyəti üzrə baxılarkən bu əməliyyat tədbirinin nəticələrinə ümumi qaydada baxılır. Yəni digər sübutlar kimi əməliyyat-axtarış tədbirlərinin nəticələri də yoxlanılıb qiymətləndirilir.

Məhkəmə nəzarətinin formal olması məhkəmə nəzarəti funksiyasını «passiv legitimləşdirmə» fəaliyyətinə oxşar edə bilər. Bu terminin izahı ətraflı olaraq Konstitusiya Məhkəməsi Plenumunun «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 2.1-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.2 və 2.2.1-ci maddələrinin şərh edilməsinə dair» 19 may 2014-cü il tarixli Qərarında verilmişdir. Lakin məhkəmə qarşısında məhkəməyədək mərhələdə nəzarətə dair xüsusi prosessual vəzifə – insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilənin qarşısının alınması vəzifəsi qoyulmuşdur.

Nəzərə alınmalıdır ki, məhkəmə nəzarətinin obyekti iki əsas elementdən ibarətdir: 1) konstitusiya hüquq və azadlıqlarının qorunması; 2) həmin hüquq və azadlıqların qorunması ilə əlaqədar təhqiqat, istintaq və prokurorluq orqanları tərəfindən qəbul edilən qərarların qanuniliyi və əsaslılığı. Bu elementlərə nəzarətin təminatı üçün məhkəmələrin kifayət qədər məhkəmə nəzarəti funksiyalarını həyata keçirmək səlahiyyətləri olmalıdır.

CPM-in 143.2-ci maddəsində qeyd edilir ki, məhkəmə cinayət prosesi tərəflərinin vəsatəti, yaxud öz təşəbbüsü ilə sübutların toplanması prosesində fiziki, hüquqi və vəzifəli şəxslərdən, habelə əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlardan cinayət təqibi üzrə əhəmiyyət kəsb edən sənəd və əşyaları təqdim etməyə, yoxlama və təftişin keçirilməsini səlahiyyətli orqanlardan və vəzifəli şəxslərdən tələb etməyə haqlıdır.

Məhkəmənin bu səlahiyyətləri sübutların toplanması prosesinə aiddir. Əməliyyat-axtarış tədbirlərinin məhkəmə nəzarəti altında aparılması isə sonda həmin tədbirin nəticələrinin cinayət-prosessual qaydada sübut qismində istifadəsinə əsas verir. Beləliklə, məhkəmələr sübutların gələcək məhkəmə prosesində faydalı və obyektiv istifadəsini təmin etmək məqsədi ilə məhkəməyədək mərhələdə məhkəmə nəzarəti funksiyasının geniş və hərtərəfli aparılmasında səlahiyyətli olmalıdırlar.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, hakim məhkəməyə qədər mərhələdə məhkəmə nəzarətini həyata keçirən zaman aşağıdakı səlahiyyətlərə malikdir:

– əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə vermək və tədbirin keçirilməsinə dair qaldırılan vəsatəti təmin etmək və ya etməmək;

– şəxsin konstitusiya hüquq və azadlıqlarının qanuni məhdudlaşdırılması haqqında qərarın qüvvədə olma müddətini uzatmaq;

– əməliyyat-axtarış tədbirinin keçirilməsinin əsaslarına dair əlavə materialları tələb etmək;

– hüquq və azadlığı məhdudlaşdırılan şəxsi dinləmək və ehtiyac olduğu halda (əməliyyat-axtarış tədbirlərinin gizli və ya aşkar keçirilməsindən asılı olaraq) ərizəçini ona qarşı aparılan əməliyyat-axtarış tədbirlərinin səbəbləri haqqında məlumatlandırmaq;

– şəxsin konstitusiya hüquq və azadlıqlarının təminatı məqsədi ilə digər tədbirlər görmək.

Nəzərə alınmalıdır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin məhkəmənin razılığı ilə aparılan tədbirlər nəticəsində və ya əvvəlcədən məhkəmənin razılığını almadan, lakin sonradan bunun barəsində məhkəməyə məlumat vermək şərti ilə, keçirilən tədbirlər nəticəsində əldə edilməsindən asılı olmayaraq, həmin tədbirlərin keçirilməsinə məhkəmə nəzarətinin hədləri dəyişilməzdir. Öz növbəsində, məhkəmə nəzarəti qaydasında keçirilən yoxlamanın nəticəsində məhkəmələr müvafiq qərar qəbul edirlər. Məhz bu baxımdan, məhkəmələr əməliyyat-axtarış tədbiri keçirildikdən sonra məhkəmə nəzarəti qaydasında həmin tədbirin insan hüquq və azadlıqlarının təminatı baxımından qanuni, əsaslı, mütənasib, məqsədəmüvafiq və təxirəsalınmaz keçirilməsini yoxlayaraq CPM-in 448-ci maddəsinə əsasən müvafiq qərar qəbul etməlidirlər.

Qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– CPM-in 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalı və ehtiyac olduğu halda əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər;

– əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanuna uyğun əldə olunduqda və CPM-in tələblərinə uyğun təqdim edildikdə və məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalıdır, ehtiyac olduğu halda isə əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər.

**2.** Əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə, habelə məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

***

*Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsi barədə Konstitusiya Məhkəməsinin 12 fevral 2015-ci il tarixli Qərarı üzrə Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov xüsusi rəydə qalmışdır.*